www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 mart 2015-ci il Cümə axşamı № 61 (6089) Qiymәti 40 qәpik

**Xəbər**

## Bakıda gənc qız burnundan əməliyyat olunarkən öldü

yazısı səh.14-də

**Gündəm**

### Ərdoğanın Putinə qəfil zəngi və Bakıdan duyulanlar - iddia



Türkiyə lideri təzəcə "tapılan" Kreml başçısı ilə yarım saat danışıb; Ərdoğanın öz həmkarını saxta "soyqırımın" yubiley törəni ilə bağlı qərarından daşındırmağa çalışdığı ehtimal edilir...

yazısı səh.9-da

### Qarabağ münaqişəsinin həllinə dair referendum təklifi

yazısı səh.5-də

### TANAP Azərbaycana nə verəcək...

yazısı səh.8-də

### Müsavatçı Fərəc Kərimliyə qarşı ittiham aktı elan olundu

yazısı səh.3-də

### Azərbaycanın müsəlman dostu: Pakistan

yazısı səh.9-da

### Yeni ipoteka təklifi - tikinti sektoruna dəstək?!

yazısı səh.10-da

### Qarsda himn krizi: təxribat, yoxsa...

yazısı səh.9-da

### Sərkisyan və dəstəsindən yeni müharibə ritorikası

yazısı səh.11-də

### Hökumətin manat qorxusu- ikinci devalvasiya qaçılmazdır...

yazısı səh.10-da

### Putinin atalıq məzuniyyətinə çıxmaq hüququ varmış...

yazısı səh.13-də

*Arzu Nağıyev:*

### "Həbslərin əsas səbəbi terror təhdidləridir"

yazısı səh.12-də

### Azərbaycanda mənzillər ucuzlaşmaq əvəzinə bahalaşır

yazısı səh.10-da

# 101 nəfər cəzadan azad edildi

# PREZİDENT KİMLƏRİ ƏFV ETDİ, KİMLƏR QALDI - TAM SİYAHI

Azadlığa buraxılanlar sırasında 4 vicdan məhbusu da var; Əfv Komissiyasının üzvü və hüquq müdafiəçiləri sərəncamı dəyərləndirdilər; müxalifətdən isə tənqid gəldi



yazısı səh.5-də

## Rektorun döyülən qızını həbs edə bilərlər - səbəb atasının açıqlaması

Zorba qardaşlardan biri həbs olundu; müdhiş olayda yeni ad ortaya çıxdı - Katya; hüquqşünas: "Atasının açıqlamaları qızının zərərçəkən kürsüsündən, cinayətkar kürsüsünə transferinə səbəb ola bilər"

yazısı səh.4-də



*Hamlet İsaxanlı:*

### "Əslində günah qızımda olub"

yazısı səh.6-da



*Sərdar Cəlaloğlu:*

### "Manatın məzənnəsi - bir dollar iki-üç manat həcminə qədər düşəcək"

yazısı səh.3-də



### Əhməd Davudoğlundan mühüm Qarabağ açıqlaması

yazısı səh.11-də




# Bakı Olimpiya Stadionu açıldı

**Bakı Olimpiya Stadionunun açılışı olub. Azərbaycan prezidenti İlham Əliyev və xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mərasimdə iştirak ediblər.**

AzərTac xəbər verir ki, dövlət başçısı stadionun rəmzi açılışını bildirən lenti kəsib. Gənclər və idman naziri Azad Rəhimov görülən işlərlə bağlı dövlət başçısına məlumat verib.

Qeyd edilib ki, təxminən 50 hektar ərazidə tikilən stadionun hündürlüyü 62 metrdir və 6 mərtəbədən ibarətdir. Stadionun sahəsinə 4, tribunalara isə 26 qapıdan giriş var.

68 min tamaşaçı tutumlu stadiona olimpiya normativlərinə əsasən insanların daha çox piyada və ictimai nəqliyyatla gəlməsi nəzərdə tutulub ki, bunun üçün də ərazidə 3 min 100 yerlik avtomobil parkı inşa edilib.

Sonra Prezident İlham Əliyevə və xanımına Bakı Olimpiya Stadionunun interyerində həyata keçirilən işlərlə bağlı məlumat verilib.







# Rominqdə olan abunəçilərə «Azercell»dən Novruz hədiyyəsi

**Azərbaycan rabitə bazarının lider mobil operatoru «Azercell Telekom MMC» bu dəfə Novruz bayrami ilə əlaqədar rouminqdə olan abunəçiləri üçün endirim etdi. Belə ki,18 - 31 Mart 2015 tarixlərdə rominq xidməti çərçivəsində Birləşmiş Ərəb Əmirliklərində daxil olan zənglər üçün «Azercell» abunəçilərinə xidmət haqqı tətbiq edilməyəcək. Əlavə olaraq Fakturalı xətt abunəçiləri "Etisalat" mobil operatorunun şəbəkəsində İnternet xidməti üçün endirimli tariflərdən faydalana biləcəklər. Abunəçilər 1 MB internet üçün ƏDV daxil 0,40 AZN ödəyəcəklər.**

**Məlumat üçün bildirək ki, ötən ay «Azercell» rouminqdə olan abunəçiləri üçün daha bir endirim həyata keçirib. Artıq rouminqdə olan Azercell Fakturalı və Fakturasız xətt abunəçiləri telefon mərkəzinə zəng etdikdə, zəngin ilk 5 dəqiqəsini pulsuz danışırlar. «Azercell», həmçinin fakturalı xətt abunəçiləri üçün rouminq xidmətlərinin aktiv edilməsi üçün tələb olunan depoziti ləğv etdi. Bununla da bütün «Azercell» abunəçiləri istədikləri ölkəyə səfər etməzdən əvvəl rahat şəkildə rominq xidmətlərini aktiv edə bildilər.**

**Onu da qeyd edək ki, 18 mart 2015 il tarixindən etibarən, həm də "Hədsiz" tarif paketində olan və yeni aktiv olunan müştərilərə hər faktura dövrü ərzində beynəlxalq zənglər üçün 50 (əlli) PULSUZ dəqiqə veriləcək və Rusiya, Türkiyə, Fransa, Böyük Britaniya və Almaniyada rouminq zamanı edilən zənglərə 40% qədər endirimlər tətbiq olunacaq.**

**Hər zaman müştəri məmnuniyyətinə böyük önəm verən şirkət yaz mövsümü boyunca sərfəli kampaniya və endirimləri ilə öz abunəçilərini sevindirməkdə davam edəcək.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

**«Azercell Telekom» MMC 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq, Azərbaycana «Azercell» gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən «Azercell Ekspres» ofisləri, mobil elektron xidməti "Asan İmza" və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51.3% olan «Azercell»in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2014-cü ilin sonuna «Azercell» abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə Azercell 3G, 2012-ci ildə isə 4-cü nəsil şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. «Azercell» Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır. «Azercell» dünyanın 17 ölkəsində fəaliyyət göstərən, ümumilikdə 186 milyon abunəçiyə xidmət edən və 27 min əməkdaçı olan «TeliaSonera» şirkətlər qrupunun bir hissə-**

## Başsağlığı

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı Yasamal rayon təşkilatının üzvü fəal Mehman Həsənova anası Raya xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# Bakı QHT-lərinin Resurs və Təlim Mərkəzinin açılış mərasimi keçirildi



**Martın 18-də Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə Türkiyə Respublikası Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) Bakı Proqram Koordinatorluğunun əməkdaşlığı çərçivəsində "Bakı QHT-lərinin Resurs və Təlim Mərkəzi"nin açılış mərasimi keçirilib. Qonaqlar Mərkəzin konfrans zalı və yardımçı otaqlarında QHT-lər üçün yaradılmış şəraitlə tanış olublar. Mərasimdə giriş sözü ilə çıxış edən Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni 27 iyul 2007-ci ildə QHT-lərə Dövlət Dəstəyi Konsepsiyası təsdiqləndikdən sonra ölkəmizdə ictimai sektorun inkişafı sahəsində mühüm irəliləyişlərin müşahidə olunduğunu deyib. Rauf Zeyni Bakı QHT-lərinə xidmət edəcək mərkəzin yaradılmasının Şura və TİKA-nın birgə əməkdaşlığı nəticəsində mümkün olduğunu qeyd edib və hər iki tərəfə təşəkkürünü bildirib.**

**Şura sədri, millət vəkili Azay Quliyev** mərkəzin yaradılmasının QHT-lər üçün xüsusi əhəmiyyət daşıdığını və onların resurslarının artırılmasına xidmət etdiyini bildirib. O, Şuranın yaradılmasından ötən yeddi il ərzində vətəndaş cəmiyyətinin inkişafı üçün çoxsaylı proqramlar həyata keçirdiyini deyib. Şura sədri 2000-ci ildən başlayaraq ölkənin beş bölgəsində - Şəmkir, Şirvan, Qəbələ, Quba və Mingəçevirdə Resurs və Təlim mərkəzlərinin təsis olunduğunu, ancaq Bakıda belə qurumun mövcud olmadığını qeyd edib. Şura sədri mərkəzin açılmasını cənab prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı"nın icrası istiqamətində və QHT-lərlə dövlət arasında dialoqun inkişafı sahəsində irəliyə doğru atılmış mühüm addım olduğunu vurğulayıb. Azay Quliyev Türkiyə və Azərbaycanın yalnız dost və qardaş deyil, eyni zamanda həm də ortaq maraq və problemlərə malik dövlətlər olduğunu qeyd edib.

TİKA başqan yardımçısı Mehmet Sürəyya Ər mərasimin Çanaqqala savaşının 100-cü ildönümünə təsadüf etdiyini və iki qardaş dövləti Azərbaycandan Türkiyəyə və Osmanlıdan Bakıya köməyə gələrək vuruşub şəhid olanların sarsılmaz bağlarla birləşdirdiyini söyləyib.

Professor Okan Yaşılot və TİKA-nın Azərbaycandakı koordinatoru Mustafa Haşim Polatda toplantıda çıxış edərək mərkəzə fəaliyyətində uğurlar arzulayıblar.

Mərasimdə Türkiyə və Yaponiyanın Azərbaycandakı səfirliklərinin, ATET-in Bakı ofisinin, Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin, QHT və media qurumlarının təmsilçiləri iştirak edib.



# Asim Mollazadə Braziliyada görüşlər keçirib

**Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadə Braziliyada səfərdədir. O, səfər zamanı Braziliyanın elm, yüksək texnologiyalar və innovasiyalar naziri, xarici işlər nazirinin müavini, Braziliya Senatının və Nümayəndələr Palatasının rəhbərliyi, Nümayəndələr Palatasının Xarici işlər və Müdafiə komitələrinin sədrləri ilə görüşlər keçirib.**

Görüşlərdə Azərbaycan-Braziliya əlaqələri, parlamentlərarası münasibətlər, elm, təhsil, yüksək texnologiyalar və innovasiyalar, mədəniyyət, enerji, ticarət və digər sahələrdə iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib. A.Mollazadə görüşdüyü şəxslərə ölkəmiz barədə ətraflı məlumat verib və sözügedən sahələrdə Azərbaycanın əməkdaşlıq imkanlarını diqqətə çatdırıb. DİP mətbuat xidmətinin məlumatına görə, DİP sədri daha əvvəl Latın Amerikası ölkələrindən Paraqvay, Argentina, Uruqvay və Çilidə olmuş, bu ölkələrin mühüm rəsmi şəxsləri ilə görüşlər keçirmişdi.

❑ **Vüqar MURAD**

# Pərviz Həşimli deputatlara təşəkkür edib

**Tanınmış jurnalist və hüquq müdafiəçisi Pərviz Həşimli türmədən deputatlara təşəkkür edib. Bu barədə onun vəkili Bəhruz Bayramov son görüşündən sonra məlumat verib. Vəkilin bildirdiyinə görə, 13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən jurnalist Pərviz Həşimli ilə görüşüb.**

Vəkilin sözlərinə görə, Pərvizin saxlanılma şəraiti normaldır və müəssisə rəhbərliyindən hər hansı narazılığı yoxdur, əksinə, ona normal münasibət bəslənilir. B.Bayramov həmçinin deyib ki, P.Həşimli onun azadlığa buraxılması üçün prezident İlham Əliyevə müraciət edən deputatların hər birinə ayrı-ayrılıqda təşəkkürünü çatdırmağı xahiş edib. Jurnalist deputatların müraciətindən çox məmnun qalıb və müqəddəs bayramlarımızdan olan Novruz öncəsi belə bir xoşməramlı təşəbbüsdə bulunmalarına görə millət vəkillərinə minnətdarlıq edib.

Xatırladaq ki, bugünlərdə bir neçə deputat prezident İlham Əliyevə müraciət edərək Pərviz Həşimlinin azadlığa buraxılmasını xahiş etmişdi. Lakin dünən imzalanan əfvdə onun adı olmadı.

❑ **SEVİNC**

# "Azərsun"un rəhbərliyi jurnalistlərlə görüş keçirdi

**Martın 18-də "Azərsun" şirkəti jurnalistlərlə növbəti görüşünü keçirib. Görüş Azərbaycan iqtisadiyyatındakı son durum və şirkətin fəaliyyətindəki yenilikləri ictimaiyyət çatdırmaq məqsədi ilə təşkil olunub.**





Jurnalistləri salamlayan "Azərsun Holdinq"in mətbuat xidmətinin rəhbəri Afiq Səfərov şirkətin kənd təsərrüfatı sahəsindəki fəaliyyətindəki yeniliklərlə bağlı məlumat verib. O, şirkətin prezidenti Abdulbari Gozalın son açıqlaması ilə bağlı danışıb.

"Azərsun Holdinq"in baş direktoru Savaş Uzan bildirdi ki, şirkət istehalı yerli xammaldan təmin etmək üçün yeni addımlar atır: "Digər bir məsələ odur ki, cənab prezident 2015-ci ili kənd təsərrüfatı ili elan edib. Biz də rayonlardakı fabriklərimiz vasitəsilə fəaliyyətimizi genişləndirəcəyik. 2015-ci ildə daha çox yerli məhsulun istifadə edilməsi və daha çox ixrac etmək məqsədilə həm öz sahələrimizdən, həm də fermerlərdən məhsul alıb, fabriklərdə qəbul edəcəyik. Bu məhsullar istehsal olunub, yerli və xarici bazara göndəriləcək. Bununla da idxaldan asılılığın qarşısını almağa çalışacağıq. Çalışırıq ki, yerli istehalı genişləndirək və xammalı yerli məhsuldan əldə edib, xaricə də ixrac edək".

**"Azərsun"un qiymət artırması məsələsinə də toxunan Savaş Uzan bildirdi ki, son günlər şirkətin məhsullarında qiymət artımı məsələsi çox gündəmə gəldi:** ""Azərsun Holdinq"in heç bir məhsulunda qiymət artımı olmayıb. Bu hadisədən sonra özümüz mətbuata açıqlama verdik ki, "Azərsun Holdinq"in məhsullarının qiymətlərində hələ ki artım olmayacaq. Bu günə qədər bizim məhsullarda qiymət artımı olmayıb. Səbəbini bilmirik, ancaq hər gün "Azərsun"un adı qiymət artımı ilə bağlı hallandırılır. Bizim 12 min öz işçilərimiz və fermerlərimiz var. Biz bu millətin yanındayıq. Bütün əməyimiz bu ölkə üçündür".

❑ **Nərgiz Liftiyeva,
Fotolar müəllifindir.**

# "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC yaradıldı

**Prezident İlham Əliyev "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, sərəncama əsasən, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yenidən təşkili yolu ilə Nəqliyyat Nazirliyinin tabeliyində səhmləri dövlətə məxsus və Xəzər dənizinin Bakı şəhərinə aid akvatoriyasında liman xidmətləri göstərmək hüququna malik olan "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti yaradılıb.

Cəmiyyət Bakı Beynəlxalq Dəniz Ticarət Limanının hüquqi varisidir və onun bütün hüquq və öhdəlikləri, habelə əmlakı Cəmiyyətə keçir.

Prezidentin digər sərəncamı ilə Taleh Məhəmməd oğlu Ziyadov "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru təyin edilib.

# Putin 7 ölkəni Avropadan ayırdı

**Avropa İttifaqının (Aİ) yeddi ölkəsi Rusiyaya qarşı sanksiyalardan imtina etməyə hazırdır.**

ANS PRESS-in məlumatına görə, bu barədə «Bloomberg» agentliyi material dərc edib. Bu ölkələr Kipr, İtaliya, Yunanıstan, Macarıstan, Slovakiya, Avstriya və İspaniyadır.

«Bloomberg» yazır ki, bu ölkələrin Rusiya prezidenti Vladimir Putinin "qonaq kitabı"nda adları var. Belə ki, bu il fevralın sonunda Kipr prezidenti Nikos Anastasiadis, martın əvvəlində İtalya baş naziri Matteo Rensi Moskvaya gəliblər. Bu ilin aprelində isə Yunanıstanın hökumət başçısı Aleksis Sipras Rusiya paytaxtına təşrif buyuracaq. Macarıstana, Slovakiyaya, Avstriya və İspaniyaya gəlincə, bu ölkələr daha əvvəl Ukraynada vəziyyətlə bağlı Rusiyaya qarşı sanksiyalara qarşı çıxırdılar.

London Mərkəzinin xarici siyasət üzrə direktoru İan Bond bildirib ki, bu yeddi ölkə indi sanksiyaların uzadılmasından imtina edəcəklər və məhdudiyyətlər aradan qalxmayanadək qərarlarından dönməyəcək.

Eyni zamanda Avropa İttifaqının bir sıra ölkələri, o cümlədən Polşa, Böyük Britaniya və Baltikyanı ölkələrin liderləri də Moskvaya qarşı məhdudiyyətlərin kəskinləşməsini fəal dəstəkləyirlər. Bu münasibətlə martın 19-dan 20-dək Brüsseldə Avropa İttifaqının sammiti keçiriləcək.

# Müsavatdan qalmaqallı istefalar

**Müsavat Partiyası Sabunçu rayon təşkilatının üzvləri Elməddin Qəmbər, Vidadi Həsənov, Nizami Əliyev, Ehtiram Məmmədov, Asif Yusifov, Rövşən Əliyev, Musa Əsgərov və Rövşən Həsənli partiya sıralarından istefa veriblər. Bu barədə «Report»a partiyanın üzvü, hüquq müdafiəçisi Elşən Həsənov məlumat verib. O bildirib ki, istefalara səbəb partiyanın Sabunçu təşkilatında sədrliyə keçirilən seçki ilə bağlı olub.**

YENİ MÜSAVAT
N 61 (6089) 19 mart 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Müxalifət Elman Rüstəmovun çıxışından danışdı

**Milli Məclisin martın 17-də keçirilən iclasında Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Elman Rüstəmov ilk dəfə olaraq devalvasiyanın səbəblərini açıqlayıb və bunun dünya bazarında neftin ucuzlaşması ilə əlaqədar olduğunu vurğulayıb: "Həm ekspertlərin, həm beynəlxalq investisiya banklarının proqnozuna görə, neftin ucuzlaşması hələ davam edəcək" - deyən, MB rəhbəri neftin qiymətinin uzun müddət ərzində artmayacağı barədə proqnozların verildiyini xatırladıb: "Neftin qiyməti 50 dollar olacağı təqdirdə ölkənin xarici balans profisiti 5 dəfə azalacaq, 40 dollar olacağı təqdirdə mənfi zonaya keçəcək".**

E.Rüstəmov deyib ki, ölkənin kifayət qədər valyuta ehtiyatı var, Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) gəlirləri düzgün idarə olunur: "Amma köhnə siyasəti davam etdirsəydik, həm Mərkəzi Bankın, həm də ARDNF-in ehtiyatları sıfırlaşardı. Buna görə də bu proseslərə reaksiya verməliyik".

"Yeni Müsavat" baş bankirin açıqlaması və baş nazir Artur Rasizadənin təqdim etdiyi hesabatla bağlı müxalifət liderlərinin rəyini öyrənib.

**Müsavat Partiyasının başqanı Arif Hacılı bildirdi ki, Azərbaycan hakimiyyəti düşünülmüş iqtisadi siyasət yeritmir:** "Bunun nəticəsidir ki, bütövlükdə iqtisadiyyat, o cümlədən dövlət büdcəsi neft gəlirlərindən asılıdır. Uzun illər ərzində ölkədə qeyri-neft sektorunun inkişaf edəcəyi ilə bağlı bəyanatlar verilsə də, faktiki olaraq iqtisadiyyat tamamilə enerjidaşıyıcılarından asılı vəziyyətdədir. Enerjidaşıyıcılarının dünya bazarında qiymətinin dəyişməsi Azərbaycan iqtisadiyyatına həlledici təsir edir. Dünənki çıxışlardan da aydın göründü ki, hakimiyyət dairələri artıq daxil olduğumuz və daha da dərinləşəcək iqtisadi böhrandan çıxış yolları axtarmaq əvəzinə, faktiki olaraq əhalini sakitləşdirmək, ölkədə yarana biləcək gərginliyin qarşısını almağa cəhd göstərməklə məşğuldur. Hökumətin hesabatı yalnız ümumi sözlərdən, ümumi fikirlərdən ibarət oldu və konkret olaraq ölkənin sosial-iqtisadi inkişafı, qeyri-neft sektorunun inkişafı, dövlət büdcəsinin neft gəlirlərindən asılılığını aradan qaldırmaq istiqamətində atılan addımlar barədə konkret heç nə deyilmədi. Bu hesabat tamamilə formal xarakter daşıyırdı və hazırda ölkə iqtisadiyyatında yaranmış vəziyyəti əks etdirmir".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə bildirdi ki, manatın devalvasiyasından sonra ilk dəfə idi ki, Milli Bank tam açıq və şəffaf mövqe ortaya qoydu:** "İlk dəfə hökumət açıq etiraf etdi ki, Azərbaycanın büdcəsi neftdən, o cümlədən bizim əlaqədə olduğumuz dövlətlərin pul siyasətindən asılıdır. Bildirildi ki, manatın stabil saxlanılmasında bu faktorlar ciddi rol oynayacaq. Ona görə hesab edirəm ki, həm neftin satış kursunun dəyişməsinin Azərbaycan manatına təsir edəcəyi faktor ortada olacaq. Eyni zamanda idxal və ixrac prosesi ilə əlaqədar Azərbaycanın əməkdaşlıq etdiyi ölkələrin valyuta siyasətindən asılılıq olacaq. Bu baxımdan düşünürəm ki, Mərkəzi Bank, eləcə də hökumət ilk dəfə olaraq açıq münasibət bildirdi".



**Arif Hacılı:**
"Hökumət etiraf etdi ki, enerjidaşıyıcılarının qiymətinin dəyişməsi Azərbaycan iqtisadiyyatına həlledici təsir edir"



**İqbal Ağazadə:**
"İlk dəfə hökumət açıq etiraf etdi ki, Azərbaycanın büdcəsi neftdən nə dərəcədə asılıdır"



**Sərdar Cəlaloğlu:**
"Manatın məzənnəsi - bir dollar iki-üç manat həcminə qədər düşəcək"

Baş nazirin hesabatına gəlincə, İqbal Ağazadə hesabatın əleyhinə səs verdiyini bildirdi.

**Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu da qeyd etdi ki, manatın saxlanması əvvəlcədən yanlış addım idi və siyasi motiv daşıyırdı:** "Çünki manatın kursu sabit qaldıqca, hökumət hadisələrə bir o qədər təsir edə bilirdi. Uzun illər Azərbaycandakı sabitlik manatın saxlanması ilə əlaqədar idi, çünki bu yolla gəlirlərə nəzarət etmək mümkün idi. Bu, bazar iqtisadiyyatına ziddir. Dünyada elə bir ölkə yoxdur ki, onun valyutası gün ərzində dəyişməsin. Azərbaycanda hökumət süni yolla manatı sabit saxlayırdı. İndi isə neft gəlirlərinin azalması səbəbindən hökumət bunu davam etdirə bilmədi. Manatın devalvasiyası hələ normal həddə deyil. Manatın məzənnəsi - bir dollar iki-üç manat həcminə qədər düşəcək. Hökumətin qiymətlərə nəzarət etməsi də yanlışdır. Bu, ölkəyə idxalın azalmasında və qıtlığa səbəb ola bilər. Çünki sahibkar baha aldığı malı ucuz satmağa məcbur edilə bilməz. Hökumət qiymətləri sabit buraxmalı, əvəzində insanların minimum əməkhaqqını artırmalıdır ki, sosial böhran yaranmasın".

**Hökumətin hesabatı ilə bağlı münasibət bildirən partiya sədri bunun formal xarakter daşıdığını qeyd etdi:** "Azərbaycanda prezidentli respublika olduğu üçün baş nazir postu formal xarakter daşıyır və Artur Rasizadə də baş nazir kimi heç bir səlahiyyətə malik deyil. Çünki bizdə ali icra hakimiyyəti başçısı prezidentdir. Bu baxımdan bu anlaşılmazlıq da tezliklə aradan qaldırılmalıdır. Baş nazirin heç bir səlahiyyəti olmadığına görə onun Milli Məclisdə hər hansı hesabat verməsinin heç bir mənası yoxdur. Hökumətin fəaliyyəti ilə bağlı hesabata gəlincə, bu o zaman hesabat sayıla bilər ki, Milli Məclis ona qiymət versin, Nazirlər Kabinetinin fəaliyyətinə təsir gücü olsun. Bu, formal bir hesabatdır, Milli Məclisin rəyi ümumiyyətlə nəzərə alınmır".

❑ Nərgiz LİFTİYEVA

# Fərəc Kərimliyə qarşı ittiham aktı elan olundu

## Başqan müavini ittihamlar üzrə özünü təqsirli bilmədi; məhkəmədə gərgin anlar yaşandı

**Martın 18-də Bakı Ağır Cinayətlər Məhkəməsində Müsavat başqanının həbsdəki müavini Fərəc Kərimlinin məhkəmə istintaqı başladı. Prosesdə MSDM-in sədri İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı, partiya rəhbərliyi və fəalları iştirak edirdilər.**



Fərəc Kərimli

Məhkəmə 11:00-da başladı. Hakim Şəkər Məmmədova məhkəmə heyəti və ittiham aktı barədə proses iştirakçılarına məlumat verdi. Təqsirləndirilən şəxs özü barədə danışdı.

Daha sonra müdafiə tərəfinin vəkili Nemət Kərimli bir sıra vəsatətlərlə çıxış etdi. Vəkil ilk olaraq, məhkəmə prosesinin audo-video şəklində aparılması barədə vəsatət verdi. Dövlət ittihamçısı Anar Tanrıverdiyev vəsatətin əleyhinə çıxış etdi. Hakimlərin yerində təyin etdikləri qısa müşavirədən sonra vəsatət təmin olunmadı.

**Ardınca Nemət Kərimli təqsirləndirilən şəxsin dəmir barmaqlıqlar arasından çıxarılıb vəkilinin yanında əyləşdirilməsi ilə bağlı vəsatətini məhkəməyə təqdim etdi:** "Təqsirləndirilən şəxsin dəmir barmaqlıqlar arxasında mühakimə olunması qanunlara ziddir. İnsan şəxsiyyətinin alçaldılması deməkdir. Onun barəsində hazırda hökm yoxdur. Məhbusa insan kimi hörmət qoyulmalıdır. Azərbaycanın qoşulduğu Avropa Şurasının Konvensiyasında da bunlar qanun pozuntusu kimi qəbul edilir. Götürdüyümüz öhdəliklərə əməl olunmalıdır. Vəkil olaraq, hüquqlarını müdafiə etdiyim şəxslə tez-tez məsləhətləşməliyəm. Məhkəmə heyətindən vəsatətin təmin edilməsini xahiş edirəm".

Dövlət ittihamçısı yenə də vəsatətin əleyhinə çıxış edərək, təmin edilməsində heç bir əsasın olmadığını bildirdi. Müşavirənin ardından vəsatət təmin olunmadı.

Prokuror Fərəc Kərimliyə qarşı ittiham aktını elan etdi. Bu zaman zalda etiraz başladı. Proses iştirakçıları dövlət ittihamçısına təpki göstərdilər. Hakim müdaxilə etməli oldu.

**F.Kərimli ona qarşı irəli sürülən ittihamlar üzrə özünü təqsirli bilmədi:** "İttihamlar mənə aydın deyil. Heç birini qəbul etmirəm. Təbii ki, məzmunundan xəbərim var. Sırf siyasi fəaliyyətimlə bağlıdır".

Təqsirləndirilən şəxsin çıxışının bu yerində hakim müdaxilə edərək, ifadə verdiyi zaman bu cür sözləri işlətməməyi tələb etdi. Bu hərəkət zaldakıların etirazına səbəb oldu.

Şəkər Məmmədova şahid qismində ifadə verəcək şəxslərin heç birinin məlumat verilməsinə baxmayaraq, prosesə gəlmədiyini elan etdi. Hakim məhkəmənin təqsirləndirilən şəxsin ifadəsi ilə davam etməyini istədi. Lakin müdafiə tərəfi buna öz etirazını bildirdi.

**Fərəc Kərimli şahidlərin ifadəsindən sonra yazılı şəkildə ifadəsini məhkəməyə təqdim edəcəyini söylədi:** "Bu yerdə ifadə verməkdən imtina edirəm. Münasib bilmirəm. Əvvəlcə şahidlər ifadələrini versinlər. Ondan sonra ifadəmi yazılı şəkildə məhkəməyə təqdim edəcəm".

Hakimin təqsirləndirilən şəxsin ifadə verməsinə israr etməsi prosesdə iştirak edən Müsavat başqanı Arif Hacılının narazılığına səbəb oldu. Müsavat başqanı ifadə verməməyin təqsirləndirilən şəxsin hüququ olduğunu və hazırda buna hazır olmadığını bildirdi. Hakim yerindən müdaxilə etməməyi tələb etdi.

**Hakimin Fərəc Kərimliyə tez-tez "sən" müraciətini etməsi MSDM-in rəhbəri İsa Qəmbər tərəfindən etirazla qarşılandı. Onun iradına Şəkər Məmmədova gülməli cavab verdi:** "Burada iki və daha çox təqsirləndirilən şəxs yoxdur. Biz bir nəfəri mühakimə edirik".

Ş.Məmmədova şahidlər məhkəməyə gəlmədiyinə və təqsirləndirilən şəxs ifadə vermədiyinə görə prosesin 1 aprel saat 14:00-a qədər təxirə salındığını elan etdi.

**Məhkəmədən sonra vəkil Nemət Kərimli musavat.com-a açıqlama verdi:** "İlk məhkəmə iclasında qanunvericilik pozuldu. Təqsirləndirilən şəxs təqsirsizlik prezumpsiyası altında olduğu halda onun dəmir barmaqlıqlar arxasından çıxarılıb vəkilinin yanında əyləşdirilməsi vəsatəti təmin olunmadı. Vəkil istədiyi vaxt onunla məsləhətləşə bilər. Digər tərəfdən, barəsində hökm olmadan şəxsin "dəmir qəfəs"də saxlanılması insan ləyaqətinin alçaldılması deməkdir. Bundan əlavə, 13 fevral 2013-cü ildə "Elektron məhkəmə informasiya sisteminin yaradılması" barədə prezident sərəncamı var. Belə sərəncam olduğu halda məhkəmə audioyazıya icazə vermədi. Xüsusi əhəmiyyət kəsb edən vəsatətlərimiz təmin olunmadı. Bütün bunlardan sonra ədalətli qərar gözləmək absurd olar. Növbəti proses şahidlərin və təqsirləndirilən şəxsin ifadələri ilə davam edəcək".





Qeyd edək ki, Fərəc Kərimli ötən il iyulun 23-də həbs edilib. Həbsindən bir həftə öncə qardaşı Sirac Kərimli həbs edilib. Hər iki qardaşa qarşı Cinayət Məcəlləsinin 234.4.3 maddələri ilə (kütləvi narkotik maddələri əldə etmə, saxlama və satma) ittiham irəli sürülüb. Martın 16-da Sirac Kərimli 6 il müddətinə azadlıqdan məhrum edilib.

❑ Cavanşir ABBASLI
Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 61 (6089) 19 mart 2015

# Rektorun döyülən qızını həbs edə bilərlər - səbəb atası

## Zorba qardaşlardan biri həbs olundu; müdhiş olayda yeni ad ortaya çıxdı - Katya; hüquqşünas Ülkər İsayevanın əməlinə qiymət verdi: "Hamlet İsaxanlı son açıqlamaları ilə qızının zərərçəkən kürsüsündən, cinayətkar kürsüsünə transferinə səbəbiyyət verir"

**Bakı Apelyasiya Məhkəməsində Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlının qızı Ülkər İsayevanın döyülməsində təqsirləndirilən şəxslərlə bağlı prokurorluğun verdiyi apelyasiya protestinə baxılıb. Hakim Sahibxan Mirzəyevin sədrlik etdiyi iclasda təqsirləndirilən Zaur Məmmədov barəsində həbs-qətimkan tədbiri seçilib. Onun qardaşı Elin Məmmədovla bağlı isə birinci instansiya məhkəməsinin qərarı qüvvədə qalıb. Yada salaq ki, martın 16-da xalqxeber.tv-də bir qadının döyülməsi əks olunan video yayılıb. Həmin videoda döyülən xanımın Ülkər İsayeva, onu döyən iki şəxsin isə Zaur və Elin Məmmədov qardaşları olduğu iddia olunurdu.**

Sonradan yarımrəsmi məlumatda isə Ü.İsayevanın 9 mart 2015-ci ildə Bakı şəhərində, Azadlıq prospekti ilə Üzeyir Hacıbəyli küçəsinin kəsişməsində adları yuxarıda çəkilən iki qardaş tərəfindən fiziki zorakılığa məruz qaldığı bildirilirdi. Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq və təhqiqat idarəsinin ağır cinayətlərin istintaqı şöbəsinin xüsusilə mühüm işlər üzrə baş müstəntiqi, polis polkovnik-leytenantı Yasin Mikayıllının 14 mart 2015-ci il tarixli vəsatəti əsasında, ibtidai araşdırmaya prosessual rəhbərlik həyata keçirən Bakı şəhər prokurorunun müavini, baş ədliyyə müşaviri Azər Əsgərov eyni tarixli təqdimatla məhkəməyə müraciət edərək, Cinayət Məcəlləsinin 222.2.1-ci maddəsi ilə təqsirləndirən şəxs qismində cəlb edilmiş Zaur Məmmədov barəsində həbs-qətimkan tədbirinin seçilməsi barədə qərar qəbul edilməsini məhkəmədən xahiş edib. Ancaq Xətai Rayon Məhkəməsinin hakimi Raziyə Ataşova Prokurorluğun həmin vəsatətini təmin etməmiş, Zaur və Elin Məmmədov qardaşlarını məhkəmə zalından sərbəst buraxmışdı. Hakim qərarını işdə adı zərərçəkən kimi keçən Ü.İsayevanın şikayətçi olması ilə əsaslandırmışdı. Bunun qarşılığında isə prokurorluq rəsmisi bildirmişdi ki, Xətai Rayon Məhkəməsinin həmin qərarından Bakı Şəhər Prokurorluğu apelyasiya protesti verib və protest təmin olunub.

### "Bütün bunları şəxsi həyata müdaxilə kimi qəbul edirəm"

**Qardaşların anası Gülnarə Məmmədova məhkəmədən sonra jurnalistlərin suallarını cavablandırıb. G.Məmmədova məhkəmənin onun oğlu Zaurla bağlı çıxardığı iki aylıq həbs-qətimkan tədbirini ağır cəza hesab edib:** "Zərərçəkən olmadığı halda, belə bir qərar mənə çox ciddi gəldi. Məhkəmənin ədalətinə ümid edirəm. Prosesdə şəxsən iştirak etməmişəm. Məhkəmə bağlı qapılar arxasında keçirilib".

**Jurnalistlər G.Məmmədovadan Hamlet İsaxanlının "Döyülən mənim qızım deyil, Katyadır" açıqlamasına münasibətini soruşublar. Onun cavabı isə belə olub:** "Ümumiyyətlə, heç kəsi, heç bir qızı döyməyiblər. Siz həmin qanunsuz, necə ortaya çıxdığı məlum olmayan videoya baxmısınızsa, görməli idiniz. Orada heç kimi döymürlər. Sadəcə, qızı maşından düşürməyə çalışırlar. Oğlanların və qızın kimliyini mən bilmirəm. Və ümumiyyətlə, mən bütün bunları şəxsi həyata müdaxilə kimi qəbul edirəm".

**G.Məmmədova övladlarından hadisə barədə soruşub-soruşmaması haqda suala belə cavab verib:** "Mənim oğlanlarım yetkin insanlardır. Onların 30 yaşları var. Mən onlardan heç vaxt, heç nə soruşmuram. Əgər özləri danışmaq istəsələr, dinləyirəm. Mənim məhkəmə proseslərindən anlayışım azdır. Amma hakimin qərarı çox sərt oldu. Sanki mənim oğlum qatı cinayətkardır və ölkədən qaça bilərmiş kimi ona həbs-qətimkan tədbiri seçdi".



**Həyat yoldaşının 13 il həbsdə olması haqda suala isə G.Məmmədovanın cavabı belə olub:** "Bunlar hamısı çox gülməli xəbərlərdir. Bunun məsələyə heç bir aidiyyəti yoxdur. Qanunda da deyildiyi kimi, bir insanın həbsdən azad olmasının üzərindən 7 il keçibsə, o, artıq "həbsdə olmamışam" deyə bilər. Biz dünən yoldaşımla bu xəbərləri oxuyurduq. O, bu yazılara hətta gülümsəyərək, reaksiya verdi".

**G.Məmmədova həyat yoldaşının övladlarının həbsinə reaksiyasından da danışıb:** "Təbii ki, çox pis oldu. Yoldaşımın az qala 70 yaşı olacaq. Təqaüdçüdür. Belə bir xəbər ona çox pis təsir etdi".

Qeyd edək ki, Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlı qızının adı hallanan olayla bağlı müxbirimizin suallarını cavablandırıb. Deyib ki, qızı olmayan bir məsələni öz üzərinə götürüb.

### Hüquqşünas deyir ki...

**Hüquqşünas Ələsgər Məmmədli (Əhmədoğlu) özünün facebook profilində H.İsaxanlının müsahibəsinə münasibətini açıqlayıb. Hüquqşünas yazıb:** "Son günlər bütün sosial şəbəkəni məşğul edən məlum hadisəyə müxtəlif yanaşmalar var. Mən bu tip məsələlərə ictimai əhəmiyyət kəsb etmədiyi müddətcə münasibət bildirməyi prinsip olaraq qəbul etmirəm. Lakin bu gün diqqətimi çəkən şəxsiyyətinə çox hörmət bəslədiyim Hamlet İsaxanlının "Yeni Musavat" qəzetində yayılan müsahibəsi oldu. Müsahibənin nə qədər obyektiv bizə çatdırıldığını bilmirəm. Lakin yayılan halı ilə Hamlet müəllimin yanaşması məni çox təəccübləndirdi. Birincisi, o, hadisə qurbanı olan qadının onun qızı olmadığını sadəcə qızının "qadın döyən dostlarını" qoruma məqsədi ilə həmin şəxsin məhkəmə ifadəsində bəyan etdiyini bildirir. Bununla da iki ciddi hüquq pozuntusunu əslində ihbar edir:

1. Qızı Ülkərin əsil zərərçəkənin (əgər doğru isə Katyanın) əvəzindən özünü zərərçəkmiş şəxs kimi təqdim edərək, zərərçəkənin hüquqlarını mənimsəyir.

2. Cinayət Məcəlləsinin 297-ci maddəsində Ülkərin hərəkətinin "Məhkəmədə və ya ibtidai istintaqda şahid, zərərçəkmiş şəxs tərəfindən yalan ifadə vermə" maddəsi ilə cinayət əməli kimi tövsif edildiyini bilmədən, qızının zərərçəkən kürsüsündən, cinayətkar kürsüsünə transferinə səbəbiyyət verir. Diqqətimi çəkən bir məqam da videonun yayılmasının guya hüquq pozuntusu imiş kimi təqdim edilməsidir. Halbuki hüquq pozuntusunun yayılması heç bir halda özəl həyata müdaxilə kimi təqdim edilə bilməz. Bunu çəkənin və ya yayanın kimliyindən asılı olmayaraq. Üstəlik, videonun küçələrə nəzarət edən ictimai asayişi gözətləyən kameralardan birinə aid olduğu çox aydın görünür. Və nəhayət, Hamlet müəllimin müsahibəsində gecənin yarısında şəhər eşkiyaları tərəfindən qadın döyülməsini qınayan bir yanaşmanın yoxluğudur. Ən dəhşətlisi də, məncə, budur!!!"

Sonda bildirək ki, bu hadisədə iştirak etmiş şəxsin barəsində məhkəmə həbs-qətimkan tədbirinin seçilməsi H.İsaxanlının "orda döyülən qızım yox, Katya adlı başqa qadındır" iddiasını tam sıradan çıxarmış oldu.

**Mövzunu davam etdirəcəyik.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# "Bu planı quranlar artıq istəklərinə nail olublar"

## Tanınmış politoloqdan Hamlet İsaxanlının qızı ilə bağlı maraqlı açıqlama; "Bahalaşma məsələsinin bir nömrəli ictimai müzakirə mövzusu olduğu bir zamanda bu videonun yayılması təsadüfi deyil"

**Xəzər Universitetinin rektoru Hamlet İsaxanlının qızının küçədə döyülməsini əks etdirən video sosial şəbəkədə və mediada yayıldığı gündən bəri ictimai rəy bu hadisəyə yönəlib. Məişət xarakterli bir hadisə ətrafında elə böyük ajiotaj qurulub ki, sanki bu ölkənin və xalqın bir nömrəli problemi budur. Faktiki olaraq üç gündür sözügedən hadisə manatın ucuzlaşması, ölkədə bayram öncəsi sürətli bahalaşma, buna qarşı etiraz aksiyasının keçirilməsi, hətta TANAP layihəsi kimi nəhəng bir projenin özülünün qoyulması kimi mühüm proseslər ictimai müzakirələr baxımından rektorun qızının döyülməsi hadisəsinin kölgəsində qalıb. Bütün media, sosial şəbəkələri bu hadisə işğal edib.**

**Milli Strateji Təhqiqatlar Mərkəzinin rəhbəri Natiq Miri** hesab edir ki, məişət zəminində olan bir hadisənin bir müddət keçdikdən sonra məhz indi gündəmə gətirilməsi, videonun yayılıb onun ətrafında böyük ajiotaj yaradılması təsadüfi deyil: "Əslində bu baş verənlər bütün zamanlarda istifadə olunmuş keçmiş "KQB" üsuludur. Adətən ölkə üçün həssas bir məqamda bu cür mövzular hazırlanır və ictimai rəyi başqa istiqamətə yönəltmək, məşğul etmək üçün dövriyyəyə buraxılır. Cəmiyyət də bu cür "narkotik saqqızları" çeynəməklə məşğul olur və ölkədəki əsas problemlər bir müddət ictimai diqqətdən kənarda qalır. Belə taktikadan təkcə Azərbaycanda yox, digər ölkələrdə, o cümlədən Rusiyada da istifadə edilir. Bu gün Rusiyada iqtisadi durum çox ağırdır, üstəlik də Boris Nemtsov kimi müxalifət liderinin qətlə yetirilməsi Rusiya ictimai rəyində bir nömrəli məsələyə çevrilmişdi. Cəmiyyət tərəfindən istintaqın təcili başa çatdırılması və cinayətkarların hamısının ortaya



Natiq Miri

çıxarılıb cəzalandırılması tələb olunurdu. Belə bir zamanda Rusiya prezidenti "yoxa çıxdı" və ictimai rəyə yeni mövzu atıldı. Bütün ictimai diqqət ağır iqtisadi vəziyyətdən və Nemtsovun qətli məsələsindən kənarlaşdırıldı.

Azərbaycanda da ictimai rəydə hakimiyyəti narahat edən fikir formalaşdıran hadisələrin getdiyi zamanlarda dövriyyəyə tamamilə başqa mövzular, əsasən də məişət xarakterli mövzular buraxılır. Məqsədli şəkildə bu mövzular ətrafında sosial şəbəkədə, mediada böyük müzakirələr açılır, mənasız ajiotaj yaradılır. Beləliklə, faktiki olaraq ölkə üçün, xalq üçün daha mühüm proseslər arxa plana keçir, ictimai rəy bir müddət süni şəkildə ortaya atılmış mövzu ilə məşğul olur. Azərbaycanda bahalaşma məsələsinin bir nömrəli ictimai müzakirə mövzusu olduğu bir zamanda rektorun qızının döyülməsi ilə bağlı videonun yayılması və bunun ətrafında ajiotajın yaradılması ictimai diqqətin məişət zəminində olan bu az əhəmiyyətli hadisəyə yönəldilməsidir".

**Ekspert xatırladtı ki, bu gün Azərbaycanda manatın ucuzlaşmasından sonra çox ciddi qiymət artımı baş verir. Bunun nəticəsində insanlar bayram ərəfəsində evinə istədiyi səviyyədə bazarlıq edə bilmirlər. İnsanlar bu bayramı ürəyi açıq keçirə bilmir. Belə bir vəziyyət isə ictimai rəydə hökumətə narazılıq yaradır. Rektorun qızının döyülməsi hadisəsinin ortalığa atılıb bu qədər şişirdilməsi bayram ərəfəsi cəmiyyətin diqqətini, bahalaşma müzakirələrini başqa mövzuya yönəltmək üçündür:** "Diqqət edirsinizsə, bu planı quranlar artıq bir neçə gündür ki, istəklərinə nail olublar, döyülmə olayı bir nömrəli ictimai müzakirə mövzusuna çevrilib, ölkədə bahalaşmanın tüğyan etməsi, buna qarşı mitinq keçirilməsi, yeni mitinqlərə hazırlıq kimi məsələlər süni şəkildə ortaya atılan döyülmə olayının kölgəsində qalıb. Rektorun qızının döyülməsi mövzusu ictimai rəydə öləziyən kimi növbəti hansısa süni mövzu gündəmə atılacaq və bir həftə də cəmiyyəti bununla məşğul edəcəklər. Məqsəd diqqəti əsas problemlərdən yayındırmaq, həmin problemlərlə bağlı ictimai müzakirələrin olmasının qarşısını almaqdır. Təəssüf ki, cəmiyyət də asanlıqla bu tələyə düşür. İnsanlar məişət məzmunlu, şou xarakterli hadisələrə kütləvi diqqət yetirir".

❑ **E.SEYİDAĞA**

# 101 nəfər cəzadan azad edildi

**Azərbaycan prezidenti İlham Əliyev martın 18-də növbəti əfv sərəncamı imzalayıb. Sərəncamla 101 nəfər cəzadan azad edilib; bunlardan 90 nəfəri həbsdən buraxılıb, 7 nəfərin cəriməsi bağışlanıb, 4 nəfər isə islah işlərindən azad olunub.**



# Prezident kimləri əfv etdi, kimlər qaldı - tam siyahı

## Azadlığa buraxılanlar sırasında 4 vicdan məhbusu da var; Əfv Komissiyasının üzvü və hüquq müdafiəçiləri sərəncamı dəyərləndirdilər; müxalifətdən isə tənqid gəldi

**Prezidentin sərəncamı ilə aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad ediliblər:**

1. Abasova İradə Məhəmməd qızı
2. Abdullayev Elçin Eldar oğlu
3. Abdurəhmanova Şahnaz Kamal qızı
4. Ağayev Pərviz Zabit oğlu
5. Babayev Anar Ağagül oğlu
6. Babayev İlqar Qurban oğlu
7. Babayev Mehti Mir Ağa oğlu
8. Babayev Vüsal Bəxtiyar oğlu
9. Bayramov Fərrux Tahir oğlu
10. Bayramov Turxan Şamil oğlu
11. Bayramova Solmaz Bayram qızı
12. Bəkərov Cavanşir Alik oğlu
13. Bənibəşarəti Səbuhi Qulam oğlu
14. Cəfərov Vurğun Mahmud oğlu
15. Cəfərov Zaur Tahir oğlu
16. Dadaşov Azər Əhməd oğlu
17. Dursunov İqbal Məsən oğlu
18. Eldarov Elşən Şövkətoviç
19. Əhədzadə Ceyhun Məzahir oğlu
20. Əhmədov Bayram Vəli oğlu
21. Ələkbərov Mahir Tarix oğlu
22. Əlisoltanov Mahir Soltanməcid oğlu
23. Əlişli Rauf Əliş oğlu
24. Əliyev Elçin Qurban oğlu
25. Əliyev Əziz Məmməd oğlu
26. Əliyev Xəqani Nəriman oğlu
27. Əmrayev Xudaverdi Balağa oğlu
28. Ərəbxanov Ramiz Mehman oğlu
29. Əyyubzadə Orxan İbrahiməjdər oğlu
30. Əzizov Anar Oktay oğlu
31. Əzizov Nahid Mahir oğlu
32. Fərəcli Rauf Mircahangir oğlu
33. Fərzəliyev Hidayət Tahir oğlu
34. Hacıyev Pərviz Vaqif oğlu
35. Həsənov Etibar İsaq oğlu
36. Həsənov Fərahim Əlverdi oğlu
37. Həsənov Fikrət Hikmət oğlu
38. Həsənov Rövşən İlqar oğlu
39. Həsənov Səbuhi Nazim oğlu
40. Hüseynov Kamal Gülağa oğlu
41. Hüseynov Zamiq Elman oğlu
42. Hüseynzadə Aydın Adil oğlu
43. Xəlilov Eşqin Camal oğlu
44. Xəlilov Rza Rəşid oğlu
45. Xudaverdiyev Hüseyn Arzu oğlu
46. İbrahimov Mirağa Bahəddin oğlu
47. İdrisov İdris Nəcməddinoviç
48. İmanova Seranə Seydəmir qızı
49. İsayev Rizvan Məhəmməd oğlu
50. İsxanov Eyvaz Həmid oğlu
51. İslamzadə Elgün Qalib oğlu
52. Kərimov Bəhruz Ələddin oğlu
53. Kuzəhmədov Fuad Nərimanoviç
54. Qafarlı Əlizadə Rövşən oğlu
55. Qasımlı Anar Əsgər oğlu
56. Qazıxanov Şaiq Zəkrulla oğlu
57. Qəhrəmanov Azad Əvəz oğlu
58. Quliyev Emil Mehrəməli oğlu
59. Quliyev Mahir Elman oğlu
60. Quliyev Seymur Aloksat oğlu
61. Quliyev Şahin Böyükağa oğlu
62. Mamedov Zamin Qafar oğlu
63. Məcnuni Rəhimağa Həsən oğlu
64. Məhərrəmov Aqil Rais oğlu
65. Məhyəddinov Valeh Xasməmməd oğlu
66. Məmmədov İbrahim Mirzə oğlu
67. Məmmədov Ramil Qabil oğlu
68. Məmmədov Ruslan İlyas oğlu
69. Məmmədrzayev Elşad Şahin oğlu
70. Mənafov Anar Yusif oğlu
71. Muxtarova Şəhla Qabil qızı
72. Musayev Emin Əkbər oğlu
73. Mustafayev Kamran Əziz oğlu
74. Mutuxov Rəcəb Nurmahama oğlu
75. Orucov Fərhad Əhliman oğlu
76. Panaliyev Emin Bahadır oğlu
77. Paşutkin Yuriy Serqeyeviç
78. Rəhimov İlqar Bəxtiyar oğlu
79. Rzayev Hakim Ramiz oğlu
80. Sadıqlı Xasaybəy Elbaris oğlu
81. Sadıqov Mahal Bəhlul oğlu
82. Sadıqov Rac Vidadi oğlu
83. Sadıqova Almaz Aydın qızı
84. Səfərov Elşən Rafiq oğlu
85. Süleymanlı Bəşir Süleyman oğlu
86. Troşenkov Rövşən Viktor oğlu
87. Tumarov Kamran Kamal oğlu
88. Vəliyev Ramil Rəhim oğlu
89. Yaqub Dursun oğlu (Gürcüstan vətəndaşı)
90. Yusifov Şahlar Hidayət oğlu

**İslah işləri cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilib:**

1. Hüseynov Bahadur İldırım oğlu
2. Məmmədov Tural Mönsüm oğlu
3. Musayev Bəxtiyar Paşa oğlu
4. Şərifov Ramin Məmməd oğlu

**Cərimə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzadan azad ediliblər:**

1. Həmidov Elnur Rasim oğlu
2. Hüseynov Elgün Raqub oğlu
3. İsgəndərov Elnur Oqtay oğlu
4. Quliyev Allahverdi Nazim oğlu
5. Məmmədov Rusif Yusif oğlu
6. Nağdaliyeva Asiya Qafar qızı
7. Şükürov Maxsud Dilsuz oğlu

Əfv sərəncamı azad edilən Bəşir Süleymanlı (Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) icraçı direktoru), ilahiyyatçı Anar Qasımlı, 2012-ci ildə Təhsil Nazirliyinin qarşısında "Hicaba azadlıq" adı ilə keçirilən aksiyada tutulan Ramil Vəliyev və "NİDA" Vətəndaş Hərəkatının üzvü Orxan Eyyubzadə vicdan məhbusu elan edilmişdilər.

Son günlər əfvlə bağlı gedən müzakirələrdə Novruz bayramında daha çox vicdan məhbusunun azadlığa buraxılacağına dair rəylər vardı. Həmçinin İsmayıllı işinə görə həbs olunan Müsavat Partiyası başqanının müavini, "Yeni Müsavat"ın köşə yazarı Tofiq Yaqublunun, REAL həmsədri İlqar Məmmədovun, jurnalist Pərviz Həşimlinin və digərlərinin də əfvə düşəcəyinə ümid edilirdi. Ancaq onlar əfvə düşmədilər...

**Əfv Komissiyasının üzvü, millət vəkili Azay Quliyev qeyd etdi ki, əfv sərəncamı istənilən halda müsbət qiymətləndirilməlidir:** "Çünki əfv sərəncamının imzalanması xeyli sayda Azərbaycan ailəsinə sevinc, xoşbəxtlik bəxş edir. Cənab prezidentin əfv sərəncamı yüksək səviyyədə qiymətləndirilir, bu onun tərəfindən atılmış növbəti humanist addımdır. Bayram ərəfəsində əfv sərəncamlarının imzalanması ailələrə ikiqat sevinc bəxş edir. Mən cənab prezidentimizə təşəkkür edirəm ki, ayrı-ayrı ictimai təşkilatların, şəxslərin, QHT-lərin, İnsan haqları üzrə Birgə İşçi Qrupunun da rəyini, təkliflərini nəzərə alaraq növbəti əfv sərəncamı imzaladı. Məsələnin siyasi tərəflərinə gəldikdə, burada da çox müsbət məqamlar var; hər bir əfv sərəncamı cəmiyyətdə barış əhval-ruhiyyəsinin möhkəmləndirilməsi, etimad mühitinin güclənməsinə xidmət edir, vətəndaşların dövlətə inamını gücləndirir, onların hüquqlarının dövlət tərəfindən daim müdafiə edilməsinə əminlik yaradır. Həmçinin müxtəlif cinayətlər törətmiş şəxslərin cəzalarının müəyyən hissəsini çəkdikdən sonra cəmiyyətə inteqrasiyası, bir daha belə səhvlərə yol verməmələri üçün şans yaradır. Bu baxımdan da fərmanın əhəmiyyəti çox böyükdür".

**A.Quliyev bildirdi ki, əfv sərəncamı verilərkən bir sıra vətəndaş cəmiyyəti institutlarının, o cümlədən İşçi Qrupunun da təklifləri nəzərə alınıb:** "Sərəncamla İşçi Qrupunun təqdim etdiyi siyahıda adları olan bir neçə də azadlığa buraxılıb, qurumun müraciətinə adekvat redaksiya verilib. Bu baxımdan da fərman çox əhəmiyyətlidir ki, dövlət-QHT münasibətləri daha da yaxınlaşır. Bu, həm də bir mesajdır ki, bu kimi problem kimi təqdim edilən məsələlər Azərbaycanın daxilində həll edilə bilər. Bu, həmçinin digərlərinə də bir mesajdır ki, dəstəyi hansısa xarici qurumlardan deyil, dövlətdən, cənab prezidentdən gözləməlidirlər. Bütün bunları nəzərə alaraq bir daha qeyd edirəm ki, əfv sərəncamı ancaq pozitiv qiymətləndirilə bilər və qiymətləndirilməlidir".

**Hüquq müdafiəçisi, İşçi Qrupun üzvü Novella Cəfəroğlu dedi ki, ümumilikdə 101 nəfərin əfv olunmasına çox sevinir:** "Hər bir halda 101 nəfər əfv olunub, cəzadan azad edilib. Həmçinin bizim daim diqqətimizdə olan bir məhkum xanım - ədalətli mühakimə olunmadan həbs edilmiş, 4 uşaq anası Şəhla Muxtarovanın, ilahiyyətçilərin, Bəşir Süleymanlının, Orxanın azad edilməsi də bizi sevindirir. Ancaq çox istərdik ki, cənab prezident bizim təqdim etdiyimiz siyahıda adları olan siyasi və vicdan məhbuslarının hamısı azad etsin. Biz xahiş etmişik ki, Tofiq Yaqublu, İlqar Məmmədov, Yadigar Sadıqov, Pərviz Həşimli, Əli İnsanov, Akif Muradverdiyev, Hilal Məmmədov və digərləri də azad edilsinlər. Bütün bu şəxslərin də tezliklə azadlığa buraxılması lazımdır. Bunun üçün ya amnistiya verilməlidir, ya da yaxın vaxtlarda növbəti əfv fərmanı imzalanmalıdır. Bu məsələ mütləq həllini tapmalıdır".

**AXP sədri Pənah Hüseyn isə bildirdi ki, bu, hüquq müdafiə təşkilatlarının, o cümlədən beynəlxalq qurumların, cəmiyyətin gözlədiyi əfv fərmanı deyil:** "Biz təbii ki, əfv sərəncamında adları olanların heç birinin əleyhinə deyilik. Amma vətəndaş cəmiyyəti institutları, o cümlədən də mən gözləyirdim ki, növbəti əfv fərmanı sözün əsl mənasında bir hadisə olacaq. Təəssüf ki, bu baş vermədi. Hesab edirəm ki, siyasi məhbus kimi tanınan şəxslərin əfv olunmamasının Azərbaycana heç bir faydası yoxdur, əksinə, bunun ziyanları ola bilər".

❑ **Maqsud MAHRIZLI**

# Qarabağ münaqişəsinin həllinə dair referendum təklifi

## Prezidentə müraciət imzalandı, iflasa uğramış Minsk Qrupunun buraxılması tələb edildi

**Martın 18-də Qarabağ Azadlıq Təşkilatının (QAT) təşəbbüsü ilə "ATƏT-in Minsk Qrupu: iflasa uğramış vasitəçilik missiyası" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masada QAT sədri Akif Nağı, millət vəkili Fazil Mustafa, politoloqlar Mübariz Əhmədoğlu, Elman Nəsirov, QHT rəhbərləri Faiq İsmayılov, Kamil Şirinov, Radə Abbas, Əlisəfa Mehdi, Mehriban Abdullayeva, Mətanət Əsgərqızı, Habil Şirinov, Mahirə Əmirhüseynova, Şərqiyyə Dadaşova, Fəridə Əsgərova, Yusif Səmədov və digərləri çıxış edib.**

Çıxış edənlər Minsk Qrupunun qeyri-obyektiv və səmərəsiz fəaliyyətini tənqid edib, bu qurumun vasitəçiliyinə heç bir ehtiyacın olmadığını vurğulayıblar. Sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Milli Məclisin sədri Oqtay Əsədova, millət vəkillərinə, XİN rəhbəri Elmar Məmmədyarova müraciət qəbul olunub. Müraciətdə Minsk Qrupunun, onun həmsədrlərinin ötən 23 il Qarabağ ərzində münaqişəsinin beynəlxalq hüquq norma və prinsipləri əsasında ədalətli həlli ilə məşğul olmamış, mahiyyət etibarı ilə status-kvonun saxlanılmasına, Azərbaycan torpaqlarının işğal altında qalmasına çalışmış, bununla da birmənalı şəkildə Ermənistanın maraqlarına xidmət etdiyi qeyd olunub: "**Hörmətli cənab Prezident!** İşğaldan həddindən çox vaxt keçdiyini, mənasız danışıqların heç bir nəticə vermədiyini, cəmiyyətdə olan narahatlıqları nəzərə alaraq bəzi məsələlərlə bağlı Sizə müraciət etməyi özümüzə borc bilirik:

**1.**Beynəlxalq vasitəçilik missiyasının, o cümlədən Minsk Qrupunun fəaliyyətinin iflasa uğraması, heç bir müsbət nəticənin əldə olunmaması torpaqlarımızın yalnız hərbi yolla işğaldan azad ediləcəyini qaçılmaz zərurətə çevirir. Azərbaycan bu yöndə prinsipial və konkret addımlar atmalıdır.

**2.**Hərbi yolun seçilməsi istiqamətində ilk addım olaraq Minsk Qrupunun həmsədrlik institutunun ləğvi və ya onun formatının dəyişdirilməsini məqsədəuyğun hesab edirik. Formatın dəyişdirilməsi üçün cəmiyyətdə səsləndirilən təkliflər, o cümlədən Türkiyə və Almaniyanın prosesə cəlb olunması da məqbul sayıla bilər. Lakin biz daha əsaslı və radikal dəyişikliyin tərəfdarıyıq.

**3.**Əsaslı və radikal dəyişiklik dedikdə iki variantı nəzərdə tuturuq:

a)Danışıqlar prosesi BMT müstəvisinə keçirilir, vasitəçi ölkələr paritet əsasında müsəlman və xristian ölkələrindən ibarət müəyyən edilir. Bu cür tərkibli vasitəşilər qrupunun qərarlarının yerinə yetirilməsi üçün BMT çərçivəsində icra mexanizmi yaradılır və qərarlar dərhal həyata keçirilir.

b)Məsələni BMT müstəvisinə keçirmək mümkün olmasa, danışıqlar prosesi ATƏT və İslam Əməkdaşlıq Təşkilatının (İƏT) birgə missiyasına həvalə edilə bilər. Danışıqlar ATƏT və İƏT-in paritet əsasında təşkil edəcəkləri vasitəçi qrup tərəfindən aparılır. Bu qrupun qərarlarının yerinə yetirilməsi üçün yenə də BMT çərçivəsində icra mexanizmi yaradılır. ATƏT və ya bu tipli hər hansı digər regional qurumun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təkbaşına ədalətli qərar qəbul edəcəyinə artıq heç bir inam yoxdur. Bu günə qədər yalnız İslam Əməkdaşlıq Təşkilatının münaqişə ilə bağlı ədalətli və obyektiv qərarlar və qətnamələrini müşahidə etmişik. Digər beynəlxalq və regional qurumlardan yalnız BMT Baş Assambleyası 2008-ci il martın 14-də obyektiv qətnamə qəbul edib, onu da müsəlman dövlətlərinin səs çoxluğu ilə keçirmək mümkün olmuşdu. Xristian dövlətlərinin böyük əksəriyyəti, o cümlədən ABŞ, Rusiya, Fransa qətnamənin əleyhinə səs vermişdilər. Xristian dövlətləri bu yanaşma ilə özləri özlərini inam və etimad çərçivələrindən kənar qoyublar. Bundan sonra onlara inanmağa və etibar etməyimizə heç bir əsas yoxdur.

**4.**İşğal altında olan torpaqlarımızın taleyi ilə bağlı donuq, hərəkətsiz sükut vəziyyətinə son qoyulmalı, ən müxtəlif səviyyələrdə, o cümlədən Milli Məclisdə, Xarici İşlər Nazirliyində geniş, hərtərəfli müzakirələr aparılmalı, sonda Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına dair ümumxalq referendumu keçirilməli, əldə olunan qərara iyğun olaraq yol seçilməli, konkret addımlar atılmalıdır. Artıq gözləməyə vaxt yoxdur. Torpaqlarımızı, Qarabağımızı nəyin bahasına olursa olsun, işğaldan azad etməliyik".

❑ **Hazırladı: ELŞAD**

YENİ MÜSAVAT
N 61 (6089) 19 mart 2015



# Böyük "qaz oyunu"

Azər RƏŞİDOĞLU

**Martın 17-də Türkiyədə "Trans-Anadolu" qaz boru kəməri - TANAP-ın təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilib.**

Azərbaycanın və Türkiyənin birgə səylərinin məhsulu olan bu layihə üzrə saziş 2012-ci ildə İstanbulda imzalanıb. Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa İttifaqında bir neçə kəmərlə əlaqələndirəcək. Beş il ərzində reallaşması nəzərdə tutulan layihə bir neçə mərhələdə həyata keçiriləcək və ilk mərhələ 2018-ci ildə başa çatacaq. 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Rusiyanın maraqlarına zərbələr endirir.

Rusiyanın "Cənub Axını" və Avropanın "Transxəzər" qaz kəmərləri arasında gedən rəqabət fonunda "Trans Anadolu" adlı daha bir layihənin ortaya çıxması ən müxtəlif araşdırmalara səbəb olur. Xatırladaq ki, Azərbaycan qaz sektorunda müstəqil oyunçu olduğunu göstərdi.

Vurğulayaq ki, bu layihə ilə Türkiyə qaz tranziti ölkəsinə çevrilmək arzusuna qovuşmaq üzrədir. Lakin Ankaranın Avropa ölkələrinə qaz nəql etmək iddiası Rusiyanın qəzəbinə səbəb ola bilər.

Azərbaycan qazını Avropaya nəql etmək üçün Türkiyə ərazisində təqribən 1200 km məsafə qət etmək lazım olacaq. Yəni bu tariflə 10 mlrd. kubmetr qazı Avropa Birliyi sərhədinə çıxartmaq üçün "Şahdəniz" layihəsi iştirakçılarının 240 mln. avro vəsait ödəməsi lazım olacaq. Azərbaycan və "Şahdəniz" layihəsi iştirakçıları Britaniya qanunvericiliyinin tətbiq edilməsini təklif etsələr də, Türkiyə buna qəti etirazını bildirib və öz qanunlarının tətbiqində israrlı olub. Sonradan beynəlxalq layihə üçün tərəflər İsveçrə qanunvericiliyini nəzərdən keçiriblər.

Beləliklə, bölgədə siyasət neft qoxusu verir. Əgər Azərbaycan qazının Türkiyə vasitəsilə Avropaya nəqlinə böyük siyasət mane olmasa, tərəflər əldə etdikləri razılaşmanı həyata keçirəcəklər. Xatırladaq ki, Rusiya Azərbaycan qazını tam həcmdə almağa səy göstərirdi. Bununla Moskva "Nabucco" layihəsini dəfn etmək istəyirdi. Bu boru kəmərinin sərf edici formada işləyə bilməsi üçün Azərbaycan və Türkmənistan qazının onun vasitəsilə nəqlinə ehtiyac var. ABŞ İran qazının həmin kəmərlə nəqlinə qarşıdır. Rusiya uzun müddət Azərbaycanın Qərblə enerji daşıyıcıları sahəsində strateji müttəfiqliyinə son qoymaq istəyini gizlətmirdi. Azərbaycanın maraqları isə Türkiyə və Qərblə əməkdaşlığını mühüm edir. Bu isə Rusiyanın inhisarına son qoyur. Rusiya Avropanı qaz təmin etmək inhisarını əldən verərsə, Qərbə təzyiq vasitələrinin ən mühümündən məhrum ola bilər.

Rəsmi Bakı "Trans Anadolu" layihəsinin təməlini qoymaqla, Qərbə doğru reverans edir. Ola bilsin ki, rəsmi Bakı güman edir ki, birmənalı şəkildə Qərbyönəli "qaz diplomatiyasına" üstünlük versə, 2015- ci ilin taleyini indidən həll edə bilər. Lakin "Trans Anadolu" layihəsi ilə rəsmi Bakı Rusiyanı qıcıqlandırır. Odur ki, Moskvanın Azərbaycanı təhdid edəcəyini ehtimal edə bilərik.

Rusiya rəhbərliyi dəfələrlə qeyd edib ki, Azərbaycan onlar üçün çox vacib strateji tərəfdaşdır.

Lakin Kremlin bəyanatlarını Azərbaycanın ABŞ-a reveranslarının, o cümlədən də Türkiyə ilə son qaz anlaşmasının kontekstində təhlil etdikdə, məsələ aydınlaşır. Rusiya Azərbaycan hakimiyyətinə qəzəblidir və bu səbəbdən də onu açıq şəkildə təhdid edir. Onu da vurğulayaq ki, rəsmi Bakı "Trans Anadolu" layihəsinin təməlini qoymaqla, Türkiyə-Ermənistan sərhədlərinin açılması təşəbbüslərinə də son qoymuş olur. Bir sıra məlumatlara görə, Azərbaycan Türkiyəyə bu qədər böyük güzəştlərə getməklə, qardaş ölkənin rəhbərliyindən sərhədlərlə bağlı protokolların birdəfəlik dəfn olunacağına təminat alıb. Bu fakt olduqca ciddi nəticə sayıla bilər. Eyni zamanda "Trans Anadolu" Azərbaycanı Rusiyanın təsir dairəsindən azad olmağa yardım edir. Azərbaycan Bakıda Avropa Yay Oyunları keçirir, Qərbin maraqlarına cavab verən layihəyə imza atır və bununla da, parlament seçkilərinin nəticəsini bəri başdan həll etməyə səy göstərir...

---

Hamlet İsaxanlı: "Müəyyən şübhələrimiz var"



# Hamlet İsaxanlı "Yeni Müsavat"a danışdı

## Xəzər Universitetinin təsisçisi: "Əslində günah qızımda olub"

**Müsahibimiz Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlıdır. Rektor qızının adı hallanan olayla bağlı suallarımızı cavablandırıb. H.İsaxanlı deyir ki, qızı olmayan bir məsələni öz üzərinə götürüb: "Heç ağlına da gəlməyib ki, sonra belə bir video qoyacaqlar. Onlar 8 mart bayramını qeyd ediblər. Həmin vaxt mən Bakıda olmuşam. Bayramı qeyd etməyə getdilər, qayıdanda həmin Katya adlı qız xahiş edib ki, onu da özləri ilə götürsünlər. Yolda söyüş, biədəb sözlər olub, o qıza deyiblər ki, maşından düş. O da düşməyib. Onu düşürüblər.**

***- Videoya baxmısız?***

- Yox, baxmamışam. Mən gecə gəlmişəm, video məni maraqlandırmır.

***- Videoda görünür ki, qız maşından düşür və başqa maşına minir. Lakin onu maşından düşürürlər, saçından tutub təpikləməklə zorla digər maşına əyləşdirirlər.***

- Ekspertiza var, təyin etsinlər, oradakıların kimliyini müəyyən etsinlər. Orada o qızı maşından düşürüblər, ona qarşı müəyyən bir kobudluq ediblər. Biədəb söyüşlər söyürmüş. O oğlanları sonra məhkəməyə çağırıblar, təbii ki, bir az da qorxudublar, deyiblər ki, başınıza bu işlər gələcək. Qızım da düşünmədən belə bir addım atıb. Deyib ki, o qız mən olmuşam və mənim də şikayətim yoxdur, istəyib ki, onları buraxsınlar. Ağlına gəlməyib ki, hay-küy çıxa bilər, bu məsələ belə bir hala gəlib çıxa bilər, video yayıla bilər. Həmin vaxt mən və yoldaşım xaricdə olmuşuq. Martın 11-də biz xaricdə olmuşuq. Bu məsələ ilə bağlı mənə zəng edəndə Kayseridə idim. Səhər saat 6 idi, zəng etdilər, dedi ki, müxbirdir. Soruşdu ki, xəbəriniz var, qızınızı döyüblər, qızınız ölüb. Mən şoka düşdüm. Telefonu qoyub evə zəng etdim. Qızıma dedim ki, bu nə məsələdir. Cavab verdi ki, narahat olma, mənə heç nə olmayıb, o videodakı mən deyiləm. Evə gəl danışaq. Mən evə gələndən sonra danışdı, dedi ki, məsələ belə olub. Mən də ona dedim ki, düz etməmisən, humanistlik etməyin qaydası var. Onun ağlına belə gəlməyib ki, videonu yayarlar, videonu araşdırarlar.

***- Belə məlumatlar var ki, videonu vaxtilə sizinlə qohumluq əlaqələrində olmuş şəxs yayıb. Sizin bu məsələ ilə bağlı məlumatınız var?***

- Müəyyən şübhələrimiz var. Hamı bilir ki, mənim şəxsən düşmənçilik bəslədiyim insan yoxdur. Ola bilər ki, kiminsə məndən xoşu gəlməsin, bizim ailə ilə münasibəti yaxşı olmasın. Hətta belə olsa da, bu cür iş tutmaq olmaz. Düşünürəm ki, bu məsələni araşdıracaqlar. Bu gün videonun yayılmasını araşdırmaq çox asandır. Videodakı adamların kimliyini araşdırmaq da çox rahatdır. Bir qiymətli olan odur ki, bəli, mənim qızım ehtiyatsızlıq edib, heç olmasa bizə zəng etməyib ki, belə bir iş olub, siz nə deyirsiniz. Onun yoldaşlarını qorxudublar, deyiblər ki, sizə 5-6 il iş verəcəyik. Uşaqlar da düşünməyiblər. Nə iş verəcəklər ki, orada Katya şikayətçi deyil. Orada çox uşaqlar olub, rəfiqələri olub. Mən o uşaqların adlarını bilmirəm, amma xeyli hissəsini üzdən tanıyıram. Səhv, ehtiyatsız addım mənim qızımda olub. O uşaqları müdafiə etmək üçün düşünüb ki, onları tutmasınlar, desin ki, mən olmuşam, mənim də şikayətim yoxdur. Sonra da götürüb o videonu yayıblar, ondan əvvəl də deyilib ki, mən idim, mənə də heç nə olmayıb. Bundan sonra da deyiblər ki, o videodakı odur. Əvvəldən söylədiklərinə əsaslanıb deyiblər ki, qızım olub. O videonu kim qoyub, niyə qoyub bilmirik.

***- Bu hadisənin baş verməsi haqda məlumatlı idiz?***

- Bizə məlumat martın 16-da çatıb. O müxbir zəng edib, sanki muştuluq verirmiş kimi sənin uşağını öldürüblər deyib. Mən pis vəziyyətə düşmüşəm, xeyli sonra özümə gəlmişəm, zəng edib aydınlaşdırmışam.

***- 8 mart tədbirindən sonra qızınızla görüşmüşdüz?***

- Əlbəttə. Biz bir evdə yaşayırıq. Rəfiqələri ilə birgə gedib və gəlib. Biz Kayseriyə martın 11-də getmişik. Yəni məlumatımız olmayıb, bizə heç nə deməyib.

***- Videodan belə məlum olur ki, hadisə səhərə yazın 5-in yarısı olub. Həmin vaxt qızınız evə gələndə demişdi ki, nəsə bir xoşagəlməz hadisə olub?***

- Heç nə deməyib. Səhər söhbət etmişik, yəni nəsə problem olmayıb.

***- Ölkə.az saytı xəbər yayıb ki, videonun yayılmasında keçmiş kürəkəninizin əli var. Bununla bağlı nə deyə bilərsiz?***

- Elə bir söz deyirlər. Bir şey ki, gümana əsaslanır, mən heç nə deyə, iddia edə bilmərəm. Amma o, bu işləri çox yaxşı bacarır, bunu bilirəm. Yəni videolar, videoçarxlar düzəltməyi, yaymağı bacarır.

***- Aydın Əhmədzadəni nəzərdə tutursuz?***

- Bəli. Mən həmişə demişəm, bir şey ki, sübut olunmayıb, onu demək olmaz. Yəqin ki, prokurorluq bu məsələləri araşdıracaq ki, videonu kim yayıb, nə məqsədlə yayıb.

***- Bunu Aydın Əhmədzadə edə bilər?***

- O bu işlərin mütəxəssisidir. O, videoların çəkilməsi, internetdə yayılması, reklam işlərinin görülməsinin ustasıdır. O, reklam işləri ilə məşğul olur. Amma mən bu halda nəsə deyə bilmərəm. Çünki mən bu məsələni araşdırmamışam. Başqa birinin araşdırdığı haqda da məlumatsızam.

**"Həmin videonun yayılmasını keçmiş kürəkənim təşkil edə bilər. O, bu işlərin ustasıdı"**

***- Belə xəbər var ki, videonu yayan Rəşad Əhmədzadədir. Aydın Əhmədzadənin əmisi oğlu. Bu haqda nə deyə bilərsiz?***

- Xəbərim yoxdur. Ona görə ki, Türkiyədə olmuşam, mətbuatı izləyə bilməmişəm.

***- Yayılan xəbərdə deyilir ki, keçmiş qohumlarınızla aranızda məhkəmə çəkişməsi var və bu məhkəmə çəkişməsindən çıxış edərək belə bir video yayılıb.***

- Məhkəmə olub və bitib. Biz yay vaxtı xaricə istirahətə gedirik. Təbii ki, qızımızı və nəvəmizi də özümüzlə götürürük. Nəvəmizi götürmək üçün formal olaraq valideynin icazəsi olmalıdır. Onlar ayrılandan sonra biz onu deyirdik ki, yayda istirahətə gedəndə uşaq bizlə getsin. Buna görə balaca bir məhkəmə oldu və həll edildi.

***- Əmlak məsələsinə görə də məhkəmə çəkişməsinin olduğu və məhkəmə dövründə Aydın Əhmədzadənin ölkədən çıxışına qadağa qoyulduğu deyilir.***

- Birinci dəfədir ki, eşidirəm. Biz elə bir məsələ qoymamışıq, onların elə bir əmlakı da olmayıb. Lap elə bir məsələ olsaydı belə, biz onu məhkəməyə çıxarmazdıq. Uşaqla əlaqədar çəkişmə də çoxdan bitib.

***- Bu işlə bağlı mövqeyinizi bilmək maraqlı olardı.***

- Mənim qızım səhv edib, ehtiyatsızlığa yol verib. Onun yoldaşlarının başına heç nə gələn deyildi. Həmin deyilən adam da şikayətçi deyil. Bir adam kobudluq edib, buna görə onu cərimə edəcəkdilər, iş bitəcəkdi. Onlara deyiblər ki, sizə 5-6 il iş düşür, qorxudublar onları. Qızım da deyib ki, orada mən olmuşam və şikayətim də yoxdur. Çox ehtiyatsız, səhv hərəkət edib. O uşaqlar da gərək onu belə hərəkət etməyə qoymayaydılar. Ağıllarına belə gəlməyib ki, reputasiyasına, ailəsinə söz gələ bilər. Düşünüblər ki, balaca bir "stıçka" olub, bitib gedəcək. O video olmasaydı, yəqin ki, belə də olacaqdı.

***- Bu məsələ açılıb. Sizcə, bu işin aydınlaşması üçün Katya ortaya çıxmalıdır?***

- Əlbəttə, məhkəmənin işidir. Orada 20-30 adam olub, aydınlaşdırsınlar. Bu məsələ onları bir-bir evlərə yola salanda baş verib. Katya deyib ki, məni də aparın, onu da götürüblər. Yolda da bu hadisə olub.

***- Siz Muxtar Məmmədovla tanışsız?***

- Yox, mən heç o uşaqların kimin övladları olduqlarını bilmirəm. Bildiyim odur ki, yoldaşdırlar, bir-birini yaxşı tanıyan insanlardır. Düşünürəm ki, o uşaqlar da bilsəydilər ki, belə bir məsələ olacaq, qıza deyərdilər ki, lazım deyil. Uşaqlar bizim evə gəlirlər, yoldaşlıq edirlər. Atasını, anasını tanıdıqlarım da var. Axşam 2 yoldaşı da gəlib bizdə qalmışdılar. Vacib olan onların kimliyi deyil, onlar bir xüsusi məqsəd güdən uşaqlar deyillər. Yoldaşdırlar. Bu hadisə hamının başına gələ bilər.

***- Həmin gecə qızınızla danışmışdız? Bilirdiniz ki, yoldaşları ilə bərabərdir?***

- Əlbəttə bilirdim, bizdən icazə alıb getmişdi. Narahatçılıq olanda sürücünü göndəririk. Amma biz bilirdik ki, o tədbirdə dostları, rəfiqələri olacaq. Bir hissəsini adları ilə bilirdik. Demişdi ki, narahatçılıq yoxdur, bizi evə gətirəcəklər, elə tədbirlər olanda öz maşını ilə getməyə icazə vermirik. Tanışlardan birini göndəririk, gedib gətirir. O tədbirdən sonrakı günlərdə bir yerdə olmuşuq. O burada işləyir.

***- İşə çıxır?***

- Sabah işə çıxacaq. Heç bir problem yoxdur.

❑ E.MƏMMƏDƏLİYEV

"O uşaqlar da gərək onu belə hərəkət etməyə qoymayaydılar"



**"Mənim qızımın yanında Katya adlı xanım da olub. Yolda söyüş söyüb, ona deyiblər ki, maşından düş. O da düşməyib. Onu düşürüblər"**

# Mətbuat Ülkər İsayeva olayından yazmamalıdır?

**Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlının qızı Ülkər İsayevanın döyülməsi faktı, bununla bağlı mediada gedən yazılar birmənalı qarşılanmayıb. Bütün situasiyalarda olduğu kimi, bu dəfə də silahı mediaya tuşlayanlar oldu. "Niyə jurnalistlər bu mövzunun üstünə bu qədər düşdü", "Yazmağa başqa mövzu yoxdur bu ölkədə?", "Gücləri elə bir rektorun qızına çatır?", "İnsanların özəl həyatına niyə müdaxilə edirsiz".... Yəqin ki, bu iradları çoxunuz bugünlərdə eşitmisiniz...**

Bəs medianın bu vəziyyətdəki mövqeyi necə qiymətləndirilməlidir?

**""Yeni Müsavat" qəzeti baş redaktorunun 1-ci müavini Azər Ayxan** bildirdi ki, hazırda yenə də hamı qəzetçilərin üstünə düşüb, onları "niyə yazırsız, niyə o videonu qoyursuz, niyə, niyə niyə" sualları ilə qınayır: "Döyən, döyülən, övladına qüsurlu tərbiyə verən, uşağı harınlıq edən valideynlər cəmiyyətdən üzrxahlıq etmək, qəzetçilərə minnətçi düşmək əvəzinə, jurnalistlərin ünvanına vulqar ifadələr işlədirlər. "Mənim qızımdan yazanlar qələt eləyirlər", "bunu yazanlar axmaq adamlardı" və s. özlərinə yaraşan, fəqət, bizə yapışmayan küfrlər edirlər. Ən biabırçısı odur ki, o boyda rektor faktı danır, deyir, qızım döyülməyib. Halbuki cinayət işi açılıb, məhkəmə keçirilib, ortada o boyda tanıq var, sübut var. Prokurorluq Xətai məhkəməsinin məlum qərarından protest verib.

Di gəl, həm Ülkər xanımın ailəsi, həm də Məmmədov qardaşlarının anası israrla deyirlər ki, bizim uşaqlar nə döyüb, nə döyülüb. Bəs qosqoca prokurorluğun protestinə nə deyək? Keçirilən məhkəmələr kimin üzərində qurulub? İndi də Katya söhbətini atıblar ortaya. Yəqin bu biabırçılıqdan qurtarmaq üçün nələrsə etmək istəyirlər.



**Azər Ayxan:** "Övladlarınıza normal tərbiyə verin ki, sonra mətbuatı suçlamayasınız"



**Zeynal Məmmədli:** "Bütövlükdə hadisə, onun ictimailəşməsi baxımdan medianın mövqeyi doğrudur - amma adları çəkməmək şərtilə"

Amma sabah sübut olunsa ki, Katya söhbəti yalandır, bu, daha böyük biabırçılıq olmayacaqmı? Media, o cümlədən "Yeni Müsavat" bu mövzuda araşdırmasını davam etdirəcək. Kimin nə deməsindən, necə yanaşmasından asılı olmayaraq bu məsələ davam etdiriləcək."

**A.Ayxan xatırlatdı ki, Ü.İsayeva istintaq zamanı ifadə verib, olayı təsdiqləyib, amma şikayətçi olmadığını deyib:** "Bütün bunlara tüpürüb "mətbuat yalan yazır" demək hansı əxlaqa sığır, anlamıram".

**A.Ayxan dedi ki, Hamlet İsaxanlı Azərbaycanın ən nüfuzlu universitetlərindən birinin təsisçisi, həm Azərbaycanda, həm də xaricdə tanınır, bir ayağı Amerikada, Avropadadır:** "O, böyük bir təhsil müəssisəsinin təsisçisi, rəhbəri olaraq insan yetişdirir, kadr yetişdirir, şəxsiyyət yetişdirir; fəqət, özü ilk sınaqdan çıxa bilmir, yalan danışır, saxtakarlıq edir. Hazırda Azərbaycan cəmiyyətinin ən vacib, dəyərli institutlarından birini - medianı söyüb, təhqir edib. Halbuki o, bir ziyalı, müəllim olaraq tam əksini etməli idi. Bir dəfə də olsun jurnalistləri müdafiə etməyən, haqlı sözün yanında mövqe tutmayan, ölkəsində insan haqlarının pozulmasına xəfifcə etiraz bildirməyən bir universitet rəhbəri, özünü ziyalı sayan şəxs qəzetçiləri küçə sözləri ilə təhqir edib aşağılayır. Yalan yazsaq, doğrunu qoyub əyrini söyləsək adama təsir etməzdi.

İndi biz qəzetçilər heç nə yazmayaqmı, bu cür olaylara susub gözümüzü qapadaqmı? Kiminsə ailəsində Hamlet faciəsi, Dezdemona dramı, Otello biabırçılığı yaşanırsa, bunun günahkarı jurnalistlər deyil. Əgər mənim, Allah eləməmiş, övladlarım gələcəkdə ictimai yerdə özlərini apara bilməsələr, bir qüsur işlətsələr onların "qanını" bəri başdan mediaya, jurnalistlərə halal edirəm. Media cəmiyyətin güzgüsüdür, kimsə bu güzgüdə əksini əyri görürsə, buna görə özünə çəki-düzən versin, daha o güzgüyə kəllə atıb başını, üz-gözünü qana bulamasın".

**Müsahibimiz onu da yada saldı ki, qəzetçiləri Lamiyə olayında da qınayırdılar:** "Deyirdilər ki, guya hardansa sifariş almışıq. İndi yenə eyni havanı çalacaqlar. Amma bizim sifariş aldığımız ünvan bəllidir: biz oxucunun, cəmiyyətin sifarişini yerinə yetiririk. İndən sonra da belə olacaq. Bu cür situasiyalarda kimsə bizdən güzəşt gözləyirsə, çox böyük səhv edir. Güzəşt olmayacaq. Yazacağıq. Ona görə də xüsusilə də tanınmış adamlar, yüksək vəzifə sahibləri, deputatlar övladlarına normal tərbiyə versinlər. Sonra uşaqları hər hansı "ÇP" edəndə günah keçisi kimi mətbuatı qaralamasınlar".

**Media eksperti Zeynal Məmmədli hesab edir ki, bu məsələdə medianın səhvi adların çəkilməsidir. Müsahibimiz hesab edir ki, döyənin və döyülənin məşhurluğu, onların adlarının ictimai şəxslə bağlanması doğru deyil:** "Amma buna da qaba səhv deməzdim. Onun adının çəkilməsi yanlış idi. Bütövlükdə hadisə, onun ictimailəşməsi baxımdan medianın mövqeyi isə doğrudur. Çünki burda qadına şiddət faktı vardı. Burda adı önə çıxarmadan, olayın özünün, vəhşətin miqyasını işıqlandırmaq lazım idi".

**Z.Məmmədli bildirdi ki, hansı saytın Ü.İsayeva olayında necə mövqe tutması barədə tam məlumatı yoxdur. Bununla belə, Z.Məmmədli hesab edir ki, məlum videodakı hər bir gəncin özəl həyatı, yaşantısı var və onların adlarının hallandırılması özəl həyatın toxunulmazlığı qaydalarını pozur:** "Bununla belə, diqqəti başqa detala çəkmək lazımdır. Bu adlar verilmədən olayın xarakteri doğru qavranılmayacaqdısa onda adları vermək olardı. Bilirsiniz, bunlar gənc insanlardır, onlara indidən ayama taxmaq peşəkar davranış deyil. Görürsünüz ki, artıq "bəlkə oğlanlar o deyil, qız o deyil" kimi versiyalar da üzə çıxıb. Amma qadına qarşı şiddət, ona yol verənlərin kimliyi müəyyənləşibsə, necə ictimailəşməyə bilər? Bu adamlar hansı sosial təbəqənin nümayəndələridir, onların vəzifələri nələrdir, nə cür həyat tərzi keçirirlər? Bunlar da mövzunun önəmli cəhətlərindən biridir".

Z.Məmmədlinin fikrincə, indiki məqamda mətbuatın mövqeyini birmənalı qiymətləndirmək olmaz. Çünki proses hələ davam edir.

❑ Sevinc TELMANQIZI

# Müstəqil Azərbaycanın boruları...



Hüseynbala SƏLİMOV

**Məsəl var deyirlər ki, risk etməyən şampan da içmir. Bu baxımdan büdcəsi təxminən 7 milyard dollar olan TANAP layihəsini də məqsədəuyğun hesab etmək və daha bir böyük layihənin hansı sosial, siyasi və hətta "geosiyasi" nəticələrə gətirib çıxaracağını səbirlə gözləmək də olar...**

Amma əksər iqtisadçıların fikri budur ki, Azərbaycan üçün böyük neft və qaz pulları dövrü artıq arxada qalıb. Düzdür, Azərbaycan ilk böyük neft layihəsini imzalayanda neftin qiyməti hətta indikindən də ucuz idi... Elə bu səbəbdən də ən optimist ovqatlı insanlar hələ də neftin və qazın qiymətinin artacağını gözləyirlər...

Bəlli olduğu kimi, TANAP böyük qaz layihəsidir. Amma indiki vaxtda bir az əvvəldə qeyd etdiyimiz kimi, qazın da qiyməti bir o qədər cəlbedici görünmür. Ona görə də daxildə bir çox iri layihələri təxirə salan Azərbaycanın TANAP-dan ən çox siyasi dividentlər və siyasi nəticələr umduğu güman edilir - məsələ bundadır ki, TANAP Avropaya istiqamət götürən ilk alternativ böyük qaz layihəsidir...

Belə bir fikir də var ki, indi dünyada alternativ enerji mənbələrinə çox böyük xərclər yönəldilir. Buna görə də bəzi ekspertlər belə hesab edir ki, Azərbaycan öz neftini və qazını dünya bazarına nə qədər tez çıxarsa bir o qədər yaxşıdır, o səbəbdən ki, yaxın gələcəkdə alternativ enerji mənbələri ənənəvi enerji mənbələri ilə rəqabət aparmaq gücündə olacaq....

Bu məntiqlə hesablaşmamaq çətindir. Alternativ enerji mənbələri də bu günün və ya dünənin məsələsi deyil. Dünyada çoxdan bu istiqamətdə böyük işlər görülür. Belə böyük işlərin görüldüyü ölkələrdən biri də elə ABŞ özüdür. Di gəl, sual yaranır: yaxın vaxtlarda alternativ enerji mənbələri neft və qazla rəqabət aparmaq imkanında olacaqsa nədən ABŞ özünün ehtiyatlarını hələ də tam gücü ilə bazara çıxarmır?

Bu sualın daha məntiqli cavabı budur ki, alternativ enerji mənbələrinin axtarışı daha çox belə bir faktla bağlıdır ki, karbohidrogen ehtiyatları tükənən ehtiyatlar sırasına aiddir.

2018-ci ildə işləyəcəyi güman edilən TANAP bu baxımdan alternativ enerji mənbələrinin axtarışını qabaqlamaq məqsədi güdmür... Əgər bu layihəyə BP qoşulmasaydı onu "əsrin blefi" adlandırardıq. Amma BP də bu layihəyə baş qoşur, deməli layihə düşünülən qədər də perspektivsiz deyildir...

Əvvəldə qeyd etdik ki, böyük pullar dövrü artıq arxada qalıb. Bunu dolayı yolla hakimiyyətin öz ekspertləri də etiraf edirlər. Onların da fikri budur ki, neft və qaz demək olar ki, öz işini görüb, indi söz iqtisadiyyatın digər sektorlarınındır...

Amma bunu demək asandır. Reallaşdırmaq isə olduqca çətindir. Demirik ki, dövlətin bu sahədə işi tamam yoxdur. Var. Amma bu, kifayət deyil. Məsələn, bu il ölkədə kənd təsərrüfatı ili elan edilib. Acı reallıq isə budur ki, ölkə hələ özünü kənd təsərrüfatı malları ilə də təmin edə bilmir...

Amma başqa yol da yoxdur. Dünya bir tərəfə, Azərbaycanın karbohidrogen ehtiyatları olduqca məhduddur, bu, bir neçə on ilə ancaq çatar. Ona görə də ölkə qeyri-neft sektorunu inkişaf etdirməyə məhkumdur...

Fəqət, neft-qaz sektoru ilə qeyri-neft sektoru arasındakı fərq yalnız intensiv və ekstensiv inkişaf yolları arasındakı fərq deyil...

Neft sektoru iqtisadi islahatlara bir o qədər də ehtiyac duymur- neft çıxır, satılır və pul gətirir... Amma qeyri-neft sektoru belə deyil. O, az qala iqtisadi münasibətlərin məcmusunun dəyişməsini tələb edir...

Yeni nəfəs olmadan qeyri-neft sektorunun inkişafı mümkün deyil. Düzdür, beynəlxalq təşkilatların iqtisadi araşdırmalarında Azərbaycana yüksək indekslər verirlər. Bizi həmişə təəccübləndirən xüsusən iqtisadiyyatın rəqabət indeksi olur...

Təbii ki, hər şeyi inkar etmək olmaz. Hiss olunur ki, ölkə iqtisadiyyatının dünya miqyasında gedən proseslərə qarşı immuniteti var. Amma böyük optimizm üçün də əsas yoxdur. Ölkədə sərt sosial polyarlaşma gedir, Bakı az qala, dünyanın ən bahalı şəhərlərindən birinə çevrilir. Böyük neft pulları bu təbəqələşməni qismən də olsa, ört-basdır etməyə, əhalinin məşğulluğunun artmasına imkan verirdi...

TANAP da bir neçə illik layihədir. İndi xüsusən də bölgələrdə "abadlıq" işlərinin azaldılması işsizlik əmsalını yenidən artırıb. İnsanlar bu səbəbdən TANAP-a bir neçə illik iş perspektivi kimi baxırlar...

Bu da təsadüfi deyil. Hələ "Əsrin müqaviləsi" vaxtından camaat arasında belə bir deyim var ki, bizim işimiz boru çəkməkdir, onun içilə nə axır, hara axır, bu, artıq bizlik deyil...

# Özgecan üçün yubka geyinənlər... Ülkər üçün ayağa qalxacaqmı?

## İsmi Şahzadə: "Etirazlarımız var, olacaq, amma bu o demək deyil ki, bütün oxşar hadisələrdə yubka geyinəcəyik"



**Türkiyədə böyük səs-səda doğuran Özgəcan Aslan cinayətinə etiraz əlaməti olaraq Bakıda bir neçə tanınan gəncin etiraz aksiyası hələ də yaddan çıxmayıb. Belə ki, NİDA-nın həbsdən yeni çıxan üzvü Zaur Qurbanlı, jurnalistlər İsmi Şahzadə və Cavid Abdullayev "Özgecan için mini etek giy" aksiyası keçirmişdilər. Onlar mini yubka geyinərək, fotolarını çəkdirib sosial şəbəkədə paylaşmışdılar. Bu aksiya Türkiyədə də ciddi diqqətə səbəb olmuş və bizim gənclərin məlum fotoları qonşu ölkənin mətbuatında da bürümüşdü.**

Xəzər Universitetinin rektoru Hamlet İsaxanlının qızı Ülkər İsayevanın küçədə döyülməsi, bununla bağlı ölkədə yaranan ajiotaj da hazırda günün ən aktual mövzusudur. Qadına şiddət, insan haqlarının pozulması.... Ö.Aslan olayı qədər olmasa da, burda da vəhşiliyin əlamətləri özünü göstərir. Məhz bu səbəbdən sosial şəbəkələrdə də bu paralellər aparılmağa başlanıb: **"Özgecan üçün yubka geyinənlər Ülkərə görə niyə səsini çıxarmır?"**

Biz də eyni sualla məlum aksiyanı keçirənlərə müraciət etdik.

**İsmi Şahzadə** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, şəxsən kimliyindən , şəxsiyyətindən, bütün hallarda, hətta cinsiyyətindən belə asılı olmayaraq şiddətə qarşıdır: **"Bizim məsələyə münasibətimiz, "Özgecan hadisəsinə reaksiya verənlər hardadır" sualını bütün tanıyanlar, yarızarafat-yarıciddi soruşublar. Arada baxdım gördüm ki, sosial şəbəkələrdə də bu sual çıxıb ortalığa. Biz əvvəlki mövqeyimizdəyik. Etirazlarımız da var və olacaq - müxtəlif formalarda. Amma bu, o demək deyil ki, bütün oxşar hadisələrdə yubka geyinəcəyik. Bir az da bu suali bizə verənlər kreativlik eləsin".**

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 61 (6089) 19 mart 2015



# Bir zəngin sevinci

Zamin HACI
zaminhaci@gmail.com

**Biz qəzetçilər elə işlə məşğul oluruq ki, bunun həm təhlükəli, həm sevinc gətirən hissəsi var. Təhlükəlisi odur ki, tənqid elədiyin hökumət adamı evin blokunda təpənə güllə sıxar, yaxud yazarsan biri ayı yeyib, məhkəməyə verib çərlədər, əlacsızlıqdan meşələrə çəkilib ayı kimi nərildəmək istəyərsən. Amma bu peşənin sevinci, mükafatı da gözəldir. O mükafat isə xalqın təşəkkürü, minnətdarlığıdır. Biz bununla yaşayırıq. Həyatımızın mənası budur.**

Misal üçün, 2 gün qabaq mən İsmayıllı rayonundan deputat qoyulmuş Novruzəli müəllimin həyat və yaradıcılığı haqda "Deputat içkini necə atdı" başlıqlı yazı vermişdim. Həmin yazının dərcindən sonra Novruzəli müəllim mənə zəng vurdu, minnətdarlıq elədi. Dedi bu gün axır çərşənbə bayramıdır, hesab edirəm sən bu yazı ilə mənim bayramımı qutlamısan. Mən çox sevindim, hətta durub bir şəkərbura yedim, qapıya papaq atan uşaqlara yaxşı nəmər verdim. Novruzəli müəllim həmçinin tezliklə doğum günü olacağını, mənim yazımı həm də doğum günü təbriki kimi qəbul elədiyini bildirdi. Bununla bizə - çoxsaylı pərəstişkarlarına əlavə dəyərli informasiyalar vermiş oldu. Demək onun adı Novruz bayramı ilə birbaşa bağlı imiş. Nə yaxşı hörmətli deputat 28 aprel, 1 may bayramları ərəfəsində doğulmayıbdır! Onun xalqa yaxınlığını həm də bu göstərir!

Ancaq mən hiss elədim ki, Novruzəli müəllim bir qədər inciyibdir. *(Peşəmiz nə qədər insafsız olsa da hələ insanlıq, humanizm hisslərini tamam itirməmişik, deputatlar üçün müəyyən qədər saxlayırıq)*. Çünki belə bir söz də soruşdu: "Mənim sənə, sənin yaxın qohumlarına haçansa nəsə bir pisliyim dəymәyib?".

Qəribə sual idi. Novruzəli müəllim hesab edir ki, jurnalist kimdənsə yazı yazırsa ondan mütləq şəxsi pislik, yaxud yaxşılıq görməlidir. Əks halda niyə yazsın? Yazının, qəzetçiliyin nəsə ictimai mənası varmı?

Əlbəttə yoxdur! Məsələn, keçən həftə yuxarı mərtəbədə yaşayan baş prokuror başıma zibil atdı, mən də onu tənqid elədim. Ondan qabaq Binəqədinin icra başçısı Xaləddin müəllim metroda gedərkən ayağımı tapdalamışdı. Hələ Elman Rüstəmovun qohumlarıma elədiyi pislikləri demirəm!

Amma incikliyin başqa tərəfi də ola bilsin vardır. Çünki mən Novruzəli müəllimin deputat qoyulandan sonra bir çox zərərli adətləri atmağını, məsələn, spirtli içkini tərgitməyini tərənnüm eləmişdim, lakin bunu araşdırmağa heç cəhd göstərməmişdim. Doğrudan da, necə ola bilər ki, deputatlıq insanın arağı atmasına gətirsin? İki gün fikirləşib bu müddətdə iki butulka araq boşaldandan sonra mən bunun elmi səbəblərini tapdım.

Səbəb Novruzəli müəllimin deputatlıqdan kənar fəaliyyət sahəsindədir, axı o, həm də respublika Qızıl Aypara Cəmiyyətinin (QAC) sədridir. Planetin harasında bir humanitar fəlakət olsa orda Novruzəli müəllimin qızıl ayparalı avtomobil karvanlarını görmək mümkündür. Telekanalizasiyalarımızda tez-tez belə kadrlar gözə dəyir: Novruzəli müəllim əleyhqaz taxmadan helikopterdən iplə Fukusima AES üzərində sallanır, onun hər iki əlindəki iplərdən isə 15 yapon uşaq bərk-bərk tutmuşdur. Yaxud görürsən Banqladeşi sel basıb, camaat vannada üzür, Novruzəli müəllim isə sualtı qayıqla vannaları toplayır. Kamera qəfil fırlanır, bu dəfə Novruzəli müəllim İsmayıllıda yanan "Çıraq" hotelinin külləri içərisindən qanadı qırıq səməndər quşunu çıxardıb Bakı Hayvanat Bağçasına aparır.

Belə ağır ictimai fəaliyyəti ancaq araqla sakitləşdirmək olardı. Bu qədər dərdi ayıq başla çəkmək mümkün deyildi. Lakin Novruzəli müəllim sonradan deputat olarkən gördü ki, bizim Milli Məclis texnogen, ekoloji, tektonik və sairə fəlakətləri aradan qaldırmaq gücündədir. Səyavuş müəllim bir qərar düyməsi basanda Suriyada neçə qaçqın uşağı doyur. Hadı müəllimin hazırladığı qanun layihəsi sayəsində indiyə qədər neçə afrikalı müəllim begemot ağzından qurtulubdur. O cümlədən də başqa deputatlar QAC-ın planetar vəzifələrini tam şəkildə yerinə yetirirlər.

Ona görə də daha içməyə ehtiyac qalmır.

---

**Martın 17-də Türkiyənin Qars şəhərində dünyanın enerji xəritəsini dəyişdirəcək layihənin -TANAP-ın təməli qoyuldu. Azərbaycan qazını Avropaya daşıyacaq Cənub Qaz Dəhlizi layihəsinin əsas hissəsi olan TANAP mavi yanacağın ilk nəqlini 2018-ci ildə reallaşdıracaq. İlk əvvəl 16 milyard kubmetr təşkil edəcək nəql həcminin mərhələli surətdə əvvəlcə 24 milyard kubmetrə, sonra 31 milyard kubmetrə yüksəldilməsi nəzərdə tutulur.**

# TANAP Azərbaycana nə verəcək...

## Ekspertlər heyrətamiz proqnozlar verdilər; "Bölgədə Avropa qaz bazarına yiyələnmək üçün ciddi çarpışma gedir"



Qabil Hüseynli



İlham Şaban

1850 kilometrlik TANAP xətti 2020-ci ilin əvvəlindən etibarən Trans-Adriatik Təbii Qaz Boru Xəttinə (TAP) bağlanaraq, Cənubi Qafqaz Boru Xətti vasitəsilə alacağı təbii qazı Yunanıstan, Albaniya və İtaliya üzərindən Avropaya çatdıracaq.

Boru xətti Türkiyə-Gürcüstan sərhədində yerləşən Ərdəhan vilayətindəki Posof mahalının Türkgözü kəndindən başlayaraq Ərdəhan, Qars, Ərzurum, Ərzincan, Bayburt, Gümüşhane, Giresun, Sivas, Yozqat, Kırşehir, Kırıkkale, Ankara, Eskişehir, Bilecik, Kütahya, Bursa, Balıkesir, Çanaqqala, Tekirdağ və Ədirnə olmaq üzrə 20 vilayət, 67 mahal və 600 kənddən keçərək Yunanıstan sərhədində Ədirnənin İpsala mahalında yekunlaşacaq və bu nöqtədən etibarən TAP ilə bağlanacaq. TANAP 10-11 milyard ABŞ dolları dəyərində qiymətləndirilir.

TANAP layihəsi çərçivəsində SOCAR, bp və Türkiyənin "Botaş" şirkəti arasında müqavilə imzalanıb. TANAP layihəsində SOCAR 80 faiz, Türkiyənin BOTAŞ və TPAO şirkətləri isə birlikdə 20 faiz paya malikdir.

Ötən ilin sentyabr ayının 20-də Bakıda Cənub Qaz Dəhlizi layihəsinin təməli atılanda bunu utopiya adlandıran və reallaşacağına ümid bəsləməyənlər də var idi. Xüsusilə dünyanın siyasi nizamındakı yeni proseslərin yaşanması xeyli suallar yaradırdı. Lakin Avropanın enerji təchizatında əsas rolu ələ almağa qərar verən Bakı və Ankara hər şeyə rəğmən başladıqları işi davam etdirir.

**TANAP-ın faydalarından danışan politoloq Qabil Hüseynli bildirdi ki, bu, əsrin layihəsi adlandırıla bilər. Çünki TANAP iddialı layihədir. Avropanın qaz təchizatının 60 faizindən yuxarısını öz üzərinə götürmək fikrindədir:** "Söhbət Türkmənistan qazının TANAP-a birləşdirilməsindən sonra bunun baş verəcəyindən və yaxud "Şahdəniz-2" qaz yataqlarının istismara buraxılmasından sonra bunun baş verəcəyindən gedir. Azərbaycan təkbaşına Avropanın yarıdan çoxunu qazla təchiz edə bilər. Amma türkmən variantı da, Transxəzər qaz kəməri layihəsi də var. Bunlar işə düşsə Avropanın qaz təchizatında Rusiyanın payı minimuma enəcək. Elə məhz bunun səbəbidir ki, TANAP layihəsinin özülü qoyulduqdan dərhal sonra Vladimir Putin Tayyib Ərdoğana zəng etdi. Bölgədə Avropa qaz bazarına yiyələnmək üçün ciddi çarpışma gedir. Əsas çarpışma da Rusiya ilə Azərbaycan arasındadır. Avropa da öz bazarına yalnız Azərbaycanı buraxmaq istəyindədir. Bunu dəfələrlə bəyan ediblər və hətta onlar TANAP layihəsini "Nabukko" layihəsinə çevirmək haqqında fikirlər səsləndirdilər".

**Politoloqun sözlərinə görə, TANAP Azərbaycanın siyasi çəkisini xeyli artırır. Azərbaycan regionun ciddi oyunçusuna çevrilir. TANAP Türkiyə ilə Azərbaycan arasında strateji bağları daha da gücləndirəcək:** "Söhbət strateji əməkdaşlığın yeni yüksək səviyyəyə qaldırılmasından gedir. Məsələn, Ərdoğan TANAP-ın bünövrəsinin qoyulmasına bir gün qalmış bəyanatla çıxış edib bildirdi ki, əgər Türkiyənin indiki gücü 1990-cı illərdə olsaydı Qarabağın işğalının baş tutmasına Türkiyə imkan verməyəcəkdi. Bu, onu göstərir ki, doğrudan da Türkiyə tərəfi Azərbaycanla siyasi əlaqələri elə səviyyəyə qaldırmaq istəyir ki, Türkiyə Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına müdaxilə edə bilsin".

**Q.Hüseynli onu da dedi ki, neft ehtiyatlarının getdikcə azalmasının ölkəmiz üçün yaradacağı bilinəcəyi problemlərin aradan qalxmasında və iqtisadiyyatın inkişafında TANAP öz sözünü deyəcək:** "Neft azalsa da hələ 50 illiyə Azərbaycanın dadına çatacaq. Ancaq azalmadan görəcəyimiz zərərləri qaz satışından gələn gəlirlər kompensasiya edəcək. Kəşf edilmiş qaz ehtiyatlarımız 100 il üçün kifayət edəcək. "Şahdəniz-1" və "Şahdəniz-2" qaz yataqlarındakı qaz bazara çıxarılıb satılmağa başladıqda neftdən itirdiklərimizdən 3 dəfə çox gəlir verəcək. Yəni Azərbaycanın iqtisadi durumu daha da artacaq. Neft bumu dövründə yaşanan iqtisadi yüksəliş qaz bumunun gətirdiyi iqtisadi yüksəlişlə əvəz olunacaq".

**Həmsöhbətimiz qeyd etdi ki, TANAP üçün müəyyən təhdid və təzyiqləri də nəzərdən qaçırmaq olmaz:** "Bu baxımdan Rusiya daha çox seçilir. Rusiya Türkmənistanı qorxudur, Transxəzər qaz kəməri layihəsinin əleyhinə çıxır, bu məsələdə ona İran da dəstək verir. Üstəlik, Rusiya Azərbaycanı da bu və ya digər formada bununla bağlı öz tələqinlərini etməyə çalışır. Yəni demək istəyirəm ki, TANAP-ın bu ərsəyə gəlib çatması heç də asanlıqla baş tutmur. Rusiya hədsiz dərəcədə qıcıqlanır və bu layihənin baş tutmaması üçün cəhdlər edir. Ona görə də Azərbaycanı meydanda tək qoymaq olmaz. Qərb ölkələri, Avropa ölkələri mümkün təzyiqlərin qarşısını almaq üçün ciddi addımlar atmalıdır. Avropa ölkələri Rusiyadan qaz asılılığından xilas olmaq üçün mütləq Azərbaycanı müdafiə etməlidirlər. Geosiyasi vuruşda hələ ki Azərbaycan həm buna qarşı olan təzyiqlərə tab gətirir, həm də öz siyasi xəttini uğurla həyata keçirir".

**Publika.az isə xəbər verir ki, rusiyalı iqtisadçı analitik Valeri Nesterov bu layihənin region üçün olduqca əhəmiyyətli olduğunu bildirib:** "İlk dəfə keçmiş Sovet İttifaqının başqa respublikasından Avropa Birliyinə qaz veriləcək. Bu sistem artıq Bakıda mövcuddur və zaman keçdikcə Avropa bazarından yeni mənzərələrə səbəb olacaq".

Neft Tədqiqatları Mərkəzinin rəhbəri İlham Şaban TANAP-ın region xəritəsini dəyişdirəcəyini düşünür. Onun sözlərinə görə, bu layihə yaxın 10 ildə bölgənin iqtisadi və siyasi xəritəsində əhəmiyyətli rola malik olacaq: "Bu layihədən gələcək dividentlər ilk növbədə Azərbaycan, Türkiyə, Gürcüstana xeyir verəcək. 2016-cı ildə regionda təxminən 30 min yeni iş yeri yaranacaq". Ekspert hesab edir ki, layihənin həcmi az olsa da, bunun Avropaya ilk qapı olaraq açılması xüsusi önəmə malikdir.

**TOBB İqtisadiyyat və Texnologiya Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin professoru, politoloq Toğrul İsmayıl isə qeyd edib ki, uzun illərdir enerji ixracını yerinə yetirən Azərbaycan bu məsələdə öz strategiyasını ağıllı və düzgün şəkildə həyata keçirir:** "TANAP-a Avropa və dünyaya çıxışı təmin edən, əvvəldən təməli atılmış layihələrin davamı kimi baxmaq olar. Daha öncə Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum boru kəmərləri var idi. TANAP da uğurlu enerji strategiyasının davamıdır. Azərbaycan Avropanın enerji təhlükəsizliyində daha aktiv rola malikdir. Rəsmi Bakı müttəfiqi Türkiyə ilə ortaq layihələr çərçivəsində addımlarını atır. TANAP-ın tam işə düşməsindən sonra Avropanın enerji probleminə böyük töhfə verəcək və "Köhnə Qitə" Rusiyadan yan keçən alternativ mənbə əldə edəcək. Hansı ki, bu alternativ layihə Cənubi Qaz Dəhlizi adlanır.

Lakin bir məsələ həqiqətdir ki, Rusiyanın bu layihələrdən kənarda qalması Azərbaycanın yürütdüyü siyasətlə bağlı deyil. Rusiya özü özünü təcrid edir. Digər tərəfdən, Azərbaycanın enerji təhlükəsizliyində aldığı rol özünü milli təhlükəsizliyi məsələsinə çevrilir. Bu baxımdan, təsisat mənbələri və boru kəmərlərinin inkişaf etdirilməsinin vacib olduğunu hesab edirəm. Bu layihələr doğru və sistemli şəkildə həyata keçsə, Azərbaycan öz təhlükəsizliyini də gücləndirəcək".

❑ Etibar SEYİDAĞA

# Ərdoğanın Putinə qəfil zəngi və Bakıdan duyulanlar - iddia

## Türkiyə lideri təzəcə "tapılan" Kreml başçısı ilə yarım saat danışıb; Ərdoğanın öz həmkarını saxta "soyqırımın" yubiley töreni ilə bağlı qərarından daşındırmağa çalışdığı ehtimal edilir; Putun 24 apreldə Çanakkalaya da gedə bilər - İrəvandan...

**Rusiya prezidenti Vladimir Putin "itkin düşməmişdən" öncə rəsmi Kreml belə bir açıqlama yaymışdı ki, Rusiya lideri aprelin 24-də İrəvana yollanacaq - saxta erməni soyqırımı iddialarının 100 illik törəninə qatılmaq üçün. Xəbərlə bağlı dərhal şərhlər gəldi. Ortaq yanaşma belə oldu ki, qərar gözlənilməz deyil, çünki Ermənistan Moskva üçün bölgədə ən önəmli forpost olaraq qalır.**

Ancaq o da faktdır ki, aylardır Qərbin sərt sanksiyaları altında olan Rusiyanın Türkiyə ilə genişlənən əlaqələri də Kremldən ötrü az əhəmiyyət daşımır. Putinin aprelin 24-də Çanakkalaya yox, məhz İrəvana getmək qərarı verməsi isə istər-istəməz yüksəlişdə olan Ankara-Moskva əlaqələrinə mənfi təsir göstərəcək. Bunun altını da daha çox Rusiya çəkəcək, nəinki Türkiyə. Ən böyük faydanı isə iki dövlət arasında yaxınlaşmanın olmasına qarşı çıxan ABŞ, Qərb götürəcək.

Söz düşmüşkən, bu cür xəbərlər yayılana qədər, bir sıra rusiyalı analitiklər Putinin İrəvana özünün gedəcəyini yox, baş naziri göndərəcəyini, Türkiyəyə isə başqa nümayəndə heyəti yollayacağını daha çox ehtimal edirdilər. Yəni sağlam məntiqdən çıxış edərək belə təxminlər irəli sürülürdü. Kremlin rəsmi açıqlaması isə bu təxminlərlə üst-üstə düşmür təbii ki.

Bir sual da aktuallığını saxlayır. Məsələ ondadır ki, onsuz da Ermənistan Rusiyanın ovucunun içindədir, üstəgəl, işğalçı ölkənin Rusiyaya daha çox ehtiyacı var, nəinki əksinə. O zaman şəxsən Putinin İrəvana getməklə Türkiyəni qıcıqlandırmasına lüzum varmı? Tutaq ki, ora baş nazir Dmitri Medvedyev getsəydi, ermənilər nə edəsi idi ki?



Bəllidir ki, bu açıqlamanın ardınca Putin 10 günlüyə "yoxa çıxıb". "Tapılandan" dərhal sonra - dünən isə Türkiyə baş naziri Rəcəb Tayyib Ərdoğan ona telefon açıb. T 24 türk saytının məlumatına görə, 30 dəqiqəlik danışıq zamanı ikitərəfli əlaqələri inkişaf etdirməyin vacibliyi vurğulanıb. Prezidentlər həmçinin Ukrayna böhranını, Krım tatarlarının məsələsini və "erməni soyqırımı" mövzusunu müzakirə ediblər.

Ən diqqət çəkən məqam da yəqin ki, sonuncu məsələdir. Sayt bu xüsusda Türkiyə prezidentinin Putinin diqqətinə çatdırdığı bir fikri sitat kimi təqdim edib. **"Biz ədalətli tarixi yaddaş perspektivinin tərəfdarıyıq, ancaq Ermənistan bizim sülhə çağırışlarımızı iqnor edir, tarixçilərdən ibarət ortaq komissiya təklifimizə neqativ reaksiya verir"** - deyib Ərdoğan.

Bu, əslində elə Putinin İrəvana getmək qərarına Türkiyə tərəfinin diplomatik tərzdə etirazıdır. Ehtimal ciddidir ki, Ərdoğan bununla Kreml başçısına öz qərarına təzədən baxmağın, yaxud İrəvanla eyni gündə Türkiyəyə də baş çəkməyin iki ölkə münasibətləri kontekstində vacibliyini çatdırıb. Yəni telefon danışığı ikitərəfli əlaqələr və Putinin səhhətindən daha çox məhz bu imperativdən qaynaqlanıb.

Bu yerdə xatırladaq ki, Kremlin mətbuat xidmətinin məlumatında telefon zənginin məhz Türkiyə tərəfinin təşəbbüsü ilə baş tutduğu bildirilir. Rəsmi məlumatda deyilir: **"Dostluq şəraitində ikitərəfli qarşılıqlı əlaqələrin müxtəlif aspektləri, Ali Əməkdaşlıq Şurasının 5-ci iclasının *(Ankara 1 dekabr, 2014)* qərarlarının yerinə yetirilməsinin gedişi "Türkiyə axını" da daxil, energetika sahəsində birgə layihələrə vurğu salınmaqla müzakirə edilib. Həmçinin aktual beynəlxalq və regional məsələlərə, habelə qarşıdakı yüksək səviyyədə görüşlərin qrafikinə dair fikir mübadiləsi aparılıb".**

"Qarşıdakı yüksək səviyyədə görüşlərdən" biri niyə də aprelin 24-də Çanakkalda olmasın - lap elə İrəvan səfəri ilə eyni gündə? Əgər həmin vaxt təbii ki, Putin təzədən, qısa müddətə "itməsə"...

❑ Siyasət şöbəsi

# Qarsda himn krizi: təxribat, yoxsa...

**Azərbaycan və Türkiyə arasındakı münasibətlərə xələl gətirmək üçün zaman-zaman cəhdlər olub və yaxın tariximizdə də bunun dəfələrlə şahidi olmuşuq. Bütün müdaxilələrə və suları bulandırmağa çalışanların cəhdlərinə, fitnə-fəsadlarına baxmayaraq iki qardaş ölkənin əlaqələri yüksələn xətt üzrə gedir. Elə bugünlərdə Türkiyə və Azərbaycanın birgə hərbi təlimlər keçirməsi, TANAP layihəsinin təməl qoyma mərasiminin baş tutması da ciddi hadisələrdir.**

Bu mənada martın 17-də baş verən olaya həssas yanaşma tələb olunur. Həmin gün Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan prezidenti İlham Əliyev Qarsda Heydər Əliyev adına Texniki Liseyin açılışını edib. Lakin açılış mərasimində iştirakçılar Azərbaycan himninin səslənəcəyini gözlədiyi halda, bu, baş verməyib. Ərdoğan bu səbəbdən protokol müdirini və müvafiq vəzifəli şəxslərdən izahat alıb və Türkiyə prezidentinin əsəbiləşdiyi açıq-aydın müşahidə olunub. Çıxış üçün kürsüyə çıxan Ərdoğan ilk olaraq protokol xətasının düzəldilməsini istəyəndən sonra Azərbaycan himni səsləndirilib.

Qeyd edək ki, Azərbaycan Xarici İşlər Nazirliyi və Prezident Administrasiyası bu məsələyə şərh verməyib.



**Fazil Mustafa:**
"Kimin nəyinə lazımdır ki, Azərbaycanla bağlı təxribat xarakterli belə addıma rəvac versin?"



**Siyavuş Novruzov:**
"Ola bilər ki, texniki problem olub"

Azərbaycanın Qarsdakı baş konsulu Ayxan Süleymanovdan da münasibət öyrənmək üçün cəhdlərimiz nəticə vermədi. Türkiyənin Bakıdakı səfirliyinə ünvanladığımız soğrumuza isə cavab veriləcəyini bildirdilər.

**Deputat Fazil Mustafa hesab etmir ki, bu, bir təxribatdır:** "Kimin nəyinə lazımdır ki, Azərbaycanla bağlı belə xoş olmayan, təxribat xarakterli addıma rəvac versin? Məncə, bunu texniki problem kimi qiymətləndirmək lazımdır və onu mürəkkəbləşdirmək olmaz. Türkiyənin Azərbaycana, Azərbaycanın Türkiyəyə münasibəti bəllidir. Aramızda hardasa soyuq ruzigarlar əsmir ki, məqsədyönlü şəkildə belə addım atılsın". F.Mustafanın sözlərinə görə, Türkiyə prezidentinin sonrakı jestləri, addımları da onu göstərdi ki, hər hansı problem yaşanmır və bu məsələdə onlar da təqribən bizim kimi düşünürlər.

**BQP başqanı qeyd etdi ki, ortada suyu bulandırmağa çalışanlar, təxribat törətmək istəyənlər olsa da, bu cəhdlər böyük bir layihənin gerçəkləşməsinin qarşısını almaq üçün yetərli deyil:** "Həm Azərbaycan, həm Türkiyə prezidentlərinin bir-birinə jestləri, davranışları kifayət qədər alicənab üslubdaydı. Ona görə də kiminsə kənardan nəyəsə müdaxilə etməsi bu cür böyük bir layihənin əhəmiyyətini azalda bilməz".

**YAP-çı deputat Siyavuş Novruzov da himn anlaşılmazlığını "elektrik avadanlığının" günahı sayır:** "Ola bilər ki, texniki problem olub. Biz əsas diqqəti buna yox, layihənin mahiyyətinə yönəltməliyik. Əslində böyük bir layihənin gerçəkləşməsindən söhbət gedir. Bu, tarixi hadisədir, Bakı-Ceyhana bərabər bir layihədir. O layihənin müəllifi də, memarı da Azərbaycan prezidentidir. Uzun illərin mübarizəsi nəticəsində bu layihənin realizə olunması istiqamətində atılan addımlar artıq ortadadır. Azərbaycan xalqının möhtəşəm bayram günlərinə əlavə bir bayram da qatıldı. Həmçinin Azərbaycan Avropanın enerji təhlükəsizliyində öz rolunu bir daha sübut etdi və nümayiş etdirdi ki, Azərbaycan verdiyi sözü daim axıra çatdırır".

**S.Novruzova görə, layihəni gözü götürməyənlər də var və belə qüvvələr təxribatlar törətməyə çalışacaqlar:** "Bu təxribatları biz Bakı-Ceyhanda, Bakı-Supsada, dəmiryol xəttinin çəkilməsi zamanı da görmüşük. Müxtəlif bəhanələr, addımlar olub. Amma bu gün artıq TANAP-ın reallaşması hamının gözünün qabağındadır. Azərbaycan prezidentinin səyi və cidd-cəhdləri nəticəsində artıq bu proses uğurla nəticələndi, məsələ öz həllini tapdı".

❑ Cavìd TURAN



# Azərbaycanın müsəlman dostu: Pakistan

## Azərbaycan-Pakistan əlaqələri və perspektivlər...

**Ötən həftə Pakistan prezidenti Məmnun Hüseyn Azərbaycana səfər etdi. Səfər bir neçə gün davam etdi. Pakistanın "Dailytimes" qəzeti yazır ki, M.Hüseyninin Azərbaycan hökumətindən Pakistana investisiya qoymağı təklif edib. Hələlik Azərbaycan tərəfinin bu çağırışa necə reaksiya verəcəyini demək tez olar. Lakin o da faktdır ki, Azərbaycan Pakistanla çox yaxın əlaqələrə malikdir. 2007-ci ildə Pakistanda baş vermiş zəlzələ zamanı Azərbaycan Pakistana yardım göstərib. Azərbaycandan 40 həkim, xeyli dərman, avadanlıq və təlim keçmiş xilasedici dəstə bu bölgəyə göndərilib, Pakistana 1,5 milyon dollar həcmində maddi yardım edilib. Bundan başqa, Heydər Əliyev Fondu Pakistanın zəlzələdən dağılmış Müzəffərabad şəhərinin Rara qəsəbəsində müasir orta məktəb inşa etdirib.**

Eyni zamanda Pakistan Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 12-də, Türkiyədən sonra ikinci tanıyan ölkədir. 1992-ci il iyunun 9-da iki ölkə arasında diplomatik münasibətlər yaradılıb, Pakistanın Azərbaycanda səfirliyi açılıb. Maraqlıdır ki, 1993-cü il aprelin 30-da Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT TŞ-nin 822 saylı qətnaməsinin qəbul edildiyi iclasa Pakistan sədrlik edib. Ümumiyyətlə, ötən 20 ildən artıq bir vaxt ərzində Pakistan beynəlxalq səviyyədə bütün toplantılarda Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib. Pakistan dövlət və hökumət başçıları dəfələrlə nüfuzlu beynəlxalq tədbirlərdə Azərbaycana açıq şəkildə dəstəklərini bildiriblər. Bundan başqa, Pakistan məhz Azərbaycana hərbi təcavüzü əsas gətirərək Ermənistanla diplomatik münasibətlər qurmayıb, bu ölkədə səfirliyi yoxdur. Pakistan bu siyasəti məhz İslam həmrəyliyi, müsəlman qardaşlığı prinsiplərinə əsasən edir.

Azərbaycanla Pakistan arasında ən ciddi əməkdaşlığın olduğu sahələrdən biri də hərbi sahədir. 2002-ci ildə Azərbaycan və Pakistan arasında müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında saziş imzalanıb. Azərbaycanın müdafiə naziri bir neçə dəfə Pakistana səfər edib. Eyni zamanda dost ölkənin hərbi rəhbərliyi dəfələrlə Azərbaycanda səfərdə olub. Bir neçə dəfə Hindistanla müharibə aparan, ərazisində "Taliban" kimi terror qruplaşmalarının mövcud olduğu Pakistan ordusu dünyanın ən güclü ordusu və kəşfiyyatları sırasına daxildir. Azərbaycan Pakistandan məhdud sayda silah və texnika alır, eyni zamanda Azərbaycan hərbçiləri Pakistan ordusunda təşkil olunan kurslarda iştirak edib.

Azərbaycanın bu ölkə ilə iqtisadi, hərbi sahədə əlaqələrinin olması müsbət haldır. Bundan başqa, Pakistan ciddi daxili qeyri-stabilliyə, terror təşkilatlarının fəallığı, həmsinin qərb bölgələrində geniş yayılmış tayfa idarəçiliyinin dərinləşməsi, bəzi hallarda mərkəzi hakimiyyətlə hesablaşmaması faktlarına rəğmən ciddi demokratik ənənələrə malik ölkələrdən biridir. Pakistan parlament quruluşlu respublikadır, ölkənin idarəçiliyini parlament çoxluğuna nəzarət edən partiyanın formalaşdırdığı hökumət həyata keçirir. Prezident isə daha çox formal post hesab olunur. Pakistan eyni zamanda tarixə ilk qadın baş naziri olan ölkə kimi düşüb. Bənəzir Buhutto iki dəfə - 1988 və 1993-cü ildə Pakistanın baş naziri seçilib.

Ancaq bütün bunlarla yanaşı, Hindistanla müharibə şəraitində olan və ciddi daxili qeyri-sabitliyi olan Pakistan yatırım üçün o qədər də cəlbedici ölkə hesab olunmur. SSRİ-nin Əfqanıstana müdaxiləsi zamanı Pakistan faktiki olaraq Qərbin SSRİ-yə qarşı gizli savaşının "arxa cəbhəsi" rolunu oynayıb. Bu ölkədən islamçı radikallar, ərəb ölkələrinin maliyyə dəstəyi və Qərbin təchizatı ilə hazırlanaraq Əfqanıstanda sovetlərə qarşı döyüşlərə göndərilib. Savaş Pakistan ərazisinə keçməsə də, əfqan-sovet müharibəsindən Pakistana da "pay" düşdü. Ölkədə çoxlu sayda nəzarətdən çıxmış silahlı qruplaşmalar meydana gəldi. 18 minə yaxın mədrəsədə dini təhsil adı altında hazırlanan radikallar sonradan Pakistan üçün bəlaya çevrildi. Hazırda ölkənin şərq əyalətlərində "əl-Qaidə", "Taliban" və digər islamçı qruplaşmalar fəaldır. Bundan bəzi bölgələr demək olar ki, hökumətin təsir dairəsindən çıxıb. Pakistan ordusu zaman-zaman ölkə daxilində bu qruplara qarşı əməliyyatlar keçirsə də, terror və silahlı hücumlar bu ölkənin gündəlik həyatının bir parçasına çevrilib.

Bu mənada Azərbaycanın indiki situasiyada Pakistan iqtisadiyyatına, o cümlədən enerji sektoruna böyük miqdarda yatırım qoyması real görünmür. Ancaq istənilən halda Pakistan dost-qardaş ölkə və böyük bir bazardır. Bu amillər Azərbaycan investorlarını bu ölkəyə yatırım qoymağa cəlb edə bilər.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 61 (6089) 19 mart 2015



# Azərbaycanda ev bazarının daha bir unikallığı

## Mənzillər ucuzlaşmaq əvəzinə, bahalaşır; ekspert: "Ən böyük qeyri-müəyyənlik ondadır ki, bazarda alıcı yoxdur, ancaq qiymətlər artırılır..."

**Neftin ucuzlaşmasından sonra bir çox ölkələrin təcrübəsi də sübut etdi ki, normal bazar iqtisadiyyatına malik ölkələrdə milli valyutanın dəyərdən düşməsi ilk növbədə mənzil bazarında qiymətlərin ucuzlaşmasına səbəb olur. Qonşu Rusiyada rublun dəyərdən düşməsi daşınmaz əmlakın ucuzlaşması ilə nəticələndi. Vəziyyət o həddə çatdı ki, dünyanın əksər ölkələrindən, o cümlədən Azərbaycandan iş adamları bu ölkədə mənzil bazarına investisiya yatırmağa can atdılar.**

Lakin Azərbaycanda manatın devalvasiyasından sonra dünya təcrübəsinin əksinə olaraq mənzillərin qiyməti bahalaşdı. Hazırda manatın dəyərdən düşməsi ilə istər torpağın, istərsə də hazır evlərin qiyməti dollarla hesablanır, bu isə 30 faizdən artıq bahalaşma deməkdir. Digər tərəfdən, mənzil bazarında alıcılıq azalıb. Tələbatın azalması iqtisadi qanunlara əsasən ucuzlaşmaya gətirməli olsa da, Azərbaycanda daşınmaz əmlak bazarında bunun əksi baş verir.

Əmlak bazarındakı bu qeyri-məyyən durumu dəyərləndirən **iqtisadçı ekspert Vüqar Bayramov** bildirdi ki, təklif qiymətinin artması mənzil bazarında qiymət artımı anlamına gəlmir: "Bizim mənzil bazarında apardığımız müşahidələr onu göstərir ki, Azərbaycanda təklif edilən qiymətlər qalxıb. Yəni manat dəyər itirdikdən sonra öz daşınmaz əmlakını manata təklif edənlər, onu dollar və ya avroya konvertasiya edirlər. Əvvəllər mənzillərini 100 min manata təklif edənlər, indi manat dəyərdən düşdükdən sonra mənzil satışı ilə məşğul olan ofislərə zəng edərək mənzillərini ya 110 min manata, ya da 100 min avroya təklif etdiklərini bildirirlər. Mənzil sahibi öz əmlakını daha baha satmaq istəyir, bu da iqtisadi baxımdan başadüşüləndir. Ancaq onun yüksək qiymətə təklif etdiyi mənzili alan varmı? Bu gün Azərbaycanda mənzil bazarının ən ciddi qeyri-müəyyənliyi manatın dəyərdən düşməsi fonunda qiymətlərin ucuzlaşmaması deyil. Ən böyük qeyri-müəyyənlik ondan ibarətdir ki, bazarda alıcı yoxdur, ancaq qiymətlər artırılır. Bizim apardığımız monitorinqlərə görə, bazara bir il öncə çıxarılmış mənzillər var ki, hələ də satılmayıb. Əgər tələbat aşağıdırsa, alıcı yoxdursa, bu o deməkdir ki, mənzil bazarında pul dövriyyəsi kəskin azalıb. Əslində iqtisadi qanunlar manat dəyərdən düşməsə belə, tələbatın azalması səbəbindən bazarda qiymətlərin aşağı düşməsini tələb edir. Bu baxımdan deyə bilərik ki, mənzil bazarındakı qeyri-müəyyənlik uzun müddət davam etməyəcək. Alıcıların azalması fonunda biz 2015-ci ildə təklif qiymətinin artacağını, lakin real alıcılar üçün qiymətin bir qədər də ucuzlaşacağını proqnozlaşdırırıq. Real satış qiyməti artmayacaq, əksinə, təxminən 7 faizə yaxın ucuzlaşma olacaq".

**İqtisadçı ekspertin fikrincə, avtomobil bazarı ilə bağlı da eyni tendensiyanın baş verdiyini demək mümkündür:** "Avtomobil bazarında da tələbat azalıb. Artıq 2014-cü ildən avtomobilə tələbatın azalması müşahidə edilirdi. Tələbatın azalması avtomobil bazarında da qiymətlərə təsir edəcək. Ancaq avtomobilin qiyməti birbaşa idxalla bağlıdır. Daşınmaz əmlak ölkədə istehsal olunur, bu baxımdan manatın məzənnəsi ilə birbaşa əlaqəsi yoxdur. İdxal olunan avtomobilin qiyməti isə manatın məzənnəsi ilə birbaşa bağlıdır. Əgər manatın məzənnəsi aşağı düşürsə, həmin ölkələrin valyutası isə sabit qalırsa, o zaman qiymət artmalıdır. Azərbaycan bazarında ikinci əl avtomobillərə tələbatın əsas hissəsini Avropada istehsal edilmiş avtomobillər təşkil edir. Bu baxımdan Avropada son bir ildə avronun məzənnəsi 30 faiz aşağı düşüb. Yəni avronun məzənnəsi də ən az manat qədər devalvasiyaya uğrayıb. Bu isə ondan xəbər verir ki, manatın məzənnəsi azaldıqdan sonra avtomobil bazarında qiymətlər Avropa bazarları ilə müqayisədə bir il əvvəlki səviyyəyə qayıdıb. Bu baxımdan biz manatın devalvasiyasından sonra qiymət azalmaları olacağını proqnozlaşdırmırıq. Düzdür, tələbat aşağıdır və avrozonada da devalvasiya gedir. Bu il satış həcmi aşağı düşəcək. İkinci əl maşınların qiyməti sabit qalacaq, təzə maşınların satışında isə bahalaşma olacaq".

❑ Nərgiz LİFTİYEVA

---

**Manatın qəfil və kəskin ucuzlaşmasından keçən bir aya yaxın müddətdə milli valyutanın yenidən ucuzlaşa biləcəyi dəfələrlə müzakirə mövzusu olub. Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov isə uzun susqunluqdan sonra bununla bağlı açıqlama verərək, ilin sonuna qədər təkrar ucuzlaşmanın olmayacağını bildirib.**

# Hökumətin manat qorxusu - ikinci devalvasiya qaçılmazdır...

## Ekspertlərə görə, ilin sonuna kimi manat ən azı 10 faiz ucuzlaşa bilər, ümid neftin bahalaşmasınadır...



Baş bankir Milli Məclisdə, Nazirlər Kabinetinin 2014-cü ildəki fəaliyyəti ilə bağlı hesabatın müzakirəsi zamanı qeyd edib ki, köhnə məzənnə siyasəti davam etdirilsəydi, həm rəhbərlik etdiyi qurumun, həm də Dövlət Neft Fondunun valyuta ehtiyatları qurtarardı. Onun sözlərinə görə, ötən ilin ortalarından başlayaraq dünya bazarında neft 2 dəfədən çox ucuzlaşıb. Verilmiş proqnozlar isə qiymətin uzun müddət artmayacağı barədədir: "Neftin qiymətinin 50 dollar olacağı təqdirdə ölkənin xarici balansının profisiti 5 dəfə azalacaq, 40 dollar olacağı təqdirdə mənfi zonaya keçəcək. Köhnə siyasəti davam etdirsəydik, həm Mərkəzi Bankın, həm də Neft Fondunun ehtiyatları sıfırlanardı. Buna görə də bu proseslərə reaksiya verməliydik".

E.Rüstəmov vurğulayıb ki, ilin sonuna qədər manatın məzənnəsində ciddi dəyişiklik gözlənilmir.

**Ekspertlər isə təkrar devalvasiyanın olacağını proqnozlaşdırırlar. Ekspert Samir Əliyevin sözlərinə görə, manatla bağlı vəziyyət ciddidir və bunu baş bankir də təsdiqləyib:** "Mərkəzi Bankın sədri Elman Rüstəmov mətbuata açıqlamasında qeyd edib ki, bu ilin sonuna kimi manatın məzənnəsində ciddi dəyişiklik olmayacaq. Baş bankir onu da əlavə edib ki, bu məsələ daha çox neftin qiymətlərinə bağlı olan məsələdir. Onun sözlərinə görə, neftin qiyməti 40 dollar olacağı təqdirdə ticarət balansı mənfi zonaya keçəcək. Dəfələrlə AzTV ekranından əhalini manatın sabit qalacağına əmin edən dövlət rəsmisinin dünənki açıqlaması əhali tərəfindən birmənalı qarşılana bilməzdi. Bu da təbiidir. Çünki illərlə qazanılan etimadı bir andaca itirmək olar. Sözün məsuliyyəti bizə olan inamın qarantıdır. Hər hansı dövlət rəsmisinə inamsızlıq ümumilikdə hökumətə olan inamsızlığa rəvac verir. Nəticədə zərbə əhaliyə dəydi. Manat və bank sistemi isə illərlə yığdığı etimadı itirdi".

**Ekspert qeyd edib ki, Elman Rüstəmovun açıqlamasından əhalinin yenidən sakitləşdirilməsi və hətta manatın məzənnəsinin ilin sonuna kimi dəyişməyəcəyi mesajını verməsi təəssüratı yaranırdı:** "Bu, ilk baxışdan belədir. Mərkəzi Bank rəhbəri əvvəlki açıqlamalarından fərqli olaraq bu dəfə xeyli açıq danışdı. Və bu açıqlamada 2 əsas məqamı diqqətinizə çatdırmaq istəyirəm. Birinci məqam ondan ibarətdir ki, Elman Rüstəmov manatın taleyini daha çox neftin qiymətlərinə bağlı olan məsələ olduğunu etiraf edib. Hətta qeyd edib ki, neftin qiyməti 40 dollar olacağı təqdirdə, ölkənin xarici balansı mənfi zonaya keçəcək. Bununla demək istəyib ki, artıq heç bir siyasi iradə manatın sabitliyi üçün qarant deyil və neft 40 dollara qədər ucuzlaşsa, ikinci devalvasiya qaçılmazdır. İkinci məqam isə manatın məzənnəsində ciddi dəyişikliyin olmaması fikridir. Elman Rüstəmov cəmiyyətə çatdırmaq istəyir ki, söhbət ciddi dəyişikliyin olmamasından gedir, sabit qalmasından yox. Yəni mesaj ondan ibarətdir ki, manatın yumşaq ucuzlaşması prosesi baş verə bilər və bu ciddi dəyişiklik kimi qiymətləndirilməməlidir".

**Ekspertin sözlərinə görə, ikinci devalvasiya da qaçılmazdır:** "Devalvasiyadan sonra fevralın 24-də açıqlamamızda manatın gələcəyi ilə bağlı fikrimizi bildirmişdik və bir daha xatırlatmaq istərdik: Bundan sonra manatın taleyi necə olacaq? Son sözü neftin qiyməti deyəcək. Neft bahalaşsa, yəni 70 dollardan yuxarı çıxsa, sabitlik yaranacaq. Hətta müəyyən qədər möhkəmlənmə də mümkündür. Ancaq indiki səviyyədə manatın yumşaq ucuzlaşması davam edəcək. İlin sonuna kimi manat ən azı 10 faiz ucuzlaşacaq. Böyük ehtimalla, dollar 1,2 manata qədər bahalaşacaq. Neft 40 dollar həddinə yaxınlaşsa, manatı ikinci devalvasiya təhlükəsi gözləyir".

❑ Röya RƏFİYEVA

---

# Yeni ipoteka təklifi - tikinti sektoruna dəstək?

## Ekspertlərə görə, hazırda mövcud olan dövlət ipoteka proqramının iqtisadi səmərəsi azdır, yeni təklifdən sonra ipoteka proqramı üzrə ayrılan pullar iqtisadiyyatın real sektoruna yönəldiləcək...



**İpoteka kreditləşməsi məsələsini Mərkəzi Bankın rəhbəri bir daha gündəmə gətirib. Baş bankir Elman Rüstəmov bildirib ki, həm kommersiya, həm də sosial ipotekanın məbləği artırıla bilər: "Biz hökumətlə birlikdə iqtisadiyyatın əlavə maliyyələşdirilməsi, ucuz maliyyə vəsaitlərinin verilməsini düşünürük". E.Rüstəmov bildirib ki, bunlardan ən önəmlisi ipoteka hesab olunur:**

"Məsləhətləşmə və fikir birliyi artıq var. Birincisi, biz ipotekaya verilən vəsaiti, ümumi vəsaiti əhəmiyyətli dərəcədə, dəfələrlə qaldırmaq fikrindəyik. Bunun mənbəyini müəyyənləşdirmişik. İkincisi, ipoteka məbləğini- həm kommersiya, həm də sosial ipotekanın məbləğini əhəmiyyətli dərəcədə artırmaq istəyirik. Üçüncüsü, başlıca məqsəd ipotekada iqtisadi aktivliyi canlandırmaqdır. Yəni bu vəsaitlərin yeni tikintiyə yönəldilməsi istiqamətində vəsaitlərin artırılması buna imkan yaradacaq. Əlaqədar qurumlarla yeni tikintidə alınan mənzillərin özlərinin bilavasitə ipotekaya girov kimi qoyulması məsələsini həll etmək lazımdır. Çünki biz bilirik ki, əhali bununla bağlı çox əziyyət çəkir. Kimsə qohumuna, qonşusuna, yaxınlarına müraciət edib, onların evlərini girov qoymaq istəyir. Burada problemlərin olduğunu bilirik. Dünya praktikasında olan təcrübəyə əsaslanaraq biz ilkin qeydiyyata keçəcəyik".

**Mərkəzi Bank rəhbəri sosial tikintinin ipoteka mexanizmi vasitəsilə maliyyələşdirilməsi üzərində də düşündüklərini vurğulayıb. Bununla yanaşı, Mərkəzi Bank ipotekanın regionlarda geniş tətbiqi niyyətindədir.** "Regionlarda çalışan sosial dairənin, hökumətin müəyyənləşdirdiyi təbəqə- müəllimlərin, həkimlərin və digər gənc ailələrin ipoteka ilə təmin olunması mexanizmini də yaratmaq fikrindəyik",- deyə E.Rüstəmov vurğulayıb.

**Ekspertlər isə bildirirlər ki, nəticədə ipoteka proqramı üzrə ayrılan pullar iqtisadiyyatın real sektoruna yönəldiləcək. "Value and Sources" konsaltinq şirkətinin rəhbəri Rəşad Əliyevin sözlərinə görə, hazırda mövcud olan dövlət ipoteka proqramının iqtisadi səmərəsi azdır:** "İpoteka sahəsində mühüm dəyişikliklər haqda rəsmi açıqlama verildi. Belə ki, Milli Məclisdə Nazirlər Kabinetinin 2014-cü ildəki fəaliyyəti ilə bağlı hesabatın müzakirəsi zamanı Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin sədri Elman Rüstəmov ipoteka vəsaitlərinin yeni tikintiyə yönəldilməsi istiqamətində vəsaitlərin artırılması haqda məlumat verdi. Əlaqədar qurumlarla yeni tikintidə alınan mənzillərin özlərinin bilavasitə ipotekaya girov kimi qoyulması məsələsinin həll edilməsinin zəruriliyi haqda danışdı. Məsələnin rəsmi səviyyədə gündəmə gətirilməsi müsbət tendensiyadır. Hazırda mövcud olan dövlət ipoteka proqramının iqtisadi səmərəsi azdır. Çünki həmin vəsaitlər hazırda əsasən təkrar bazardakı mənzil alışına yönəldilir. İqtisadi səmərəsinin olmaması ilə yanaşı, proqram daşınmaz əmlak bazarında ekonom sinfinə, yəni dəyəri ucuz mənzillər sinfinə aid mənzillərə tələbatı artıraraq onların qiymətlərinin artımına səbəb olurdu. Bu proses ilkin bazara çox cüzi müsbət təsir göstərirdi. İqtisadi cəhətdən səmərəsi az olmasına baxmayaraq, mövcud proqram sosial yönümlüdür və məqsədi ev almaq üçün maddi imkanı az olan ailələrə kömək etməkdir".

**Ekspertin sözlərinə görə, ipoteka proqramının daha çox ilkin bazara yönəldilməsi mənzillərin birbaşa tikinti şirkətlərindən alınmasına və tikinti sektoruna hazırkı dövrdə əlavə dəstək verə bilər:** "Belə olan halda, ipoteka proqramı üzrə ayrılan pullar iqtisadiyyatın real sektoruna yönəldiləcək. Real sektor isə iş yerləri, vergi ödəmələri və iqtisadi inkişafın mənbəyidir. Əlavə etmək istərdik ki, dövlət tərəfindən ipoteka proqramı çərçivəsində ilkin bazara, yəni yeni tikililərin alınmasına yönəldilən vəsaitlərin ən azı 20 faizi dövlət büdcəsinə vergi ödəmələri şəklində qayıdacaq".

❑ Röya RƏFİYEVA

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



Yeni Müsavat

N 61 (6089) 19 mart 2015

**"Avronest"in İrəvanda keçirilən plenar iclasında çıxış edən Ermənistan prezidenti Serj Sərkisyan Qarabağ məsələsində erməni tərəfinin maksimalist mövqeyini təkrarən dilə gətirib - bu dəfə Avropa Birliyinin Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində İrəvana gəlmiş 5 ölkənin (6-cı ölkə - Azərbaycan qatılmayıb) deputatlarına. Sərkisyan bildirib ki, "Avropa və dünya dəyərləri əsasında xalqların öz müqəddəratını müəyyən etməsinin alternativi yoxdur" və bu üzdən "Dağlıq Qarabağ xalqı"na da eyni hüquq tanınmalıdır.**



# Sərkisyan və dəstəsindən yeni müharibə ritorikası



Serj Sərkisyan

## Düşmən ölkə sülhdən imtina edir, Ermənistan rəhbərliyi separatçı qurumun "müstəqilliyi"ni tanımağa alternativ görmürsə, Azərbaycanın savaşa əl atmaqdan başqa yolu qalmır; "Avronest"in İrəvan toplantısındakı bəyanatlara Bakıdan sərt reaksiya gəldi...

İrəvan artıq 20 ildən çoxdur ki, dünyaya eyni nağılı danışır. Bununla da faktiki sülh danışıqlarını sabotaj edir. Çünki məntiqlə separatçı qurumun "müstəqilliyini" tanımaqdan savayı alternativ yoxdursa, qalmayıbsa, o zaman Minsk Qrupu formatında tərəflər nəyi müzakirə edir? Ümumiyyətlə, belə danışıqlara lüzum qalırmı? Ən önəmlisi, bu elə Azərbaycanı hərbi yola təhrik eləmək, ona ərazi bütövlüyünü bərpa eləmək üçün ayrı yol saxlamamaq anlamına gəlmirmi? O halda nədən Ermənistan rəsmiləri Bakının sürətlə silahlanması haqda haray-həşir salır, "qoymayın, Azərbaycan müharibəyə hazırlaşır" bəyanatları verirlər?

*****

Sərkisyandan öncə çıxış edən Ermənistanın xarici işlər naziri Edvar Nalbəndyan Azərbaycanı regionda "sülhə mane olan əsas ölkə" adlandırıb. Öz qonşusunun 20%-lik ərazisini 22 ildir işğal altında saxlayan, bir qarış ərazimizi belə geri verməyən tərəf Ermənistan ola-ola, sülh prosesini illərlə tormozlayan yenə də İrəvan ola-ola *(bundan ötrü hətta 1999-cu ildə Ermənistan parlamenti güllləbaran da edilib)*, beləcə, işğala məruz qalan Azərbaycan günahkar çıxarılır.

Gərək nə qədər riyakar, adi məntiqdən uzaq olub vicdan hissini itirəsən ki, bu cür həyasız iddialarda bulunasan. Adama deyərlər ki, müharibədən belə qorxursunuzsa, belə sülh arzusundasınızsa, onda heç olmasa işğal elədiyiniz bircə rayondan çıxın. Dünya da görsün ki, siz həqiqətən bölgədə qonşularla barışa can atırsınız. Amma yox...

*****

Yeri gəlmişkən, bu həmin Ermənistandır ki, bir il öncə Krım Rusiya tərəfindən beynəlxalq hüquq normalarına məhəl qoyulmadan ilhaq edilləndə onun prezidenti Serj Sərkisyan nümayişkaranə şəkildə Vladimir Putinə zəng vuraraq Rusiyanı təbrik etmiş, işğala haqq qazandırmışdı. Az sonra BMT Baş Məclisində (27 mart 2014-cü il) tarixi səsvermə zamanı da Ermənistan digər 10 izqoy dövlət kimi bir daha Rusiyanın yanında yer alaraq, Ukraynanın ərazi bütövlüyünün əleyhinə səs verdi.

İşğalçının işğalçını dəstəkləməsi, onun yanında dayanması... Təcavüzkar Ermənistana müttəfiqi Rusiya kimi beynəlxalq sanksiyalar tətbiq eləmək üçün bundan gözəl əsas, bundan sanballı motiv ola bilərmi? Qərbə - ABŞ-a, Avropaya *(Avropa Birliyi, Avropa Şurası, ATƏT, Avropa Parlamenti)* daha nə, hansı faktlar lazımdır? Hələ biz BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair 4 məlum qətnaməsindən (822, 853, 874, 884) danışmırıq...

*****

Maraqlıdır, görəsən, konkret olaraq ATƏT-in Minsk Qrupu həmsədrləri İrəvan rəsmilərinin sülh prosesinə olan-qalan inamı da sarsıdan bu kimi aqressiv, sabotaj xarakterli və nizamlama prosesinin əhəmiyyətini sıfra endirən bəyanatlarına niyə reaksiya vermirlər?

İş də ondadır ki, düşmən ölkə təmsilçilərinin sülh qoxusu gəlməyən belə açıqlamalara cürətlənməsini müstəsna olaraq vasitəçi dövlətlərin Ermənistana loyal münasibəti, işğalçını və ona yerini barmaqla göstərmək istəməməsi şərtləndirir. Rusiyanın nədən bu mövqedə olduğu bəllidir. Əfsuslar olsun ki, Krım böhranından sonra da Qərbin təcavüzkar qonşumuza yanaşması dəyişmədi, sərtləşmədi, Rusiya kimi ona da beynəlxalq hüquq normalarının bütün "dolağı" tətbiq olunmadı. İkili, üçlü standartlar da elə budur - nə barədə ki, Azərbaycan prezidenti sonuncu beynəlxalq Münhen Təhlükəsizlik Konfransında, bir daha, bu dəfə çılpaqlığı ilə danışıb...

*****

Qayıdaq erməni xalqının ikinci dəfə öz müqəddəratını təyinetmə iddialarına. Əlbəttə ki, Ermənistandakı etnik təmizlənmənin ardınca Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu (!) da barbarcasına azərbaycanlılardan təmizləyib sonra öz müqəddəratını təyinetmədən dəm vurmaq asandır. Görəsən, indiki Ermənistan ərazisində kompakt şəkildə yaşamış, sayca Dağlıq Qarabağ əhalisindən bir neçə dəfə çox olan azərbaycanlılar hələ də öz ata-baba yurdlarında yaşasaydılar, sərkisyanlar, nalbəndyanlar, sa-




akyanlar öz müqəddəratından danışa bilərdilərmi?

Bir daha vurğulamaq lazım gəlir ki, Sərkisyan və Nalbəndyanın son açıqlamaları Azərbaycana öz torpaqlarını hərb yolu ilə azad eləməkdən savayı yol qoymur.

*****

**"Ermənistan rəhbərliyinə xatırlatmaq istərdik ki, mahiyyətinə varmadan onun tərəfindən iddia edilən bu dəyərlərdə qanlı etnik təmizləmə, işğal və təcavüzün törədilməsi nəzərdə tutulmur"**. Bu barədə Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev "Avronest"in İrəvandakı iclasında Ermənistan prezidentinin söylədiklərini şərh edərkən bildirib.

Hikmət Hacıyev qeyd edib ki, Minsk Qrupunun həmsədrləri tərəfindən də dəstəkləndiyi kimi, Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxarıldıqdan sonra Azərbaycanın sərhədləri daxilində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icması öz müqəddəratını müəyyən edə bilər: **"Münaqişənin kompleks həllinin yeganə yolu yalnız bundan ibarətdir. Bundan kənar münaqişənin həllini düşünmək xülya və obyektiv reallıqdan tamamilə uzaqdır".**

XİN mətbuat xidmətinin rəhbərinin sözlərinə görə, sülhdən danışan və Minsk Qrupunun fəaliyyətini öz başa düşdüyü kimi təfsir edən Ermənistan rəhbərliyi Minsk Qrupunun israrlı çağırışlarına baxmayaraq, ölkəsinin müxtəlif bəhanələrlə böyük sülh sazişi üzərində işə başlamaqdan yayındığına aydınlıq gətirməsi daha məqsədəuyğun olardı.

**"Ermənistan tərəfi, nəhayət, bu reallıqla hesablaşmalıdır ki, işğal və təcavüz nəticəsində yaranmış status kvonun "fait accompli" prinsipi əsasında münaqişənin həlli kimi təqdim edilməsi beynəlxalq ictimaiyyət tərəfindən heç vaxt qəbul edilə bilməz"**, - deyə Hikmət Hacıyev qeyd edib.

*****

Ermənistanın sülhdən imtinası barədə Azərbaycanın xarici işlər naziri də danışıb. **"İrəvan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması çərçivəsində böyük sülh sazişi üzərində iş üçün işçi qrupun yaradılmasından imtina edir"**. Bu barədə XİN başçısı dünən Sudanın xarici işlər naziri ilə görüşündən sonra jurnalistlərə açıqlamasında deyib.

Nazir vurğulayıb ki, Ermənistanın təcavüzkar ritorikası bu məsələdə nikbin olmağa imkan vermir. Onun sözləfrinə görə, həmsədrlərin sonuncu səfəri zamanı tərəflərə kommunikasiyalar və məcburi köçkünlərlə bağlı işçi qrupunun yaradılması təklif olunub, amma İrəvan bu təklifi rədd edib.

## Əhməd Davudoğlundan mühüm Qarabağ açıqlaması

### "İnşallah, Qarabağ azad ediləndən sonra da bu cür təntənəli mərasim keçirəcəyik..."



Əhməd Davudoğlu

**"Azərbaycan bizim canımızdır, canımız Azərbaycana qurban olsun". Bu sözləri Çanaqqala zəfərinin 100-cü ildönümünə həsr olunmuş rəsmi mərasimdə APA müxbirinin "Azərbaycana hansı mesajı vermək istərdiniz" sualına cavabında Türkiyənin baş naziri Əhməd Davudoğlu deyib.**

Ə.Davudoğlu əlavə edib ki, belə tədbirlərdə hər iki ölkə hər zaman bir yerdə olmalıdır: "İnşallah, Qarabağ azad ediləndən sonra da bu cür təntənəli mərasim keçirəcəyik".

Türkiyə baş nazirinin bu mövqeyi uydurma erməni soyqırımı iddialarının 100 illiyi ərəfəsində işğalçı Ermənistanın sərtləşən Qarabağ ritorikası fonunda ikiqat önəm daşıyır. Bu, həm də o anlama gəlir ki, uydurma məsələdən dolayı hər hansı təzyiqlərə rəğmən, qardaş ölkə təcavüzkar Ermənistana hansısa güzəştə getməyə hazırlaşmır.

Söhbət həm də Ermənistan-Türkiyə sərhədlərinin açılmasından gedir. Artıq söyləmək olar ki, işğalçı ölkənin Qarabağ məsələsində real güzəşti olmada belə bir hadisə baş verməyəcək.

Xatırladaq ki, Türkiyədə I Dünya müharibəsi zamanı baş vermiş Çanaqqala savaşında qələbənin 100-cü ildönümü qeyd edilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# "Söyüşcül Katyanın döyülməsi" nağılı

Samir SARI

**Oxucularda dönə-dönə üzr istəyərək söhbətə bir lətifə ilə başlamaq istəyirəm. Çünki yaranmış durumu məhz bu lətifə dürüst izah edir. Bu mövzuda ciddi-ciddi analiz və publisistik yazıdansa, bu yaxşıdır.**

Məzəli söhbətləri ilə ölkədə məşhur olan kaman ustası Habil Əliyevin adına çıxılmış lətifə belədir: Bir gün qonşusu pəjmürdə halda Habil müəllimə yaxınlaşır, deyir, sənətkar, biabır olmuşam. Habil müəllim soruşur ki, niyə, nə olub. Qonşu deyir, heç, dünən xanımla gündüz vaxtı evdə eşq-məşq söhbəti edərkən bir də baxdım ki, pəncərənin pərdəsi çəkilidir və üzbəüzdəki qonşu bizi görür, indi o, mənə bir söz desə, yerin dibinə girəcəm.

Usta kamançaçı ona təsəlli verir: "Qorxusu yoxdur, o adam sənə bir söz desə, deyərsən, arvadım yanındakı kişi mən deyildim".

Xəzər Universitetinin rektoru, ağsaqqal ziyalı Hamlet İsaxanlının "gecə bardan çıxanda döyülən qız mənim qızım olmayıb, Katya olub" deyə açıqlama verməsi, adamın yadına o lətifəni salır.

Əlbəttə, yəqin ki, Habil Əliyevin "suç üstü" yaxalanmış qonşusu onu görən kişiyə "mən deyildim" izahatı verərək, özünü daha da biabırçı vəziyyətə salmayıb. Amma Hamlet müəllim belə bir açıqlama verib, verməli olub, özünü buna məcbur hiss edib.

Bu, psixoloji məqamdır. Deyəcəklər, başına gəlməyən bilməz. Düzdür. Allah heç kəsin başına gətirməsin. Zatən, Allah şəxsən heç kəsi bu cür rəzil durumlara salmır, insan öz-özünü belə günə qoyur.

Atanı başa düşmək olar, o övladının reputasiyasını xilas etmək istəyir. Bu motivlə hər şeyə hazırdır. Ancaq ortada bu qədər təkzibedilməz faktlar, ifadələr, etiraflar, videogörüntülər varsa, nəyi, necə, hansı əsasla təkzib etmək olar?

Ən yaxşısı susmaq, heç bir açıqlama verməmək idi.

Bu mövzu ilə ilgilənən "n" qədər adam "Söyüşcül Katyanın döyülməsi nağılı"na inanmır, daha pisi, gülürlər. Belə çıxır ki, Zaur və Elin qardaşları Katyaya görə yaxalanıblar. Bəs Yekaterina özü hardadır? Hüquq-mühafizə orqanlarının əməliyyatçıları bu qədərmi qeyri-peşəkardırlar ki, Katyanı tapıb üzə çıxarmayıblar?

Təbii ki, bu, suda boğulanın saman çöpündən yapışması kimi bir şeydir və bir nümunəvi universitetin parlaq zəka sahibi olan rektoruna yaraşmır.

Onu da qeyd edək ki, biz belə hadisələri - hansısa bir olayın, faktın qızıl-qırmızı danılmasını, təkzib edilməsini çox görmüşük. Belə şeylər xaricdə də çox olur.

Məsələn, 5-6 il əvvəl Hondurasda bir nazirin oğlu qəfəsdə gördüyü ayıya tamah salmış, bişirtdirib yemişdi. Bu barədə Honduras qəzetləri gen-bol yazdı, amma nazir oğlu yediyi ayının sümüklərini meşədən toplatdırıb basdırandan sonra ortaya çıxb faktı təkzib etdi, dedi: "Eater lleva la maldicion de su padre". *(Yəni ayı yeyənin atasına lənət).* Belə olanda Honduras mediası razılaşmadı, bu cür başlıqlar verdilər: "Coma el hijo del Ministro niega el mes" *(Yəni "Ayı yeyən nazir oğlu təkzib edir").*

Məsələ bununla da bitmədi, nazir oğlu məhkəməyə müraciət edib qəzetləri cərimələtdirdi. Hər qəzet nazir oğluna 5 min lempira (HML) cərimə ödədi. Amma bir-iki ildən sonra onların yalanlarının üstü açıldı, naziri çıxarıb bayıra atdılar, oğlunu da tutub qəfəsə saldılar.

Amma uzağa getməyək, öz ölkəmizdə nəyisə boynuna alan, "bəli, belə bir şey olub" deyən görmüsünüzmü? Ola bilməz. Bizdə təsdiq söhbəti yoxdur. Bir-birinə güllə atan nazirlər tapançanı ciblərində gizlətdikdən sonra mətbuat konfransı keçirir, deyirlər: "Xeyr, haqqımızda deyilənlər yalandır, qardaş kimiyik, aramızda münaqişə olduğu barədə xəbərləri oxuyub, zəngləşir, birlikdə gülürük".

Bu ölkədə rüşvətxorluğa görə 10 il yatan adam türmədən çıxır və rüşvətə görə tutulduğunu təkzib edir, at kimi üzə durur, bu faktı yazanları məhkəməyə verir. Ömürlük iş alan adam vardı, qəzetimizə təkzib məktubu göndərmişdi, yazırdı ki, sizin müxbir hansı haqla "ola bilər ki, o, nazir işlədiyi vaxt müəyyən səhlənkarlığa yol verib" yazıb, dərhal düzəliş verin.

Ona görə də hörmətli ziyalının qızının reputasiyasını xilas etmək üçün saman çöpünə əl atması başa düşüləndir.

Habil müəllimin qonşusu utancaq adammış, əslində o da ustad sənətkarla məsləhətləşmədən başına gələn işi təkzib edə bilərdi.

# "Həbslərin əsas səbəbi terror təhdidləridir"

## Arzu Nağıyev: "Sərhədyanı bölgələrdə əməliyyat şəraitinə nəzarət gücləndirilməlidir"



Arzu Nağıyev

**"Dini baxımdan təhdidlərin qarşısı nə qədər alınsa da, xarici və maraqlı olan daxili qüvvələrin təsiri ilə bitmək bilmir"**

**Son həftələrdə hüquq-mühafizə orqanları Azərbaycanda bir sıra həbslər həyata keçirib. Bu ayın əvvəlində Qəbələdə, daha sonra Tərtərdə radikal dini qrupların üzvü olmaqda günahlandırılan şəxslər həbs olunub. Son olaraq isə Bakıda bir neçə dindarın həbs olunması haqda məlumat yayılıb.**

İlahiyyatçı, "Təkamül" Tərcümə Mərkəzinin rəhbəri Ceyhun Cəfərov martın 10-da həbs olunub, ötən gün məlum olub ki, Bakıda daha bir ilahiyyatçı, Mübariz Qarayev fevralın sonlarında bir neçə dindarla birlikdə saxlanılıb. Bu barədə "Forum 18" təşkilatı məlumat yayıb. Məlumatda qeyd olunur ki, M.Qarayev və digər dindarlar - Həbibulla Ömərov, Səlim (familiyası məlum deyil) və Eyvaz (familiyası məlum deyil) fevralın 24-də yenidən MTN-ə çağırılaraq həbs olunub. Fevralın 26-da Səbayel Rayon Məhkəməsi saxlanılanların barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçib. Hazırda onlar MTN-in təcridxanasında saxlanılır. Daha bir radikal dindar - Azad Qafarov isə fevralın 26-da MTN-ə çağırılıb. Fevralın 28-də Səbayel Rayon Məhkəməsi onun da barəsində həbs-qətimkan tədbiri seçib.

Saxlanılanlardan Ömərov və Qafarov Cinayət Məcəlləsinin 167-2.2.1 maddəsi (qadağan olunmuş dini ədəbiyyat yaymaq), M.Qarayev, Səlim və Eyvaz isə 167-2.1 maddəsi ilə ittiham olunurlar. Göründüyü kimi, həbs maddəsi radikal qrupların döyüşlərə cəlb olunması deyil, qanunsuz ədəbiyyatın yayılmasıdır.

Sonuncu həbs olunan qrup İçərişəhər Aşurbəy - Ləzgi məscidinin camaatındandır. İlahiyyatçı Mübariz Qarayev isə məscidin imamı olub. Qeyd edək ki, bir il öncə QMİ rəsmiləri bu məscidi radikalizmi təbliğ etməkdə ittiham edib. Lakin nə o zaman, nə də sonradan məscid icmasına qarşı hər hansı təzyiq olmayıb. İndi isə göründüyü kimi, məscidin imamı qanunsuz ədəbiyyatın yayılması maddəsi ilə ittiham olunaraq saxlanılıb. Ləzgi məscidi icmasının rəhbəri Faiq Mustafa AzadlıqRadiosuna bildirib ki, imam-camaat M.Qarayev "Namaz təlimi" adlı kitabçanın qanunsuz yayımına görə həbs olunub.

Son zamanlar dindarların həbs olunması hallarının artması onu deməyə əsas verir ki, hökumət orqanları məhz bu istiqamətdən gözlənilən hansısa təhlükəni neytrallaşdırmağa çalışırlar. Azərbaycanda ötən ilin əvvəlindən Suriyaya döyüşlərə gedən dindarlarla bağlı həyəcan təbili çalınmağa başlayıb, bir sıra həbslər həyata keçirilib. Bir sıra müşahidəçilərə hakimiyyət orqanları Suriya və İraqda savaşdan qayıdanların yarada biləcəyi təhlükənin, eləcə də Avropa Oyunları ərəfəsində ölkədə sabitliyin pozulacağı ilə bağlı təhlükəni neytrallaşdırmaq üçün bu cür həbslərin sayını artırıb. Çünki 2012-ci ildə də hər hansı açıq təhdid olmasa da, sonradan məlum oldu ki, radikal qrupların saytlarında Azərbaycan hakimiyyətinə qarşı savaş çağırışları olub və hətta bir neçə terror hücumu da qeydə alınıb.

**"Trend" agentliyinin direktor müavini, sabiq təhlükəsizlik xidməti əməkdaşı Arzu Nağıyevin fikrincə, bu cür həbslərin əsas səbəblərindən biri Azərbaycana qarşı terror təhdidinin olmasıdır. Digər tərəfdən, ekspertə görə, hüquq-mühafizə orqanları terror təhlükəsini neytrallaşdırmaq üçün bu cür həbslər həyata keçirə bilər:** "Bu gün baş verən proseslərə nəzər salanda görünür ki, Azərbaycana qarşı təhdidlər səngimir. Bu təhdidlərin başlıcası isə məhz radikal dini qrupların təhdidləridir. Məhz buna görə də hüquq-mühafizə orqanlarının keçirdikləri əməliyyatlar da zərurilikdən baş verir. Çünki dini baxımdan təhdidlərin qarşısı nə qədər alınsa da xarici və maraqlı olan daxili qüvvələrin təsiri ilə bitmək bilmir. Beynəlxalq miqyaslı tədbir olan, Avropa Oyunları ərəfəsində də ən başlıca faktorlardan biri radikal dini qurumların və digər cinayətkar dəstələrin atdıqları və ata biləcəkləri addımların ilkin mərhələsində aşkarlanması, xəbərdar edilməsi və törədə bilinəcək cinayətin qarşısının alınmasıdır. Bu məsələ ən mühüm vəzifə kimi cavabdeh qurumların qarşısında durur".

**A.Nağıyev deyir ki, Yaxın Şərqdə baş verən proseslərin Azərbaycanın yerləşdiyi bölgəyə də təsiri var və proseslərin bizim regiona sıçraması təhlükəsi olduğu üçün təhlükəsizlik orqanları bu cür addımlara əl atır:** "Bilirsiniz, cinayət hadisələri və onların törədilmə vaxtları fəsillərə, aylara və ya illərə bölünmür. Düzdür, əsasən yaz aylarında Rusiyada, daha doğrusu, Şimali Qafqazda, Orta Asiyada dini -radikal qrupların aktivliyi nəzərəçarpacaq dərəcədə artır. Bu da iqlim və digər şəraitlə, təbii faktorlarla da bağlıdır. Daha dəqiq desək, dağlarda və meşələrdə döyüş şəraitinin bir cür, səhra və quru şəraitdə başqa cür uyğun olduğu nəzərə alınır. Məhz buna görə də Azərbaycanın bu ərazilərlə həmsərhəd olan şimal bölgələrimizdə, istərsə də cənubda əməliyyat şəraitinə nəzarət daha da güclənməlidir və bu istiqamətdə də müvafiq işlər aparılır. Əgər fikir versəniz, Tərtərin döyüş bölgəsinə yaxınlığı, şimal regionlarımızın, Qəbələnin və digər rayonların Dağıstan və Şimali Qafqazla həmsərhəd olduğu nəzərə çarpır. Bunlar hamısı faktorlardır, istər silah və sursat əldə etmək, istərsə də qapalı həyat tərzi keçirmək və müəyyən hazırlıq işləri, o cümlədən cəlbetmə proseslərini həyata keçirmək üçün atılan addımlardır".

**Ekspert deyir ki, hazırda situasiya təhlükəli olmasa da, təhlükəsizlik orqanları gözlənilməz təhlükələrə qarşı qabaqlayıcı tədbirlər həyata keçirir:** "Bu əməliyyatların keçirilməsi istər profilaktik cəhətdən, istərsə də cinayətkarlığı azaltmaq cəhətdən labüddür və bu cür əməliyyat-axtarış fəaliyyətləri plana uyğun şəkildə keçirilə bilər və keçirilməsi vacibdir. Yəni bu gün Azərbaycanda kriminogen durum o dərəcədə kritik və ya ciddi şəkil almayıb. Lakin şəraitə nəzarəti bir an belə zəiflətmək düzgün olmazdı. Bir sözlə, hüquq-mühafizə orqanlarının son əməliyyatları da ancaq təqdirəlayiq hal kimi qiymətləndirilməlidir".

❑ KƏNAN

# Putinin atalıq məzuniyyətinə çıxmaq hüququ varmış...

## Qanunlar yenicə ata olan kişiyə hansı güzəştləri tanıyır?

**Ötən həftə ərzində ölkə, eləcə də dünya mediası "itkin düşmüş" Rusiya prezidentindən yazdı. Amma ən ilginc versiya İsveç mətbuatından gəldi ki, Putin gimnast Alina Kabayevadan dünyaya gələn üçüncü övladının yanında olmaq üçün sözügedən ölkədə olub. Bunu yalanlamaq üçün Rusiya mətbuatı V.Putinin daha öncədən çəkilmiş fotoları, görüşlərini yeni kimi cəmiyyətə təqdim etsə də, cəmiyyət əsasən "çiçəyi burnunda ata" versiyasına inandı. Və müzakirələr də daha çox yarızarafat-yarıgerçək bu mövzu üzərində aparıldı.**



Putinin atalıq məzuniyyətinə çıxmaq hüququ varmı? Dünya ölkələri üçün belə bir təcrübə varmı? Varsa, neçə gündür, nə vaxta qədər uzana bilər?

Öncə Skandinaviya ölkələrindən, konkret olaraq isə Norveçdən başlayaq. Norveçdə təzə ata-ana olanlar maaşlarının 80 faizini alaraq ümumən 59 həftə doğum icazəsindən istifadə edə bilir. Özü də edə bilər yox, etməlidir. 2013-cü ilin 1 iyul tarixindən qüvvəyə minən qanun nəticəsində daha öncə 47 həftə olan doğum icazəsi 49 həftəyə qədər artırılıb. Maaşların 80 faizinin ödənilməsi şərtilə istifadə edilə biləcək doğum icazəsi isə 57 həftədən 59-a qədər artıb. Amma bu dəyişikliklərdə icazənin 14 həftəsinin ata tərəfindən istifadəsi şərt qoyulub. Əgər ata bu icazədən tam istifadə etməsə, hökumət uşaq yardımını azaldır.

İsveçdə də vəziyyət bundan fərqli deyil. Bu ölkədə ataların iki ay məcburi doğum icazəsi var. Arzu edənlər 240 günə qədər məvaciblərinin saxlanması şərti ilə icazəsindən istifadə edə bilər. Maraqlıdır ki, doğum icazəsindən istifadə etməyən ataların uşaqları dövlətdən bizim uşaq pulu adlandırdığımız yardımı ala bilmir. Ölkə hazırda məcburi icazə müddətinin 3 aya çıxarılması məsələsini müzakirə edir.

Orta Avropa ölkələrində dünyanın ən uzun analıq-doğum icazə müddətləri var. Keçmiş Çexoslovakiya, yeni Çex Cümhuriyyəti və Slovakiyada (eyni zamanda Avstraliyada) analıq icazəsi ödənişli olaraq 3 ildir və qadının öz uşağını yetişdirməsi üçün 3 il evində oturması, işləməməsi əsasdır. Hətta analar əvəzinə atalar da bu icazədən istifadə edib, uşaqlarına baxa, aylıq məvaciblərini də işləmədikləri halda onlara ödənə bilər. Qadın istərsə, bu məbləği daha da azaltmaq şərtilə icazə müddətini 4 ilə qədər artıra bilər. Əgər uşaq problemli dünyaya gəlibsə, 3 illik müddət 6 ilə qədər də artırıla bilər.

Estoniyada isə vəziyyət daha yaxşıdır. Burada doğuşdan 70 gün öncəni də nəzərə almaqla 18 ay analıq icazəsi verilir və bu müddətdə qadınlar məvaciblərini də alırlar. Burada atalar üçün də doğumdan sonrakı 3-cü ayda başlamaq üzrə ödənişli icazə haqqı var.

Dünyanın inkişaf etmiş digər ölkələrində mənzərə isə nisbətən fərqlidir. Yəni hər ölkənin bir təklifi var və ona uyğun qayda-qanunları.

İngiltərədə 52 həftə olan analıq məzuniyyətində icazənin ilk həftə məbləğinin 90 faizi anaya ödənir, sonrakı həftələrdə həftəlik 130 ingilis sterlinqi ödəmə həyata keçirilir. Qanuna edilən son dəyişiklikdən sonra isə 2015-ci ildən etibarən bu icazədən istər ana, istərsə də ata istifadə edə biləcək.

Amerikada orta hesabla 10-12 həftə, Afrikada 10 həftə, Asiya ölkələrində də orta hesabla 8-10 həftə arasında dəyişməkdədir.

Almaniyada valideynlərə verilən ödənişli doğum icazəsi 14 həftədir. Burada dövlət valideynlərə təxminən 1.800 avro maaş ödəyir. Ödənişsiz icazə müddəti isə həm ana, həm də ata üçün uşaq 3 yaşına çatana qədər uzadıla bilir.

Avropanın daha bir ölkəsi Fransada 16 həftə olan ödənişli doğum icazəsi, üçüncü uşaqdan sonra 26 həftəyə qədər uzana bilir. Ödənişsiz icazə söhbəti gündəmə gələrsə, bu halda ata-anaya bu icazədən necə istifadə edəcəkləri ilə bağlı variantlar təqdim olunur. Valideynlər öz aralarında razılaşaraq, icazə müddətini 104 həftəyə qədər uzadır.

Rusiyada isə atalıq məzuniyyətinin müddəti iki həftədir.

Azərbaycana gəlincə, hələ 2009-cu ildə Milli Məclisin Sosial siyasət üzrə daimi komitəsi Əmək Məcəlləsinə dəyişiklikləri nəzərdə tutan qanun layihəsini ictimai müzakirəyə çıxarmışdı. «Hamiləliyə və doğuşa görə məzuniyyətlər»i nəzərdə tutan düzəlişdə qeyd olunurdu ki, hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 250 təqvim günü müddətində tutan ödənişli məzuniyyət verilsin. Eyni zamanda qanun layihəsində hamiləlik dövründə və yaxud doğuşdan sonrakı müddətdə qadının arzusu ilə həyat yoldaşına növbədənkənar məzuniyyətə çıxmaq hüququnun verilməsi də nəzərdə tutulmuşdu.

Həmin qanuna düzəlişdə vurğulanırdı ki, kişilər də atalıq məzuniyyətinə çıxa bilərlər. Amma sadəcə 2 həftəlik bir müddətə, həm də ödənişsiz. Qanuna düzəlişdə həmçinin qeyd olunub ki, ataların məzuniyyətə buraxılması xanımından asılıdır. Qanuna yeni düzəlişə görə, kişilərə xanımlarının razılığı olduğu halda atalıq məzuniyyəti verilə bilər. Bu, 130-cu maddənin düzəlişi idi.

Daha dəqiq olsaq, Əmək Məcəlləsinin 130-cu maddəsinə görə, işçilərin xahişi və işəgötürənin razılığı ailənin xəstə üzvünə qulluq edən qohumlardan birinə - səhiyyə müəssisəsinin rəyi ilə 14 təqvim gününədək müddətdə ödənişsiz məzuniyyətlər verilir.

Əmək Məcəlləsinin bu tələblərinə əsasən işçinin ödənişsiz məzuniyyətlərdən istifadə etmək hüququnun yaranması üçün 3 əsas şərt olmalıdır:

1. İşçinin xahişi
2. İşəgötürənin razılığı
3. Əmək Məcəlləsinin 130-cu maddəsinə əsasən ailənin xəstə üzvünə qulluq edən qohumlardan birinə qulluqla əlaqədar səhiyyə müəssisəsinin rəyi.

Bu məzuniyyət sırf uşaq doğuluşu zamanı həyata keçirilmədiyindən və ətraflı nəzərdə tutulduğundan adı da konkret olaraq "atalıq məzuniyyəti" deyil.

Milli Məclisin Sosial siyasət komitəsindən aldığımız məlumata görə, ƏM-in 130-cu maddəsinə görə, ata olan kişilər yalnız 2 həftə, yəni 14 gün məzuniyyətə çıxa bilərlər. Amma bu məzuniyyət ödənişsiz olacaq. Bu qanun həm dövlət idarələrində, həm də özəl şirkətlərdə qüvvədədir. Amma özəl şirkətlərdə çalışan ataların əmək müqaviləsi olmalıdır.

❑ **Sevinc TELMANQIZI**

# "Sami Yusuf mənim mahnımı oğurlayıb"

## Niyaməddin Musayev onun olmadığı deyilən bir neçə populyar mahnı haqda da danışıb; "müəlliflik hüququm pozulur"; "İndi Bəxtiyar Vahabzadəni hardan tapım ki mənə şahidlik etsin?!"

**Bu günlərdə müğənni Nadir Qafarzadənin Azərbaycan əsilli müğənni Sami Yusuf haqqında dediyi təhqiramiz sözlər qalmaqala səbəb oldu. Bu səbəbdən hətta müğənninin çıxış etdiyi ATV telekanalından qovulduğu da iddia olundu.**



Bütün bu olaylar bir yana, müğənninin Sami Yusufun "Allahu Allah" mahnısı haqqında dediyi fikirlər çoxlarının diqqətini cəlb etdi. Nadir Qafarzadə iddia edirdi ki, bu mahnı əslində Niyaməddin Musayevin "Axtarma məni " mahnısıdır. Həqiqətən də hər iki mahnını dinləyərkən eyni melodiyaya malik olduğu barədə fikir yaranır. Əslində bu mövzu çoxdan dartışılır. Niyaməddin Musayevin olduğu deyilən "Şahnaz təsnisi", "Gecələr" və başqa bir neçə mahnının da başqalarına məxsus olması barədə ciddi arqumentlər səslənidirilib bu günə kimi.

Mövzu ilə bağlı Niyaməddin Musayev "Yeni Müsavat"ın əməkdaşına maraqlı açıqlama verib. Müğənni Sami Yusufun ifa etdiyi "Allahu Allah" mahnısı ilə müəllifi olduğu "Axtarma məni" mahnısının eyni olduğunu təsdiqləyib:

"1973-cü ildə əfqan mahnısı "Molla Mamacan"ı dinləyib, ondan bəhrələnərək "Axtarma məni" mahnısını bəstələdim. Sami Yusuf "Allahu Allah" mahnısını elə o mahnımdan götürüb. Ona deyən lazımdır ki, mən zamanında oxumuşdum da o mahnını... Sami Yusufu şişirdib qoyublar dağın başına. Hamı da bəh-bəhlə onu dinləyir. Həqiqət budur ki, o mahnının müəllifi mənəm! Məndən başqa onun sahibi yoxdur. Bir ara onu Məmmədbağır da oxudu, amma yenə də bildirirəm ki, o mahnının yeganə sahibi mənəm".

Lakin bəziləri Niyaməddin Musayevin oxuduğu "Axtarma məni" mahnısının heç də ona məxsus olmadığını deyirlər. Hətta mahnının 1968-ci ildə Bahadur Hüseynov tərəfindən bəstələndiyi, ilk ifaçısının da Yaqut Səfərova olduğu iddia edilir. Deyilənə görə, Müəllif Hüquqları Agentliyində mahnı Bahadur Hüseynovun adına qeydiyyatdan keçirilib.

**Niyaməddin Musayev bu iddialara da cavab verib:** "Bu söz-söhbət uzun müddətdir ki, gedir və təəssüf ki, bu gün də davam etməkdədir. Bir dəfə telekanalların birində Bahadur adlı tanımadığım bir şəxsi çıxartdılar ortalığa ki, bəs Niyaməddin müəllim, deyilənə görə "Axtarma məni" mahnısını bu oğlan yazıb. Onda həmin oğlandan soruşdum: "Ay oğlum, bu mahnını sən neçənci ildə yazmısan". Cavab verdi ki, 1978-ci ildə. Onda ona dedim ki, "sənə ayıb olsun, mən bu mahnını 1973-cü ildə Azərbaycan televiziyasında ifa etmişəm".

Qeyd edim ki, mahnının sözlərinin müəllifi Ruzigar Əfəndiyevadır. Bir gün Ruzigar sözləri götürüb yanıma gəldi ki, bəs belə bir sözlər var, mən də o sözlərə mahnı yazdım. Beləliklə, mahnım yarandı. İndi bəzi "pəhlivanlar" çıxıb ortalığa, mahnıma sahib çıxmaq istəyirlər. Onlar adamda allergiya yaradırlar. Deyərdim ki, bu dəhşətdir!".

N.Musayevin müəllifi olmadığı iddia edilən mahnılar içərisində "Gecələr" mahnısı da var. Azərbaycanın məşhur şairi olan Bəxtiyar Vahabzadənin sözlərinə olan bu mahnını da deyilənə görə, Bəhram Nəsibov bəstələyib və ilk ifaçısı da 1974-cü ildə Rəhilə Həsənova olub.

Bu arada bəzi araşdırmalarda o da qeyd edilir ki, Bəhram Nəsibov Azərbaycanın ən məşhur və populyar mahnılarının müəllifidir. Lakin ali musiqi təhsili olmadığına görə sovet qanunları Bəhram Nəsibovun adının çəkilməsinə icazə verməyib. Bunun nəticəsində onun mahnıları hansısa təsnif kimi təqdim olunub. İddia olunur ki, Niyaməddin Musayev də bunu fürsət bilərək B.Nəsibovun əksər məşhur mahnılarını öz adından yayımlayıb.

İddia edilir ki, "Gecələr" mahnısının ilk təqdimatı Bəhram Nəsibovun oğlunun ad gününə təsadüf edib və Niyaməddin Musayev də həmin məclisdə iştirak edib. Rəhilə Həsənova mahnını təqdim edərkən "Bəhramın bəstəsidi" kimi qeyd edib. Hətta 1988-ci ildə Bəhram Nəsibovun xatirə gecəsində "Gecələr" mahnısını ifa edən Elza Qaybalıyeva da müəllif kimi Bəhram Nəsibovun adını çəkib.

**Niyaməddin Musayev isə "Yeni Müsavat"a açıqlamasında "Gecələr" mahnısının hansısa qarmonçalana aid olduğunu deyib:** "Bu mahnının da ilk ifaçısı mənəm. Bir qədər sonra mahnını Rəhilə Həsənovaya verdim, biz bir yerdə çalışırdıq. Onda mən Filarmoniyada işləyirdim. Həmin dövrdə Sara Qədimova, Şövkət Ələkbərova, Əbülfət Əliyev bu mahnımı çox sevirdilər. Mahnının lent yazısı 1978-ci ildə işıq üzü gördü.

Mahnının musiqisi bir qarmon ifaçısına məxsusdur, adını hazırda unutmuşam. Onun haqqında daha çox müğənni Zöhrə Abdullayeva bilir. Əgər Zöhrə xanımı bu barədə danışdırsanız sizə daha yaxşı məlumat verər. Bildiyiniz kimi, mahnının sözləri görkəmli şairimiz Bəxtiyar Vahabzadəyə məxsusdur. Zamanında Bəxtiyar müəllim mənə deyirdi ki, Niyaməddin, bu mahnını necə gözəl oxumusan". İndi rəhmətliyi hardan tapıb şahid kimi danışdıraq?

Bəhram Nəsibovun qızı çıxıb deyir ki, bu mahnını mənim atam yazıb. Halbuki Bəhram mənim çox yaxşı dostum idi və özü də bu barədə demişdi ki, mahnı onun deyil".

**Müğənni digər mahnılarından da söz açıb:** "İndi də ortalığa çıxıb deyirlər ki, "Sevmirdim ki, mən" mahnısı da başqasına aiddir. Bunu, necə deyirlər, anlaya bilmirəm... "Elə bəndəm" mahnınmı indi xalq mahnısı kimi qeyd edirlər. Bu mahnı da mənimdir, sahibi mənəm. "Bu qala daşlı qala" mahnısını xalq mahnısı kimi qələmə verirlər. Belə olmaz, müəlliflik hüquqlarımız pozulur. Mənim hələ də məşhurluğunu itirməyən "Qurtuluş", "Röya", "Qiyamətə qalmaz", "El atası" mahnılarımı yüksək professional səviyyədə ifa edib lentə yazdırmışam".

❑ **Xalidə GƏRAY**

# Unudulan Novruz adətləri

**Folklorşünas alim:** "Novruza aid elementlərin bizə ən yaxşı halda üçdə biri gəlib çatıb"

**Novruz bayramının gəlişinə sayılı günlər qalıb. "Novruz" farsca "Yeni gün" deməkdir. Novruz bayramının mənşəyi qədimdir. Qədim zamanlardan Azərbaycan, İran, Əfqanıstan, Tacikistan, Özbəkistanda və bir çox Şərq ölkələrində baharın - yeni ilin gəlişini şənliklərlə qarşılayırlar.**

Novruz Azərbaycanla yanaşı İranda, Türkmənistanda, Tacikistanda, Özbəkistanda, Pakistanda, Qazaxıstanda, Qırğızıstanda xüsusi təntənə ilə qeyd edilir. Adətə görə süfrəyə "s" hərfi ilə başlayan 7 növ ərzaq qoyulur.

İranda süfrələrdə fərqli səməni olur və bu səməni ən çox mərcidən göyərdilir. Əfqan süfrəsi isə adətən stolun üstündə olmur. Süfrə yerə sərilir və ona dəstərxan deyirlər. Əfqan süfrəsində kompota bənzər bir təam da olur. Həmin təamın adı "həft meyvə", yəni yeddi meyvədir. Amma quru meyvələrdən hazırlanır. Əfqanlar bunu ancaq Novruzda hazırlayırlar. "Həft meyvə" ərik qurusu, kişmiş, qoz, iydə və sairdən hazırlanır.

Əfqanıstanda da Azərbaycandakı kimi yumurta döyüşdürülür. Qırğız süfrəsində məxsusi olaraq Novruzda bişirilən beşbarmaq olur. Bu, quzu ətindən və makarona oxşar un məmulatından bişirilir. Əllə yeyildiyinə görə bu yeməyə beşbarmaq deyilir. Tacikistanda isə Novruz martın 20-də başlayır, 3-4 gün davam edir. Uşaqlar yaz çiçəklərindən dərib yığır, qapıları döyür, ev sahibinə çiçəklərdən verir, ev sahibi də onlara ya konfet, ya yumurta, ya da pul verir. Özbəkistanda Novruz süfrəsi üçün nişala hazırlayırlar. Nişala şəkərdən bişirilir - ağ şokolad kimi olur.

Azərbaycanda isə adətə görə Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzidir. Azərbaycan kəndlisi səməni göyərtməklə növbəti təsərrüfat ilinə bərəkət, bolluq arzulamış, bayrama dörd həftə qalmış, hər çərşənbə axşamı və bayram günü tonqal qalamaqla, mahnı qoşmaqla inamını ifadə edib. Bütün bu mərasimlər İslamdan çox-çox əvvəl mövcud olmuş qədim Şərq ənənələrinin davamıdır. Novruz bayramında papaq atmaq, qulaq falına çıxmaq, tonqaldan tullanmaq, səməni yetişdirmək, yumurta döyüşdürmək kimi adətlər var. Ancaq bir sıra adətlər var ki, günümüzə təhrif olunmuş formada çatıb.

**Folklorşünas alim, professor Məhərrəm Qasımlı da Bahar qızı, atəşdən od götürüb tonqal qalamaq kimi adətlərin qondarma olduğunu bildirdi:** "Novruzla bağlı olduqca çox adətlər var ki, onlar hazırda unudulub. Novruza aid elementlərin, ünsürlərin bu gün bizə ən yaxşı halda üçdə biri gəlib çatıb. Bu dünya folklorunda da var ki, baharın gəlişi münasibəti ilə insanlar kosa ilə keçəli məxsərəyə qoyub ələ salırlar. Onlar sırf məsğərə obrazlarıdır. Kosa da keçəl də qışın rəmzidir. Fikir versəniz görərsiniz ki, onların əyni başı tör-töküntüdür, pay diləniriər və sairə. Burada əslində tarixi mərasim təhrif olunub. Tarixi mərasimdə kosa, keçəl, bir də keçi olmalıdır. Keçmiş rəsm əsərlərinə baxsanız görə bilərsiniz. Keçi yeni ilin, yazın rəmzi hesab edilir. Hazırda Keçini ortaya çıxarmaq çətinləşib deyə çıxarmırlar. Tarixi mərasimdə kosa ilə keçəl savaşır, meydana gələn keçi isə kosanın qarnını vurur dağıdır, keçəli isə qovub uzaqlaşdırır. Yəni köhnə ili, qışı qovub uzaqlaşdırır və



## "Bahar qızı sovet hökuməti dövründə uydurulmuş və Novruz bayramına yamanmış bir şeydir..."

özünün gəlişi ilə yazı, baharı gətirir. Tonqal yandırma mərasiminə gəlincə bu odun ocağın şəfaverici, aydınlaşdırıcı gücü ilə bağlıdır ki, adamlar öz dərdlərini, ağırlığını, uğurluğunu tonqalın üstündə yandırır. Arınmış, durulmuş bir rolla yeni günə, yeni həyata başlayırlar. Bunun atəşpərəstliklə heç bir əlaqəsi yoxdur. Çünki atəşpərəstlərdə tonqal, od müqəddəs idi. Müqəddəs odun üstünə də adam atılıb deyər ki, ağırlığım tökülsün?! Ona görə atəşpərəstlikdəki odla Novruz bayramındakı od ayrı-ayrı şeylərdi. Novruz bayramındakı tonqalın atəşpərəstliklə heç bir əlaqəsi yoxdur".

**Xatırladaq ki, bir müddət öncə papaq atmanın yığışdırılması ilə bağlı müzakirələr aparılırdı. Folklorşünas alim isə bunun tamamilə yanlış düşüncə olduğunu deyərək papaq atma mərasiminin qədimlərə söykəndiyini bildirdi:** "Papaq atma uşaqların əylənməsi üçün olan bir şeydir. Adamlar gəzişir, papaq atırdılar. Onların papağı isə qırmızı boyanmış yumurta, qorğa, konfetlə doldururlardı. Deyirlər ki, böyüklərin papağını qapıya atmaq olmaz. Bu düz fikirdir. Ancaq qapıya atılan böyüklərin yox, uşaqların papağı olur. Kimlərsə özündən nəsə uydurur ki, papağın yerinə kağız və torba atılsın, bu gülməlidir. Tarixə nəzər salsaq bu adətin olduğunu görərik. Qeyrət rəmzi böyüklərin papağı sayılır, uşaqların yox. Novruz bayramında gedib atəşdən od gətirirlər. Bu, qondarma, uydurma bir şeydir. Bu bizim mədəniyyətimizə yamaqdır. Bahar qızı da sovet hökuməti dövründə uydurulmuş və Novruz bayramına yamanmış bir şeydir. Azərbaycan ailəsində kim öz qızını qoyar ki, bahar qızı kimi çıxıb ortada oynasın. Milli mentalitet tarixi ona uyğun deyildi".

❑ **Günel MANAFLI**

# "Nar Mobile"ın baş sponsoru olduğu Start-up Festivalı baş tutdu

"Nar Mobile"ın tərəfdaşı olduğu "AİESEC Azərbaycan" gənclər üçün maraqlı bir tədbir keçirdi

**Müəyyən biznes sahəsinə başlamaq üzrə olanlar bu tədbirdə dəyərli təcrübə və faydalı məsləhətlər əldə etmək üçün əvəzolunmaz fürsət qazandılar. 14 mart 2015-ci il tarixdə Bakı şəhərində keçirilmiş tədbirin məqsədi biznesə marağı olan gəncləri və iş adamlarını bir araya toplamaq idi. 18-30 yaş arasındakı iştirakçılar istedadlı Azərbaycan gəncləri, dünya biznesi və yerli bazarın uğur qazanmış iş adamları arasından seçildi.**

**Qeyd edək ki, layihənin əsas məqsədi Azərbaycanda Start-up və biznes inkişafını təmin etmək üçün gəncləri yeni iş ideyaları yaratmağa təşviq etmək və gənc sahibkarlar və sahibkarlıqla maraqlanan tələbələr üçün yeni imkanlar yaratmaq idi. Dünyaca məşhur şirkətlərin nümayəndələri xüsusi olaraq bu tədbir üçün Azərbaycana gəldilər. Çıxışçılar arasında "Google UK" şirkəti "Youtube" strateji departamentinin icraçı tərəfdaşı Cavid Aslanov, "Sweetriot" şirkətinin təsisçisi və rəhbəri Sara Endlayn, "Dey Dos Popcorn Academy"nin təsisçisi və rəhbəri Dey Dos, "RED Communications" və "Maxmedia Creative Communications"-ın icraçı tərəfdaşı Tatyana Mikayılova, "Scoala De Valor" şirkətinin rəhbəri Stefan Palari və "Ali & Nino" kitab mağazaları şəbəkəsinin təsisçisi və icraçı direktoru Nigar Kөçərlinin adlarını çəkmək olar.**

**AIESEC gənclərin liderlik potensialını aşkar və inkişaf etdirmək məqsədilə yaradılan təşkilatdır. 124 ölkədə fəaliyyət göstərən və dünya üzrə 1 milyondan çox üzvü olan «AIESEC» planetin ən böyük gənclər təşkilatıdır. Nelson Mandela və Bill Klinton kimi tanınmış simalar «AIESEC» üzvləri olmuşlar. Birləşmiş Millətlər Təşkilatı, "Microsoft", "PwC" də daxil olmaqla, dünya üzrə 8 min qurum və təşkilat «AIESEC»in rəsmi tərəfdaşıdır.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan "Nar Mobile", 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təklifləri təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. "Nar Mobile" Bakı 2015 Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.**

# Bakıda ana qatili özünü məhkəmə zalında doğradı

**Martın 18-də Bakı Ağır Cinayətlər Məhkəməsində anasını qətlə yetirməkdə təqsirli bilinən Bakı şəhər sakini, 1992-ci il təvəllüdlü Elvin Əzimovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

Lent.az-ın məlumatına görə, hakim Şəkər Məmmədovanın sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxs gizlətdiyi ülgüclə bədənini doğramağa cəhd edib. Penitensiar Xidmətin və məhkəmənin icra şöbəsinin əməkdaşlarının məsələyə yerində müdaxiləsindən sonra E. Əzimovun istəyi tam reallaşmayıb. O, zərərsizləşdirilib. Məhkəmə fasilə elan edib.

Qeyd edək ki, qətl ötən il Sabunçu rayonu Bakıxanov qəsəbəsi, E. Xəlilov küçəsi, 1 ünvanında baş verib. Orada yaşayan, 22 yaşlı Elvin Emin oğlu Əzimov anası, 1968-ci il təvəllüdlü Esmira Talış qızı Əzimovanı qətlə yetirib. Elvin Əzimov qətli törətdikdən sonra binanın pəncərəsindən tullanaraq qaçmaq istəyib. Bu zaman onun hər iki ayağı sınıb.

# Burnundan əməliyyat olunmaq istəyən qız öldü

**Azərbaycanda burnundan plastik əməliyyat olunmaq istəyən tələbə qız dünyasını dəyişib. «Trend»in verdiyi məlumata görə, Azərbaycan Maliyyə-İqtisad Kollecinin tələbəsi olan Mürsəlova Leyla Namiq qızı dünən özəl klinikalardan biri̇ndə - "StarMed"də burnundan plastik əməliyyat olunmaq istəyib. Lakin tələbə qıza əməliyyat üçün narkoz verilən kimi o, dünyasını dəyişib. İlkin olaraq, qızın narkozun dozasının yüksək olması səbəbindən öldüyü ehtimal edilir. Mərhumun həkiminin cərrah Sənan Mehdiyev olduğu bildirilib. Kollecdən L.Mürsəlovanın ölüm faktını təsdiqləyiblər. Kollecdən «Trend»ə deyilib ki, rus bölməsində maliyyə ixtisası üzrə 94-cü qrupda təhsil alan L.Mürsəlova III kurs tələbəsi olub. O, bu il məktəbi başa vuracaqdı. Kollecdən də L.Mürsəlovanın narkoz verilən zaman dünyasını dəyişdiyi bildirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Qədirli «Trend»ə deyib ki, faktla bağlı nazirliyə hər hansı rəsmi məlumat daxil olmasa da, məsələ araşdırılacaq. Müvafiq məlumatlar daxil olduqdan sonra Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi tərəfindən ekspertiza həyata keçiriləcək. Bundan sonra isə Səhiyyə Nazirliyi faktla bağlı tədbirlər görə bilər. Məsələ ilə bağlı əlaqə saxladığımız Samir Mehdiyev əvvəlcə danışdığımız şəxsin onun özü olduğunu təsdiqləsə də, sualımızı eşitdikdən sonra "danışan Samir müəllimin köməkçisidir, siz bir saatdan sonra əlaqə saxlayın" deyərək telefon əlaqəsini dayandırdı. Sonradan dəfələrlə zəng etməyimizə baxmayaraq, S.Mehdiyev telefona cavab vermədi.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyüməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağrılaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Yuxuda ikən qan təzyiqinin yüksək qalxması**
* Səhərə yaxın yüksək qan təzyiqi
* **Boyun-baş bel-ayaq ağrıları və asteoxondorz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**
**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 mənzilə daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (051) 984-90-63**



## Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları:** 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04



## Elan

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**
**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT
N 61 (6089) 19 mart 2015

**Dosye: Seymur Verdizadə 1998-ci ildə Ankaradakı Qazi Universitetinin tarix fakültəsini bitirib. 1998-2013-cü illərdə "Bu gün", "Rakurs", "Cümhuriyyət", "Vətəndaş Həmrəyliyi", "Xəzər" və "Reytinq" qəzetlərində məsul redaktor vəzifəsində çalışıb. 2009-cu ildən "Jurnalist Araşdırmaları Mərkəzi" İctimai Birliyinin sədridir. 2012-ci ildə Türkiyədə fəaliyyət göstərən Avrasiya Qəzetçilər Dərnəyi tərəfindən "İlin ən yaxşı jurnalisti" seçilib. Ailəlidir, bir oğlu, bir qızı var.**

Seymur VERDİZADƏ



# Sözdə və qanunda gender, praktikada bərabərsizlik...

Bu sahədə mövcud olan problemlərin uzun illərdən bəri aradan qalxmaması məni tez-tez gender mövzusunda yazmağa vadar edir. Hesab edirəm ki, biz təkcə sözdə deyil, əməldə də gender bərabərliyinə nail olmalıyıq. Müasir dünyada kişilərlə qadınların bərabərliyi insan hüquqlarının və demokratiyanın ayrılmaz tərkib hissəsi sayılır. Bu bərabərlik özünü həm qanunlarda, həm də praktikada göstərməlidir. O ölkədə ki kişi-qadın bərabərliyi yoxdur, deməli, demokratiya da natamamdır.

Avropada, eləcə də Azərbaycanda kişi və qadın bərabərliyinin siyasi prioritetə çevrilməsinə baxmayaraq, bu sahədə problemlər çoxdur.

Doğrudur, Azərbaycan Şərqdə qadına seçmək və seçilmək hüququ verən ilk respublikadır. Ölkə konstitusiyası da kişilərə və qadınlara eyni hüquqlar verib. Həmçinin Azərbaycan gender bərabərliyinin təmini üçün bir sıra qanun və qərarlar qəbul edib, bəzi beynəlxalq konvensiyalara qoşulub.

Müşahidələr isə göstərir ki, ölkəmizdə qadınlar kişilərlə eyni hüquqlara malik olsalar da, kişilərə təklif olunan imkanlar qadınlar üçün eyni dərəcədə əlçatan deyil.

Baxmayaraq ki, qadınlarımız bütün ictimai sferalarda, siyasətdə və biznesdə iştirak edir, pozitiv dəyişikliklər baş verir, amma hələ görüləcək işlər çoxdur. Xüsusilə də ölkənin regionlarında.

**Azərbaycan parlamentinin deputatı Sahibə Qafarova** deyir ki, hələ heç bir ölkə gender stereotiplərindən tam azad deyil, o cümlədən də Azərbaycan. Deputatın fikrincə, gender siyasətinin uğur qazanmasında media vəkil rolunu oynamaqla cinsi ayrı-seçkiliyə qarşı mübarizədə insanların düşüncəsinə təsir etmək baxımından böyük işlər görə bilər.

**"Ona görə də medianın gücündən doğru şəkildə və effektiv istifadə etmək lazımdır. Gender siyasətində dəyişikliklər çox yavaş baş verir və araşdırmaların nəticələri göstərir ki, vəziyyət hələ idealdan çox geridədir. Hələ çox şey etmək lazımdır"**-deyə deputat bildirib.

Amma S.Qafarova Azərbaycanda gender siyasətinin əksər ölkələrlə müqayisədə uğurla həyata keçirildiyi qənaətindədir. Deputatın fikrincə ölkəmizdə qadınlara öz istedad və bacarıqlarını nümayiş etdirmək, idarəçilikdə və ictimai həyatda fəal iştirak etmək üçün hər cür şərait yaradılıb.

Onun sözlərinə görə, bu gün Azərbaycan qadını ictimai həyatın hər bir sahəsində fəallıq göstərir. Azərbaycanda qadınların üstünlük təşkil etdiyi sahələr içərisində səhiyyə (78,6 faiz), təhsil (71 faiz) və mədəniyyət (75 faiz) ən ön sıralardadır. Həmçinin səhiyyə sistemində rəhbər vəzifədə çalışanların 37 faizini, təhsil sahəsində 44 faizini, mədəniyyət və turizm qurumlarında 23 faizini qadınlar təşkil edir:

**"Bu məqamlar Azərbaycan hökumətinin imkanların genişləndirilməsi, qadınların cəmiyyətdə fəallığının artırılması və ümumiyyətlə, onların vəziyyətinin yaxşılaşdırılması məsələlərinə göstərilən yüksək qayğının əyani təzahürüdür. Lakin son illər qadınların həm də siyasi və ictimai qərar qəbuletmə səviyyəsində, iqtisadi sferada iştirakı nəzərəçarpacaq dərəcədə artıb. Təbii ki, bu görülən işlərin nəticəsində mümkün olub. Düşünürəm ki, Azərbaycanda həyata keçirilən gender siyasəti bir çox dövlətlər üçün nümunə ola bilər".**

Bəs rəsmi statistika nə deyir?

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, hazırda ölkə əhalisinin ümumi sayının 50,3 faizini və ya 4 milyon 772,4 min nəfərini qadınlar təşkil edir.

Rəsmi statistikaya görə, ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edən Azərbaycan qadınlarının məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi 48,8 faizdir. Ümumi təhsil müəssisələrində müəllimlərin 76,2 faizi, orta ixtisas təhsil müəssisələrində 77,5 faizi, ali təhsil müəssisələrində 47,2 faizi, həkimlərin isə 64,4 faizi qadınlardır.

Rəsmi məlumata görə, indi Azərbaycanda elmi işçilərin 51,2 faizini qadınlar təşkil edir. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28 faiz, sahibkarlar arasında isə 17 faizdir.

Milli Məclisdə qadın millət vəkillərinin sayına gəldikdə, əgər 1990-cı ildə bütün deputatların 4,3 faizini, 2000-ci ildə 10,7 faizini qadınlar təşkil edirdisə, bu gün ölkə parlamentində qadınların xüsusi çəkisi 16 faizə çatıb. Hazırda Milli Məclisdə 19 qadın millət vəkili var.

Azərbaycan bələdiyyələrinin üzvləri arasında qadınların xüsusi çəkisi 26,1 faizdir ki, bu da 4194 nəfər deməkdir.

Şəhər və rayonların İcra hakimiyyətlərində müavinlərdən biri qadınlardır.

Diqqəti cəlb edən faktlardan biri də nəqliyyat vasitələrinin idarə olunması üçün sürücülük vəsiqəsi alan qadınların sayının ildən-ilə artmasıdır. Belə ki, 2005-ci ildə onların sayı 2285 nəfər olduğu halda, 2013-cü ildə 11166 nəfərə çatıb.

Əlbəttə, yalnız rəsmi statistikaya istinad etsək, deyə bilərik ki, Azərbaycan qadınları cəmiyyətimizin tam hüquqlu üzvləri kimi ölkənin sosial, iqtisadi və ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Amma gerçək vəziyyət hələ tam nikbinliyə əsas vermir. Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycanın regionlarında vəziyyət paytaxt Bakı ilə müqayisədə heç də ürəkaçan deyil.

Ekspert Sevda Məmmədli deyir ki, Azərbaycan cəmiyyətində qadın hələ kişinin mövqeyinə çata bilməyib. Bu yanaşmanın nəticəsidir ki, hazırda Azərbaycanda bütün sahələrdə, o cümlədən idarəetmədə, qərar qəbulunda, biznes fəaliyyətində, ailədə kişilər qadınları böyük faizlə üstələyir. Deməli, təkcə hüquqi bazanın olması kifayət etmir. Müsahibimizin fikrincə, qadının önə çıxa bilməsi, özünü təsdiqləməsi üçün çox işlər görülməlidir.

**"Bəzən hətta qadın kişindən ağıllı olsa da, kişilərin hegemonluğu zərif cinsdən olanların önə çıxmasına imkan vermir. Azərbaycanda qadınlar layiq olduqları yeri tuta bilməyiblər"**-deyə ekspert vurğulayıb.

**"Gender bərabərliyi o vaxt olacaq ki, qadınla kişi qərar qəbulunda, təkcə sözdə deyil, praktikada da bərabər hüquqlu olacaqlar"** - S.Məmmədli deyir.

Qeyd edək ki, ölkəmizdə gender bərabərliyi ilə bağlı lazımi sənədlər qəbul olunub. Azərbaycan 1995-ci ildə BMT-nin "Qadınlara Qarşı Ayrı-Seçkiliyin bütün növ fomalarının ləğv edilməsi haqqında" Konvensiyasını ratifikasiya edib. 2000-ci ildə prezident dövlət qadın siyasətinin həyata keçirilməsi üzrə fərman imzalayıb. Fərman bütün dövlət strukturlarında qadınların təmsil olunma faiziin kişilərlə eyni səviyyədə olmasını nəzərdə tutur. Ölkədə Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb.

2006-cı ildə gender bərabərliyi haqqında qanun qəbul edilib. Bütün bu tədbirlərə baxmayaraq Azərbaycan qadın və kişilərin hüquq bərabərliyinin səviyyəsinə görə dünya ölkələri arasında orta yerlərdən birini tutur.

Bunun əsas səbəbi praktikada gender bərabərliyinin olmamasıdır.

**Ekspert Sevda Məmmədli** deyir ki, regionlarda qadınlar gender bərabərliyi haqda o qədər də xəbərdar deyillər. Eyni zamanda rayonlarda kişilərin də maarifləndirilməsinə ehtiyac var ki, bu, onların düşüncə tərzinin dəyişməsinə təsir göstərsin.

Rayonlarda həm qadınlar, həm də kişilərin əksəriyyəri mentalitetə uyğun olaraq düşünürlər ki, qadının rolu ondan ibarətdir ki, kişiyə, ailəsinə qulluq etsin. Amma bunun ifrat dərəcədə qəbul edilməsi vəziyyətə mənfi təsir göstərir.

Araşdırmalar göstərir ki, bizim ölkəmizdə də kişi və qadın məvacibləri arasında fərq mövcuddur. Azərbaycan rayonlarında qadınlar hələ də ictimai problemlər ucbatından, məsələn, zorakılıq, siyasi və iqtisadi həyatdan sıxışdırılma, işəgötürmədə ayrı-seçkilik və peşə həyatı ilə şəxsi həyatın uzlaşdırılmasında çətinliklər səbəbindən heç də kişilərlə eyni imkanlara malik deyillər.

Ekspetlər deyirlər ki, cinslərin oturuşmuş rolları və dərin kök atmış mədəni amillər gələcək tərəqqiyə mane olur. Mədəni dəyişikliyə ehtiyac var. Bu dəyişiklik yalnız məktəbdə və ailələrdə maarifləndirmə vasitəsilə və medianın bu sahəyə tam cəlb olunması ilə mümkündür. Gender stereotipləri qaldıqca ayrı-seçkilik davam edəcək, çünki bu gün qadınların inkişafında əsas maneə qanunlar və ya qanun qüvvəli aktlar deyil, məhz onlardır.

**Yazı Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC) və D.Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətindən ibarət Koalisiya tərəfindən icra edilən və ABŞ Beynəlxalq İnkişaf Agentliyi tərəfindən maliyyələşən "Counterpart İnternational"ın rəhbərlik etdiyi Qadın İştirakçılığı Proqramı çərçivəsində keçirilən "CEDAW ƏMƏLDƏ" adlı layihəsi üçün hazırlanıb.**

# Partiyalarda bayram törənləri...

## Bəzi təşkilatlar Novruz şənliyi təşkil etməyəcək

**Qarşıdan Novruz bayramı gəlir. Ölkə ərazisində müxtəlif bayram tədbirləri keçiriləcək. Bəs siyasi partiyalar bayram törənini necə keçirəcək? Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədr müavini Elçin Mirzəbəyli təmsil etdiyi partiyanın bayram tədbirini artıq qeyd etdiyini bildirdi: "Biz bayramlaşmanı bir qədər qabaqladıq. Bazar ertəsi partiya rəhbərliyi və üzvləri ilə birlikdə iclas keçirərək, milli bayramı qeyd etdik. Bayram şirniyyatları və nemətlərindən daddıq. Ümumiyyətlə, çalışırıq ki, bayram və əlamətdar günlərdə imkan daxilində tədbirlər keçirək".**



**Ümid Partiyasının sədri İqbal Ağazadə** partiyada bayram tədbiri keçirilməyəcəyini bildirdi: "Partiyadakı heç bir şöbə, icra aparatı Novruz bayramının keçiriləcəyi barədə mənə məlumat verməyib. İlaxır çərşənbədə də heç bir tədbir olmadı. Güman etmirəm ki, 20 mart bayram günü ərəfəsində də hansısa tədbir keçirilsin".

**Vətəndaş Həmrəyliyi Partiyasının** (VHP) İcra Aparatının rəhbəri Samir Əsədli "Yeni Müsavat"a açıqlamasında bayramı partiya qərargahında üzvlərlə birlikdə qeyd edəcəklərini söyləyib: "Hər il olduğu kimi, Novruz bayramı partiya qərargahında üzvlərlə birgə qeyd olunacaq. Həmçinin VHP-nin ofisi olan rayon təşkilatlarında da yerli üzvlərlə bayram tədbiri keçiriləcək. Bu il elə böyük şənlik nəzərdə tutulmayıb. Çünki bayram günlərində VHP sədri ölkədə olmayacaq".

**Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı** da öz növbəsində qeyd etdi ki, partiya Novruz bayramı münasibətilə xüsusi tədbir keçirməyəcək: "Partiyada hər hansı bir tədbirin keçirilməsi planlaşdırılmayıb. Lakin hər il olduğu kimi, qruplar şəklində siyasi məhbuslara baş çəkəcək, vicdan məhbuslarının ailələrini ziyarət edəcəyik".

**Demokratik İslahatlar Partiyasının (ADİP) mətbuat katibi Ülkər Abdullayeva** bildirdi ki, partiya Novruz bayramı ilə bağlı xüsusi və təntənəli bayram tədbirinə hazırlaşmasa da, dar çərçivədə kiçik şənliklə qeyd ediləcək: "Partiyamız həmişə əlamətdar günləri və bayramları daimi olaraq qeyd edir, bu bizdə ənənə formasını alıb. Adətən partiya üzvləri qərargaha toplaşaraq bu günləri həyata keçirir. Təbii ki, Novruz bizim milli və ən gözəl bayramımızdır. Buna görə də bayramdan bir gün əvvəl, yeni martın 19-da iş günün sonunda baş qərargaha toplaşaraq üzvlərimiz və fəallarımızla birlikdə bayramı qeyd edəcəyik".

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT

Son səhifə

N 61 (6089) 19 mart 2015

# Dişi qırıldı, həyatı xilas oldu



"Daily Mail"in xəbərinə görə, 34 yaşında 4 uşaq anası olan Lisa Epsom oğlunun meyvə suyu şüşəsini dişi ilə açmağa çalışarkən dişini qırıb. Qırıq dişi üçün həkimə gedən Epsom ortaya çıxan gerçək qarşısında şoka düşüb. Qadının ağzının içində çıxıntılar olduğunu görən həkim ondan bəzi analizlər etdirməsini istəyib. Analizlər nəticəsində məlum olub ki, qadının üzündə qolf topu böyüklüyündə şiş var. 14 saatlıq əməliyyatın sonunda qadının üzündəki şiş çıxarılıb. Həkimlər Lisanın şanslı olduğunu açıqlayıblar. Gənc qadın dişi qırıldığı üçün sevinir. Çünki dişi qırılmasaydı indi ölmüş olacağını deyir.



## Ev alana ada verilir

Cənub qütbündəki adada başqa bir mülk olmadığı üçün dəyəri 20 quruş olan evi alan bütün adanın sahibi olacaq. Buoya adlı ada evlə birlikdə satışa çıxarılıb. Evin yeni sahibinin qarşısına isə yalnız bir şərt qoyulub. Uçuq-sökük ev təmir edilməlidir. Cənub qütb dairəsində 1970-ci ildən bəri heç kəs yaşamayıb. Evi sahibi olan Karslen adlı yaşlı kişi pulun onun üçün önəmli olmadığını, yalnız evin yaxşı təmir edilməsini istədiyini deyib.



## Qadın 43 il kişi kimi işlədi...

Misirdə 63 yaşlı qadın ailəsini dolandırmaq üçün 43 il kişi kimi işləyib. Sisa Abu Daooh adlı qadın evlənəndən qısa müddət sonra həyat yoldaşı ölüb. 21 yaşlı dul qadın özünü və doğulmamış övladını dolandırmaq üçün kişi geyimində işləyib. O, 43 il ərzində bu yolla inşaat işlərində, tarlalarda, təmizlik işlərində çalışıb. Qızı böyüyən qadın onu evləndirsə də qızının əri iflic olub. Sisa bundan sonra da ailənin bütün yükünü öz üzərinə götürüb. O həm özünü, həm də qızının ailəsini dolandırmaq üçün işləməyə davam edib. Misir hökuməti də qadının bu fədakarlığını qiymətləndirərək onu "ideal ana" elan edib.

"Mən özümü kişilərdən və onların baxışlarından qorumaq üçün kişi olmağa qərar verdim. Onların paltarlarını geyinib məni heç kəsin tanımadığı yerdə işləməyə başladım", - deyə Sisa Abu Daooh bildirib. Qeyd edək ki, qadın hələ də dəmir yolunda kişi geyimində ayaqqabı rəngləyir.

# Baş nazirə naz etdi

İngilis aparıcı Susanna Reidin baş nazir David Kameronla reportajı zamanı etdiyi hərəkətlər dedi-qodulara səbəb olub. Belə ki, "Good Morning Britain" adlı proqramın aparıcı baş nazirlə söhbət edərkən qəribə hərəkətlər edib. Aparıcının bu hərəkətləri "Daily Mail" qəzetində də əksini tapıb. Yazarlar onun baş nazirin diqqətini cəlb etmək üçün naz-qəmzəli hərəkətlər etdiyini yazıblar.

On il BBC-də çalışdıqdan sonra İTV kanalında işləməyə başlayan Susanna Reid proqram zamanı Kamerona 14 sual verib. Onlardan on biri ailə həyatı, ikisi siyasətlə, yalnız bir sual isə qarşıdan gələn seçkilərlə bağlı olub. Ölkə mediasında Reidin baş nazirə naz etməyə çalışdığı yazılır. Aparıcının hərəkətlərini izah edən bədən dili üzrə mütəxəssis Judi James də onun diqqət çəkmək üçün belə hərəkətlər etdiyini vurğulayıb. Mediada onun bu hərəkətlər "Nazın 50 növü" deyə adlandırılır.






## Meymun üçün 50 min imza

Tayvandakı bir alış-veriş mərkəzinin 6-7-ci mərtəbələrindəki zooparkda 28 ildir saxlanılan Bua Noi adlı qorilla cinsindən olan meymunun acı hekayəsi bütün dünyadakı heyvan sevənləri ayağa qaldırıb. 1987-ci ildə meşədən tutularaq alış-veriş mərkəzindəki zooparka salınan meymunun yenidən meşəyə qaytarılması üçün 50 mindən çox imza toplanıb.

Bua Noinin dəmir barmaqlıqlar ardında saxlanıldığı zooparkda 200-dən çox heyvan çox pis şəraitdədir. Heyvanları rahat yaşayacağı bir yerə göndərməyə razılaşmayan zoopark sahibi Kanit Sermsirimongkol 30 il əvvəl heyvanları sevdiyi üçün onları buraya gətirdiyini və heç vaxt onları başqa yerə göndərməyəcəyini deyib. Lakin heyvan sevənlər meymun başqa zooparka göndərilənə qədər kampaniyaya davam edəcəklərini deyiblər.




**QOÇ** - Maraqlı hadisələrlə rastlaşacağınız gözlənilir. Hətta könülaçan məclislərdə də iştirak edə bilərsiniz. Yeni iş üslubuna keçmək barədə bayramqabağı bir daha götür-qoy edin.

**BUĞA** - Böyük dəyişikliklər astanasındasınız. Ulduzlar sürpriz dolu məqamlar yaşayacağınıza imkan verəcək. Amma belə anlarda kiməsə yalan satmaq, hiyləgərlik etmək yolverilməzdir.

**ƏKİZLƏR** - Neçə gündən bəri başladığınız işgüzar fəaliyyətinizi bu təqvimdə də davam etdirməlisiniz. İşlə bağlı qarşınızı kəsən bütün maneələri dəf etməyə çalışın. Kənar təsirlərə aludə olmayın.

**XƏRÇƏNG** - Aktiv gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Tərəddüd etdiyiniz məsələlərdə mütləq məsləhət alın. Nahardan sonra sevindirici hadisələr gözlənilir.

**ŞİR** - Maliyyə məsələləri ilə bağlı əlverişli gün olsa da, çox güman ki, mübahisəsiz keçinməyəcəksiniz. Ədalətli qərarlara hörmətlə yanaşın. Nahardan sonra səfərə çıxmağa dəyər.

**QIZ** - Ümumi əhvalınız qənaətbəxş olsa da, iş yerində çətinliyiniz olacaq. Bu səbəbdən üzərinizə düşən vəzifələrin məsuliyyətini hiss etməlisiniz. Axşam uzaq yola çıxmağa dəyər.

**TƏRƏZİ** - Həddindən ziyadə uğurlu gündür. Ovqatınız xoş, maddi durumunuz isə qənaətbəxş olacaq. Odur ki, bu istiqamətdə aktivliyinizi artırmalısınız. Ailə problemlərinə biganə yanaşmayın.

**ƏQRƏB** - Şəxsi büdcənizdə irəliləyişə nail olmaq üçün gözəl şanslarınız var. Uzun müddət ala bilmədiyiniz borclarınızı və ya haqqınızı almaqda ulduzlar sizə kömək göstərəcək. Axşamı evdə keçirin.

**OXATAN** - Olduqca müəmmalı gündür. Ətrafınızda cərəyan edən proseslərdən baş çıxara bilməyəcəksiniz. Bu səbəbdən də hər hansı addımı atmazdan qabaq ehtiyat tədbirlərinizi artırmalısınız.

**OĞLAQ** - Müəyyən məziyyətlərinə görə uğurlu gün hesab etmək olar. Ailə-sevgi münasibətlərindən tutmuş iş prinsipinə qədər rastlaşdığınız olaylar yalnız xeyirli olacaq. Özünüzü bədbinləşdirməyin.

**SUTÖKƏN** - Göy qübbəsinin qənaətlərinə görə, yavaş-yavaş həyatın nəbzini tutmağa başlamısınız. Daxili sarsıntılarınız da səngiməkdədir. Gününüzü daha maraqlı etmək üçün qonaq getməyə çalışın.

**BALIQLAR** - Son vaxtlar özünüzə qapılmağınız heç də ulduzların xoşuna gəlmir. Çünki bu kimi hallar insanın ümidini qırır. Nahardan sonra qonaq gedin ki, fikriniz dağılsın. Pul da gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 10 ayında 20 kilo



Hindistanda yaşayan Aliya adlı uşaq çox kök olduğu üçün hər kəsin diqqət mərkəzindədir. Ailəsi ona yemək çatdıra bilmədiyindən şikayət edir. 10 aylıq Aliya 6 yaşlı qız uşağının çəkisinə - 20 kiloya sahibdir. Balaca qızın ailəsinin maddi vəziyyəti yaxşı olmadığından onu müalicə etdirə bilmir. Mütəxəssislər Aliyanın dünyanın ən kök uşaqlarından biri olduğunu deyirlər. Bu da onun gələcəkdə səhhəti ilə bağlı problemlərin yaranmasına səbəb ola bilər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300